Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 127 (7854) CÜMƏ AXŞAMI, 7 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur



**İyunun 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam **Allahşükür PAŞAZADƏ** mərasim iştirakçılarını salamlayaraq dedi:

*Ardı 2-ci səh.*

## 43 ölkə, 1500-dən artıq idmançı...

**David Lappartyen:**

### "Azərbaycanda beynəlxalq idman tədbirləri uğurla keçirilir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, David Lappartyen velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə etdi. O, bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirdi. Azərbaycanda beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini deyən David Lappartyen Bakıda I Avropa Oyunlarının açılışının gözəl təşkil olunduğunu və orada iştirakını məmnunluqla xatırladı.

Dövlət başçısı Bakıda keçirilən velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının önəminə toxunaraq Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə idmanın inkişafına təkan verir.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olundu, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Cəbhə xəttindən reportaj

## Lələtəpədən Xankəndiyə doğru!



### Ali Baş Komandan İlham Əliyevin hücum əmrini Azərbaycan Ordusunun qələbə ilə başa çatdırmağa tam hazır olması 100-cü ildönümə ən böyük töhfədir

**...Gözəl bir yaz səhəri açılır. Hava bir az isti olsa da, səhərin təmiz mehi və ətrafdakı rəngarənglik insan beyninə sakitlik gətirir.Yaz çiçəkləri, xüsusən də al-qırmızı lalələr göz oxşayır. Quşların səs-səsə verib ötüşməsi də bu mənzərəyə öz çalarını qatır. Təbiətin yaratdığı füsunkarlığa tamaşa edə-edə hərbi təyinatlı avtomobillə yüksəkliyə qalxırıq. O yüksəkliyə ki, iki ildən çoxdur burada üçrəngli bayrağımız dalğalanır.**

**Getdiyimiz bu yol zəfərə gedən yoldur...**

**Lələtəpəyə gedən yoldur...**

**Ayaq basdığımız torpaq isə başımızı uca edən qürur rəmzimizdir...**

### Şəhid qanı ilə yoğrulan torpaq

Əlbəttə, müharibədə əldə olunan hər bir zəfər müəyyən itkilərin hesabına başa gəlir. Aprel döyüşlərində qələbə uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan igid oğullar Azərbaycanın şərəf salnaməsinə yeni səhifələr yazdılar.

Üzərində durduğumuz yüksəklik şəhid qanı ilə yoğrulan Vətən torpağı, müqəddəsləşən Lələtəpə zirvəsidir. Hərb tariximizin qəhrəmanlıq salnaməsinə öz şərəfli imzalarını ataraq ölümsüzlüyə qovuşan igid oğullar iki il öncə bu məkanda qəhrəmancasına savaşaraq bu torpağı bizə miras qoydular. Onların bəzisi bu yüksəklik uğrunda canından keçərək həm Lələtəpəni, həm də şəhidlik zirvəsini fəth etdi. Onlar xalqımızın qəhrəmanlıq dastanını qanları ilə yazdılar. Ona görə də əzəli torpaqlarımıza göz dikənlər bilməlidirlər ki, xalqımızın igid övladları, qüdrətli Milli Ordu ayağa qalxıb tezliklə öz torpaqlarını azad edəcək, şəhidlərimizin müqəddəs ruhları qarşısında öz vicdan borclarını verməklə zəfər marşını çalacaqlar.

İndi bu yüksəkliyə aprel döyüşlərində böyük hərbi şücaət göstərmiş Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi nəzarət edir.

*Ardı 5-ci səh.*

## "Cənub qaz dəhlizi"nə böyük töhfə

### Xəzər regionunun yeganə boruörtükləmə zavodu yeni layihələr gözləyir

**Caspian Pipe Coatings (CPC) Xəzəryanı regionda fəaliyyət göstərən yeganə müasir boruörtükləmə zavodudur. Bu, müəllifi ümummilli lider Heydər Əliyev olan yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanda fəaliyyətə başlayan yeni müəssisələrdən biridir. Hazırda regionda özünəməxsus yer tutan CPC Bakıda 2002-ci ildə o vaxt hələ SOCAR-ın birinci vitse-prezidenti vəzifəsində çalısan cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılıb.**



Yarandığı dövrdən bəri CPC ümumi uzunluğu 2500 kilometrdən çox müxtəlif diametrli boruların örtüklənməsini həyata keçirib. Zavod Azərbaycanda bir sıra mühüm neft-qaz və ixrac layihələrinə əməliyyatçılıq edən BP şirkətinin "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, "Şahdəniz-1" və "Şahdəniz-2", "Çıraq Neft Layihəsi", "Lay Suları" işlənmələri çərçivəsində çoxsaylı sifarişlərini yerinə yetirib. Müəssisə eləcə də SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Neft Daşları-Bahar", "Bahar-Hövsan", "Xarə-Zirə-NYM 1" və "Ümid" üçün boruları örtükləyərək bu layihələrin icrasında yaxından iştirak edib.

CPC Bakının sənaye zonasında yerləşir. Şirkətin coğrafi mövqeyi quruda və dənizdə quraşdırılan kəmərlərin borularını yüksək səviyyədə örtükləməklə yanaşı, həm də onların öz yerinə təhlükəsiz çatdırılması qayğısına qalır.

Şirkətin qazandığı müvəffəqiyyətləri şərtləndirən amillər çoxdur. Bu, ilk növbədə onun müasir avadanlıqları, geniş ərazisidir. Müəssisənin ərazisində dəmir yolu kommunikasiyaları, gəmilərdən boruların və konteynerlərin yüklənib-boşaldılması əməliyyatlarının səmərəli keçirilməsinə imkan verən limanı, yükqaldırma və yükdaşıma üçün müasir texniki vasitələri var. Ən başlıca şərtlərdən biri də bütün bunları idarə edən və əməliyyatları yerinə yetirən peşəkarlardır.

Bu yaxınlarda Bakıda keçirilən 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində CPC-nin bir qrup mütəxəssisi ilə tanış olduq. Müəssisənin boru sahəsi üzrə menecer müavini Səməd Mədətov bildirdi ki, sərgidə hər il iştirak edir və gördükləri işlər barədə belə dedi:

- İşlərimiz çoxşaxəlidir. Neft, qaz və su xətləri üçün borular örtükləyirik.

*Ardı 8-ci səh.*

**Tevos ARŞAKYAN:**

## "Ermənilər inanırlar ki, Qarabağa sabitliyi İlham Əliyev gətirə bilər"

### Xankəndidə separatçı rejimə qarşı başlayan kütləvi etirazlarda əhali Azərbaycanla sülhün əldə olunmasına çağırış edir

**Ermənistanda hakimiyyət dəyişikliyindən sonra baş verənlər istər bu ölkədə, istərsə də Yerevanın nəzarətində olan Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejimdə yeni təlatümlü mərhələnin başlandığını göstərir.**



Məsələ burasındadır ki, hakimiyyəti devirən Nikol Paşinyanın "baş nazir"liyinin bir ayı tamam olmamış ölkədə qisasçılıq aktları başlayıb. Sarkisyan klanı Ermənistanın baş naziri Nikol Paşinyana qarşı açıq gedişlər etməkdə, onun mövqelərini zəifləmtməyə çalışmaqdadır. Bu xüsusda növbəti etirazı erməni general Arkadi Ter-Tadevosyan dilə gətirib.

### Klanlararası savaş yeni iqtidarın da sonunu gətirir

Belə ki, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahında baş verən dəyişikliklərə Tadevosyan etiraz edib. Onun fikrincə, baş qərargahın yeni rəisi Artak Davtyan Ermənistan ordusunu idarə etmək üçün peşəkar kadr deyil. Tadevosyan bununla özünün həmyerlisi olan Movses Akopyanın baş qərargahın rəhbərliyindən göndərilməsinə qarşı çıxıb. Bundan başqa, Serj Sarkisyana bağlı kadrların vəzifədən uzaqlaşdırılması, həbsə atılması da vəziyyəti qəlizləşdirir.

*Ardı 7-ci səh.*

# Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur



*Əvvəli 1-ci səh.*

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, möhtərəm cənab Prezident.

İftar mərasiminin dəyərli qonaqları.

Dini konfessiyaların möhtərəm rəhbərləri.

Ənənəvi iftar görüşümüzü şərəfləndirən Zati-aliləri Prezident İlham Əliyev cənablarına və bütün qonaqlara bugünkü müqəddəs məramlı məclisimizə "Xoş gəlmisiniz!" deyir, Qurani-Şərifin nazil olduğu mübarək Ramazan ayının xeyir-fəzilətlərini sizlərə, ailələrinizə, bütün Azərbaycan xalqına diləyirəm.

Möhtərəm cənab Prezident, bugünkü mübarək tədbirdə Sizi müzəffər seçkilər münasibətilə Azərbaycan xalqı və dindarlar adından bir daha təbrik edir, ən xoş arzularımızı çatdırırıq. Əslində Azərbaycan dindarları bundan əvvəlki prezident seçkiləri zamanı bütün duaların qəbul olunduğu müqəddəs Məkkədə öz seçimlərini edib və İlham Əliyev həzrətlərinin namizədliyinə öz səs və xeyir-dualarını veriblər. Biz dindarlar budəfəki seçkilərdə də müqəddəs Kəbə Evində etdiyimiz niyyətimizi bir daha təzələdik.

Möhtərəm cənab Prezident, Sizin siyasi uğurlarınızın təməlində möhkəm, sarsılmaz xalq-iqtidar birliyi durur. Zati-alinizin andiçmə mərasimində Azərbaycan Konstitusiyası ilə bərabər Qurani-Şərifə əl basmağınız, yeni prezidentlik dövrünün ilk günündə şəxsi təşəbbüsünüzlə ərsəyə gəlmiş Hacı Cavad məscidini ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanımla birlikdə ziyarət etməyiniz tariximizə, milli-mənəvi dəyərlərimizə ehtiramın nümunəsidir. Bunları görərkən, bir azərbaycanlı, dini lider olaraq Sizinlə şərəf duyuram. Azərbaycanda mövcud dini etiqad, söz, ifadə azadlığı müxtəlif milli və dini mənsubiyyətli vətəndaşlarımızın bütün insani hüquq və azadlıqlarını təmin edir. Zati-alinizin müxtəlif dinlərin məbədlərinə qayğı və diqqəti, o cümlədən dini mərkəz olan Təzəpir kompleksi ətrafında hazırda aparılan möhtəşəm abadlıq-quruculuq işləri Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.

Biz Zati-alinizin qlobal ideyalarının təbliği məramı ilə dünyanın bir çox ölkələrində keçirdiyimiz beynəlxalq əhəmiyyətli tədbirlərdə müəllifi olduğunuz multikulturalizm və İslam həmrəyliyi ideyalarının qazandığı böyük dəstək və etimadın bilavasitə şahidi oluruq.

Zati-aliləri, çoxlarını heyrətləndirən odur ki, Azərbaycan dövlətinin lideri zamanın tələblərinə cavab verən, dünyamızın ehtiyac duyduğu belə mötəbər ideyaları irəli sürmək qüdrətinə malikdir. Bu, ulu öndərin dövlətçilik məktəbinin təntənəsi və Allah-Təalanın Azərbaycan xalqına iltifatıdır. Önəmli olan böyük dövlətlərin başçısı olmaq deyil - böyük dövlət xadimi, yüksək dövlətçilik təfəkkürünə sahib siyasi lider olmaq daha mühümdür.

Bəli, cənab Prezident, uzaqgörən siyasətiniz nəticəsində bu gün Azərbaycan dünyada qlobal ideyalar mərkəzi olaraq tanınır. Zati-alinizin müəllifi olduğu Bakı prosesi bu gün daha böyük önəm kəsb edir. Təşəbbüskarı olduğunuz "İslam həmrəyliyi ili"nin yekunlarına dair 40-dan artıq ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi möhtəşəm Bakı konfransında Azərbaycanın nümunəvi rolu yüksək qiymətləndirildi. Zati-alinizin dəstəyi, dünyanın nüfuzlu müsəlman və qeyri-müsəlman dini liderlərinin xeyir-duaları ilə Qafqaz Müsəlmanları İdarəsi yanında daimi fəaliyyət göstərəcək Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin yaradılması Sizin bəşəri ideyalarınızın aktuallığının parlaq təzahürüdür.

Möhtərəm cənab Prezident, elan etdiyiniz Multikulturalizm və İslam həmrəyliyi illəri çərçivəsində biz Türkiyədə, İranda, İsveçdə, Rusiyada, Böyük Britaniyada, İspaniyada, Finlandiyada və Özbəkistanda keçirdiyimiz mötəbər beynəlxalq tədbirlərdə ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın nümunəvi modelini təqdim etmişik. Yeni yaranmış mərkəzin xətti ilə bu il ərzində ölkəmizdə və bir sıra Avropa dövlətlərində, o cümlədən Almaniyada, İspaniyada mötəbər beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində hazırlıq işləri gedir.

Qafqaz Müsəlmanları İdarəsi olaraq ölkənin daxilində və xaricində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Milli Məclisin deputatları, ölkəmizdəki dini konfessiyaların rəhbərləri və ictimaiyyət nümayəndələri ilə birlikdə həyata keçirdiyimiz işlərlə Zati-alinizin ideyalarını, Azərbaycanın multikultural həyat tərzini dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Zati-aliləri, Sizin din-dövlət münasibətlərinin inkişafına dair tövsiyələriniz, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlığımız bu gün öz bəhrəsini verməkdədir.

Çox hörmətli cənab Prezident, dünya milli, dini, siyasi qarşıdurmalar, islamofobiya, terrorizm, separatçılıq bəlaları ilə üzləşməkdədir. Bunların sırasında müsəlmanların ilk qibləgahı, bütün səmavi dinlər üçün müqəddəs sayılan Qüdslə bağlı məqam xüsusi həssaslıq kəsb edir. Zati-aliləri, Sizin Qüdsə dair İstanbul Sammitində nümayiş etdirdiyiniz və dünya müsəlmanlarının rəğbətini qazanmış qətiyyətli mövqeyiniz hər birimizin yaxşı yadındadır. Bəzi dövlətlərin Qüdslə bağlı qərarının Fələstin-İsrail münaqişəsinin ədalətli nizama salınması işinə mənfi təsir edəcəyi, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara biləcəyi ilə bağlı Zati-alinizin söylədiyi fikirlər Qəzzada baş verən insan qırğını ilə bağlı dünya ictimaiyyətinin haqlı etirazlarında bir daha öz təsdiqini tapdı.

Zati-aliləri, Sizin rəhbərliyinizlə iqtisadi və müdafiə qüdrəti artan Azərbaycan, bəyan etdiyiniz kimi, heç vaxt bu qədər güclü olmayıb. Nəhəng iqtisadi layihələr xalqımızın rifahını artırır, millətimizin mənəvi qüdrətini gücləndirir. Dünyanın bir sıra ölkələri qaçqınlar və məcburi köçkünlər problemi qarşısında aciz qaldığı bir zamanda Siz azərbaycanlıların dədə-baba torpaqlarına Böyük Qayıdış layihəsini gerçəkləşdirirsiniz. Xalqımız fəxr edir ki, dövlətimizin başçısı Aprel zəfərini bizlərə yaşatdı, dirçəlişimizin rəmzi olan Cocuq Mərcanlı məscidini bizlərə bəxş etdi. Bütün bunlar Ali Baş Komandanımızın rəhbərliyi ilə gələcək zəfərlərə, Böyük Qələbəmizə inamımızı artırır.

Möhtərəm cənab Prezident, işğalçı erməni rejiminin başçısı, əli Azərbaycan xalqının qanına bulaşmış, Xocalı soyqırımının təşkilatçısı öz xalqının nifrətinə tuş gəldi, ondan rəzalətlə imtina olundu. Biz qatil Sarkisyanın Xocalı soyqırımının gerçək təşkilatçısı olaraq insanlığa qarşı hərbi cinayətlərinə görə dünya ictimaiyyəti qarşısında, İnsan Haqları Məhkəməsində mühakimə olunmasını tələb edirik. Qoy bütün dünya əsl soyqırımı törədənləri tanısın, onların yalançı məzlum siması ifşa olunsun!

Müstəqilliyimizi, Sizin rəhbərliyinizlə Azərbaycanın qazandığı zəfərləri gözü götürməyənlər xaricdən və daxildən məqsədyönlü, məkrli müdaxilələr, ideoloji təzyiqlər, bədxah qaralama kampaniyaları təşkil etməyə çalışır, xüsusən gəncləri bu işlərə cəlb etmək, hətta bəzi dini kəsimləri məzhəb ayrı-seçkiliyi zəminində təxribata çəkmək istəyirlər. Zati-aliləri, mən Sizi əmin edirəm ki, xalqımızı, onun ayrılmaz tərkib hissəsi olan dindarlarımızı vətənə, dövlətə sədaqətdən, həqiqi iman, əqidə yolundan, ulu öndər Heydər Əliyevin bizlərə əmanət etdiyi dövlətçilik məfkurəsindən heç bir qüvvə döndərə bilməz, inşallah!

Hörmətli cənab Prezident, çox təqdirəlayiq haldır ki, Mehriban xanımın Birinci vitse-prezident kimi fəaliyyəti xalqımız və dövlətimiz üçün rifah və tərəqqiyə xidmət etməkdədir. Zati-aliləri, Uca Allahdan Sizə və Mehriban xanıma zəfərlər diləyirik.

Möhtərəm cənab Prezident, hər il mübarək Ramazanda iftar məclislərində Sizin bizimlə birlikdə olmağınız ulu öndərin bizə əmanət etdiyi ənənəni yaşatmağınızın, Azərbaycan dindarlarına və Şeyxülislam kimi mənim şəxsimə olan hörmət, etimadın və din-dövlət münasibətlərinin yüksək səviyyəsinin göstəricisidir. Bu gözəl ənənənin təməlini bu il 95 illik yubileyini böyük ehtiramla qeyd etdiyimiz qardaşım, ulu öndər Heydər Əliyev qoyub. Bu ulu şəxsiyyətin əzəməti, xalqımız, vətənimiz üçün önəmi zaman keçdikcə daha artıq dərəcədə gözümüzdə yüksəlir. Ulu öndər Azərbaycanın bir dövlət olaraq siyasi xəritədən silinmə, etnik separatçılıq, dini zəmində parçalanma təhlükəsi mövcud olduğu ən çətin dönəmlərdə milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etdi, Azərbaycan dövlətçiliyinin möhkəm bünövrəsini qoydu, müstəqilliyimizi yenidən bərpa və daimi etdi.

Zati-aliləri, Sizin sərəncamınızla bu il Azərbaycanda Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini dövlət səviyyəsində bayram edirik. Unutmayaq ki, Xalq Cümhuriyyətinin qaldırdığı üçrəngli bayrağı yenidən Azərbaycan üzərində - 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilən Naxçıvanda ucaldan məhz ulu öndərimiz Heydər Əliyev olub.

Allah-Təala bir milləti zülmdən xilas etmək üçün ona haqq-ədaləti bərpa edən rəhbərlər göndərər. Müstəqilliyimizin ən gərgin dönəmlərində və dünyamızın mürəkkəb dövr yaşadığı zamanda Uca Yaradan öz lütfü ilə Azərbaycan xalqına Heydər Əliyev və İlham Əliyev kimi dahi öndərlər bəxş edib. Allah-Təala Heydər Əliyevə, validəniz Zərifə xanıma və cəmi vətən şəhidlərinə rəhmət eləsin!

Biz dindarlar Uca Allahdan öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövlətindən, onun rəhbərindən əsirgəməməsini diləyirik. Hörmətli Leyla xanımın arzuladığı kimi, "Qoy günəş ölkəmizin və dünyanın üzərində daim parlasın!" Bu mübarək günlərdə Sizə və dəyərli ailənizə səadət və yeni uğurlar diləyirəm.

Zati-aliləri, bu niyyətlə Sizə bir daha "Xoş gəlmisiniz!" deyir, dəvət olunan dini konfessiyaların möhtərəm başçılarını, diplomatik nümayəndələri, bütün mötəbər qonaqları salamlayır, Allahdan hər birinizə xeyir-dualar diləyirəm. Amin!

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

* * *

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu **ALEKSANDR** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Şeyx həzrətləri.

Hörmətli dini rəhbərlər.

Xanımlar və cənablar.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edib Azərbaycanın pravoslav icması adından Sizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi çatdırmağı, Zati-alinizə uzun ömür, xoşbəxtlik, firavanlıq və səmərəli fəaliyyətinizdə böyük uğurlar diləməyi özüm üçün şərəf sayıram.

Azərbaycan çoxmillətli və buna görə də çoxkonfessiyalı dövlətdir. Bu, ölkəmizin daxili həyatının spesifikasıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu amili belə qiymətləndirirdi: "Çoxmillətlilik bizim sərvətimizdir".

Çox hörmətli cənab Prezident, Siz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində hazırda "Multikulturalizmin Azərbaycan modeli" adlanan gözəl bir bina ucaltmısınız. Siz, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq bütün vətəndaşların Prezidenti kimi, bütün dindar insanların ehtiyaclarına, onların mənəvi dəyərlərinə, o cümlədən məbədlərə, Allah Evlərinə yüksək qayğı göstərirsiniz, dini bayramlar münasibətilə bizə təbriklərlə müraciət edirsiniz. Azərbaycanda yaşayan bütün başqa dindarlar kimi, biz pravoslavlar da dini etiqad azadlığından və bütün başqa insan haqlarından, dövlətin dəstəyindən bəhrələnirik. Qlobal əhəmiyyətli ideyalarınızla dünya miqyasında dinlərarası, sivilizasiyalararası dialoqun inkişafı işinə parlaq səhifələr yazan Zati-alinizə hədsiz minnətdarıq.

Azərbaycanın dövlət siyasəti olan multikulturalizm qlobal səviyyədə ümumbəşəri dəyərləri müdafiə edir. Dünya dindarları bunu yüksək qiymətləndirirlər. Beynəlxalq səviyyədə ksenofobiyanın kökünün kəsilməsi işində bu cür səylər biz din xadimlərinin gündəlik işinə güclü stimul verir. Xüsusən Zati-alinizin ideyaları sayəsində dünyanın müxtəlif ölkələrində, o cümlədən Rusiyada keçirilmiş beynəlxalq konfranslar belə tədbirlərə ehtiyac olduğunu və onların qlobal əhəmiyyətini göstərən əyani nümunələrdir.

Zati-müqəddəsləri Patriarx Kirill bütün postsovet məkanında çoxkonfessiyalı və çoxmillətli cəmiyyətin, qarşılıqlı hörmət, mehriban qonşuluq və həmrəylik ənənələrinin qorunub saxlanması işində bu ideyaların əhəmiyyətini xüsusi vurğulayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rus Pravoslav Kilsəsinin ali mükafatı - Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi bu cür səylərin yüksək qiymətləndirilməsi nümunəsi oldu.

*Ardı 3-cü səh.*

# Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur



*Əvvəli 2-ci səh.*

Biz Qafqazın ağsaqqalı Şeyxülislam Allahşükür Paşazadə həzrətləri ilə bərabər qardaş xalqlarımız arasında, o cümlədən Rus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin dərinləşdirilməsi üçün, xalqlarımız və dövlətlərimiz naminə, dinlərarası dialoqun yüksək səviyyəsi naminə əlimizdən gələni edirik. Zati-alinizin elan etdiyi "Multikulturalizm ili" və "İslam həmrəyliyi ili" çərçivəsində dünyanın müxtəlif guşələrində keçirilən bütün beynəlxalq forumlarda, konfranslarda fəal iştirak etmişik və Azərbaycanın multikultural həyatının gerçəkliyini qürurla təqdim etmişik.

Buraya toplaşanların hamısına ən xoş arzularımı bildirir, işlərinizdə uğurlar diləyirəm. Sizə sülh, əmin-amanlıq və Ulu Tanrıdan mərhəmət diləyirəm!

* * *

Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri **Milix YEVDAYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli şeyx həzrətləri.

Əziz məclis iştirakçıları.

Azərbaycan Dağ Yəhudiləri Dini İcması adından hamınızı salamlayır və bu müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Oruc insan iradəsinin nəfs üzərindəki qələbəsidir. Xudavəndi-Aləm oruc tutub, namaz qılan bəndələrini heç vaxt tənha qoymaz. Ona görə də bu müqəddəs Ramazan ayında tutduğunuz oruclar, etdiyiniz dualar Allah-Təala dərgahında qəbul olunsun! Ürəyinizdəki bütün arzularınız çin olsun, Allah-Təala onları yerinə yetirsin! Amin Ya Rəbbim Allah!

İnsanın əldə etdiyi, müqəddəs Allah tərəfindən verilmiş bəxşişlərdən biri də sevgidir. Ancaq sevgi insanları mələkələrdən də yüksək səviyyəyə qaldıra bilər. Allah-Təala öz bəndələrinə müraciət edərək deyir ki, ey Adəm övladı, hamı səni özündən ötrü istəyir, mən isə səni səndən ötrü istəyirəm. Ona görə də bu müqəddəs Ramazan ayında Allah-Təaladan hamınıza sevgi diləyirəm. Allah-Təala bizim dövlətimizi, vətənimizi qorusun. Möhtərəm Prezident, Siz bütün dünyaya bəyan etdiniz ki, dini və mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür və o, yaşamağa qadirdir. Belə bir cəmiyyət Azərbaycan Respublikasıdır.

Ümumiyyətlə, bizə xas olan xüsusiyyətlərdən biri də əziz günlərdə dünyasını dəyişənlərimizin ruhunu şad etmək üçün onları yad etməkdir. Ona görə də möhtərəm Prezident, mən bir məqama toxunmaq istərdim. Müsahibələrinizin birində müxbirin "İlləri geriyə çəkmək mümkün olsaydı, Siz hansı illərə qayıdardınız" sualının cavabında bildirdiniz ki, atalı-analı illərimə qayıdardım.

Bəli, torpaq da anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar.

Ona görə də vaxt keçir, zaman tələsir, hər şey dəyişir. Dəyişməyən isə xəyalların şirinliyi, arzuların ülviliyi və nağıla çevrilmiş xatirələrdir.

Nağıl danışardı nənəm gecələr,
Nağılla dolardı sinəm gecələr.
Nağıllı günlərim qayıdan deyil,
Qayıdıb yanğımı soyudan deyil.
Nağıl kimi gəlir mənə bu dünya,
Diz nənəmdən ola, baş məndən ola,
Dinləmək həvəsi kaş məndən ola.
Şirin nağıllara biz qulaq asıb,
Nağıla dönmüşük özümüz indi,
Nağıl kimi gəlir mənə bu dünya.

Möhtərəm Prezident, bugünkü uğurlarınız təməli ulu öndər tərəfindən qoyulmuş və Sizin müdrik daxili və xarici siyasətinizlə, ulu öndər arzularının sevgi ilə, böyük məhəbbətlə bəslədiyi arzuların reallığıdır. Ona görə də Sizin aprelin 11-də qazandığınız möhtəşəm qələbə Azərbaycan xalqının Sizə olan inamının təzahürüdür.

Hər eldən, obadan Sizə var salam,
Hamının qəlbində Sizədir inam.
Humanist Prezident, mehriban insan,
Dərin minnətdarıq Prezident Sizə!

Azərbaycanda yəhudilər əsrlər boyu bu xalqla qardaşlaşmış, dinc və əmin-amanlıq şəraitində yaşamışlar. Biz də bu günlər Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edirik. Mən bir məqama toxunmaq istərdim ki, 2015-ci ilin ortalarından bugünə qədər Amerikanın Los-Anceles şəhərində 4,5 milyon nüsxə ilə çap olunan "Jewish Journal" qəzetində bizim icmanın 28 məqaləsi dərc olunmuşdur. Həmin məqalələr Azərbaycanın bugünkü həqiqətlərindən, qazandığı uğurlardan, Azərbaycan neftinin alman faşizminə qarşı müharibədəki rolundan, Azərbaycanda yaşayan yəhudilərdən, onların mentalitetindən, mətbəxindən, ümumiyyətlə, hər sahədən bəhs edir. Bu məqalələr Almaniyada fəaliyyət göstərən "Adassa" nəşriyyatı tərəfindən kitab şəklində ingilis dilində çap olunaraq "Amazon" şirkəti tərəfindən bütün dünyaya yayılmışdır.

Mənim müəllif kimi həmin kitabdan aldığım 200 nüsxə qısa bir zamanda respublikada paylanmışdır.

Möhtərəm Prezident, biz bu gün ulu öndərimizin arzularının çin olduğunu görürük. Allah-Təaladan arzu edirik ki, Sizin müdrik rəhbərliyinizlə yaxın vaxtlarda Qarabağ məsələsi də həll olunsun və belə məclisləri, belə xoş süfrələri Qarabağ torpağında təşkil edək.

Vətən oğulları verib əl-ələ,
Ulu öndərini yad edəcəkdir.
Azad Azərbaycan cənnətə dönüb,
Heydərin ruhunu şad edəcəkdir.

Bu müqəddəs bayram münasibətilə hamınızı bir daha səmimi-qəlbdən təbrik edir, hamınıza İbrahim Peyğəmbər ömrü arzulayıram. Hamınızın suyu sərin, çörəyi isti, gözü işıqlı, dizi taqətli olsun. Allah amanında. Çox sağ olun.

* * *

Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu **Vladimir FEKETE** çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident İlham Əliyev.

Möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli xanımlar və cənablar.

Çox şadam ki, bu il biz müqəddəs Ramazan ayı münasibətilə bir yerə toplaşmışıq. Bu müqəddəs ayda görüşümüz bizim dinlərarası əməkdaşlığımızın qənaətbəxş səviyyədə olmasını təsdiq etmək üçün gözəl bir fürsətdir.

Hörmətli cənab Prezident, Siz əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş müdrik dini tolerantlıq siyasətinin davam etdirilməsinin qarantısınız. Azərbaycan katolikləri adından Sizə dərin ehtiramımızı və minnətdarlığımızı bildirmək istəyirəm.

Zati-müqəddəsləri Papa Fransisk cənab Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan edilmiş 2016-cı ildə Azərbaycanda səfərdə olarkən bütün dünyada multikulturalizm ideyalarının təbliğində Azərbaycanın rolunu yüksək qiymətləndirib. Papa Fransiskin həmin tarixi səfər zamanı söylədiyi "Biz hamımız qardaşıq" kəlamı bütün dünyaya bir ismarıc oldu ki, Azərbaycan ta qədimdən Şərq ilə Qərb arasında körpü rolu oynayır, multikulturalizm isə Azərbaycan xalqının ənənəvi həyat tərzidir.

Zati-müqəddəsləri Papa Fransiskin Heydər məscidində Zati-alinizlə, habelə Azərbaycanın dini konfessiyalarının rəhbərləri və dindarlarla görüşləri zamanı söylədiyi nitqlər bütün dünyaya əyani şəkildə nümayiş etdirdi ki, Azərbaycan və onun lideri qlobal səviyyədə dinlərarası dialoqun tərəfdarıdır.

Hörmətli cənab Prezident, keçən ilin dekabr ayında Papa Fransisk məni Azərbaycan Respublikasında Katolik Kilsəsinin birinci Yepiskopu təyin edib. Azərbaycandakı bütün başqa dindarlar kimi biz katoliklər də burada dini etiqad azadlığından və digər insan haqlarından, dövlət dəstəyindən bəhrələnirik. Azərbaycan mənim yeni vətənim olub. Buna görə qürur duyaraq qeyd etməliyəm ki, bu addım Azərbaycana beynəlxalq səviyyədə verilən əhəmiyyəti nümayiş etdirir.

Papanın rəsmi səfəri şübhəsiz ki, həm Vatikan ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, həm də dinlərarası əlaqələrin inkişafına, o cümlədən Roma Katolik Kilsəsi ilə bizim Vahid Yaradanın ideallarının təntənəsi naminə yorulmadan çalışan möhtərəm Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi tarixi dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi arasında əməkdaşlığa yeni təkan verib. Əminəm ki, 2017-ci ilin dekabr ayında Bakı Konfransının yekunlarına əsasən Qafqaz Müsəlmanları İdarəsi yanında yaradılmış, daimi fəaliyyətdə olan Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi bütün bəşəriyyətin rifahı naminə dinlərarası dialoqun inkişafı işinə sanballı töhfə verəcək. Mərkəzin Məşvərət Şurasının tərkibinə mən də daxil edilmişəm. Buna görə möhtərəm Şeyxülislam Paşazadəyə hədsiz minnətdaram. Biz səmimi-qəlbdən arzu edirik ki, Vatikan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər bundan sonra da davam və inkişaf etsin.

Hörmətli cənab Prezident.

Hörmətli Şeyxülislam.

Ulu Tanrıdan diləyim budur ki, daim Sizi öz himayəsində saxlasın. İcazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Ulu Tanrının Sizə yardımçı olmasını, bütün müsəlman qardaşlara, bütün dindarlara xoş güzəran, tərəqqi və firavanlıq diləyim.

Təşəkkür edirəm.

* * *

Dövlət başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, biz bu il də mübarək Ramazan ayında iftar məclisində görüşürük. Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət-din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Bütün sahələrdə olduğu kimi, ulu öndər Azərbaycanın inkişaf konsepsiyasının müəllifidir. İnkişaf istiqamətlərini müəyyən edərkən o, çox böyük uzaqgörənlik göstərmişdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz bu konsepsiyanın icrası nəticəsində mümkün olmuşdur. O cümlədən dövlət-din münasibətlərinin qurulması, yaradılması işində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, hakimiyyətə gələnə qədər Azərbaycanda bu münasibətlər tənzimlənmirdi və böyük boşluq yaranmışdı. Biz keçən ay ulu öndərin anadan olmasının 95-ci ildönümünü qeyd edərkən, əziz xatirəsinə hörmətimizi ifadə edərkən onun xalq qarşısında gördüyü böyük xidmətlər haqqında danışmışıq, onun fəaliyyətini yada salmışıq. Bu gün də şeyx həzrətlərinin təşkil etdiyi iftar məclisində ulu öndərin dövlət-din münasibətlərinin tənzimlənməsində gördüyü işlər və oynadığı rol haqqında danışırıq və bu, təbiidir.

Şeyx həzrətlərinin bu məsələlərin uğurla həlli işində fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Dövlət-din münasibətlərinin inkişafı şeyx həzrətlərinin böyük əməyi sayəsində mümkün olmuşdur və bu gün bu əlaqələr nümunəvidir. Şeyx həzrətləri nəinki Azərbaycanda, eyni zamanda, Qafqazda, postsovet məkanında, Avropada, ümumiyyətlə, dünyada çox böyük hörmətə malik olan bir din xadimidir. Şeyx həzrətlərinin uğurlu fəaliyyəti Azərbaycanı dünyada öz milli dəyərlərinə sadiq, eyni zamanda, çox açıq, çox tolerant, müasir dövlət kimi təqdim edir. Azərbaycanda dövlət-din münasibətlərinin bu yüksək səviyyədə olmasında şeyx həzrətlərinin çox böyük xidməti var. Mən bilirəm ki, keçən il Azərbaycanda "İslam həmrəyliyi ili" qeyd olunan zaman şeyx həzrətləri bir çox ölkələrdə Azərbaycan həqiqətləri haqqında danışmış, çıxış etmiş, beynəlxalq konfranslarda iştirak etmiş və ölkəmizin reallıqlarını dünya ictimaiyyətinə çatdırmışdır.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bugünkü iftar məclisimizdə səslənən fikirlər, ənənəvi dinlərin rəhbərlərinin çıxışları bir daha bunu göstərir. Azərbaycanda həm dövlət-din əlaqələri, həm dinlərarası əlaqələr nümunəvi xarakter daşıyır. Bilirəm ki, bu məsələlərlə bağlı Azərbaycan modeli bu gün artıq dünyada bir çox yerlərdə öyrənilir. Bu, bizim uğurlu inkişafımız üçün lazımdır. Bu, dövlət siyasətimizin təzahürüdür. Eyni zamanda, bu, cəmiyyətimizin vəziyyətini, cəmiyyətdə mövcud olan ab-havanı əks etdirir.

Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Azərbaycanda bu münasibətlərin tənzimlənməsi ölkəmizin uğurlu inkişafını təmin edir. Azərbaycanda mövcud olan milli həmrəylik, vətəndaş birliyi, sabitlik məhz bu münasibətlərin əsasında qurulubdur. Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur. Eyni zamanda, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Biz həm dünyaya Azərbaycandan çox ciddi və müsbət siqnal göndəririk, həm də ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız birdir, bizim niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin. İstəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın. Nəinki bunu istəyirik, öz praktiki addımlarımızla bunu təmin edirik.

Bir neçə gün bundan əvvəl mən Azərbaycanda fəaliyyət göstərən müsəlman ölkələrinin səfirləri ilə görüşmüşəm. Ramazan ayında bu görüşlər ənənəvi xarakter daşıyır. Görüş zamanı müsəlman ölkələri ilə bizim əlaqələrimiz haqqında danışmışam. Bu əlaqələr yüksək səviyyədədir. Azərbaycan müsəlman aləmində çox böyük dəstəyə, çox böyük hörmətə malik olan bir ölkədir. Müsəlman ölkələri beynəlxalq təşkilatlarda Azərbaycanı daim dəstəkləyirlər və yaxşı bilirlər ki, Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir. Azərbaycan dünyada İslam mədəniyyətinin təbliği işində çox fəal və uğurlu rol oynayır. Biz dünyanın müxtəlif ölkələrində İslam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar - bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya İslam mədəniyyətini, İslam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda İslam dini ilə bağlı təhrif edilmiş və yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri çatdıraq. Bilirəm ki, bu sahədə apardığımız fəaliyyət müsəlman aləmində çox böyük hörmətlə qarşılanır. Bizim bu fəaliyyətimiz bir daha onu göstərir ki, Azərbaycan həm İslam mədəniyyətinin təbliğinə, həm İslam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir.

*Ardı 4-cü səh.*

# Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur





*Əvvəli 3-cü səh.*

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllinə çox yüksək qiymət verir. İslam Əməkdaşlıq Təşkilatı ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Bir çox qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, real vəziyyət və ədalətli mövqe nümayiş etdirilir. Azərbaycanın haqq səsi dəstəklənir və bu dəstəyə görə biz İslam Əməkdaşlıq Təşkilatına minnətdarıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bu amillər, həm tarixi faktlar, həm beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqeyimizi gücləndirir, eyni zamanda, münaqişənin həli üçün əsas yaradır, hüquqi baza yaradır və biz yorulmaz fəaliyyət nəticəsində buna nail olmuşuq. Əminəm ki, biz ardıcıl siyasət aparmaqla istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur. Həm tarixi həqiqətlər, hüquqi baza, BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri, bizim iqtisadi gücümüz, hərbi gücümüz və bölgədə mövcud olan real vəziyyət bunu deməyə əsas verir.

Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir. Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz



istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər.

Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir. Şeyx həzrətləri qeyd etdiyi kimi, indi Təzəpir məscidinin ətrafı təmizlənir. Onun ətrafı böyük bir ictimai zonaya çevriləcək, orada böyük park salınır. Çünki vaxtilə Təzəpir məscidinin ətrafındakı binalar onun əzəmətini gizlədirdi. İndi artıq məscidin bir hissəsi açılıb, böyük park salınır. Digər hissənin açılması gözlənilir və beləliklə, Azərbaycanda gözəl bir memarlıq ansamblı yaradılır.

Bibiheybət məscidi bizim qədim tarixi məscidimizdir. "İmamzadə" tarixi-dini kompleksi, Şamaxı Cümə məscidi, Əjdərbəy məscidi dövlət tərəfindən əsaslı şəkildə təmir edilib. Ölkəmizin ən böyük məscidi olan Heydər məscidi dövlət hesabına tikilib ki, bu, memarlığına görə bir əsərdir. Eyni zamanda, keçən il Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Uzun fasilədən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində azan səsi eşidilir. Şamaxı məscidi ilə eyni vaxtda inşa edilmiş, ən qədim məscidlərimizdən biri olan Şamaxı rayonunun Dəmirçi kəndindəki məscid keçən il əsaslı şəkildə təmir edilmişdir. Bu il Hacı Cavad məscidinin yeni binası tikildi və şeyx həzrətləri qeyd etdiyi kimi, prezident seçkilərindən sonra mənim getdiyim birinci yer məhz Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur və bu, təsadüfi deyil. Çünki mən oraya seçkilərdən əvvəl də, seçkilərdən bir ay sonra da gedə bilərdim. Məhz seçkilərdən sonra birinci tədbir - yenidən tikilmiş Hacı Cavad məscidinin açılışı hesab edirəm ki, böyük məna daşıyır. Hesab edirəm ki, dindarlar və bütün Azərbaycan vətəndaşları bunu çox gözəl başa düşürlər.

Eyni zamanda, XIX əsrdə inşa edilmiş və Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş İmam Hüseyn məscidi də açılışa hazırdır. Yəni, bu istiqamətdə həm dövlət, - əlbəttə ki, əsas yükü dövlət öz üzərinə götürüb, - həm də ictimai qurumlar öz töhfəsini verirlər və bu, bizim borcumuzdur. Bizim tarixi abidələrimiz, dini abidələrimiz milli sərvətimizdir. Bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir, bizim sərvətimizdir. Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir.

"İslam həmrəyliyi ili" ərzində bir çox tədbirlər keçirilmişdir. Onların arasında əlbəttə ki, şeyx həzrətlərinin təşkil etdiyi tədbirləri mən xüsusilə qeyd etmək istərdim. Qeyd etdiyim kimi, xarici ölkələrdə bir çox önəmli konfranslar keçirilmişdir. Yekun tədbir keçən ilin sonunda - dekabr ayında Bakıda keçirilmiş böyük konfrans idi. Hesab edirəm ki, konfransa dünyanın aparıcı dini liderlərinin və dövlət xadimlərinin göndərdikləri təbriklər bu tədbirin önəmini qeyd etməklə yanaşı, eyni zamanda, Azərbaycana hörmətin təzahürü idi. Biz bunu belə qəbul edirik. Bu konfransı keçirərkən biz bir daha gördük ki, belə tədbirlərin keçirilməsinə nə qədər ehtiyac var. Çünki bu gün deyə bilərəm ki, Azərbaycan bu tədbirlərin dünya səviyyəsində, belə mötəbər səviyyədə keçirilməsi ilə ümumbəşəri dəyərlərə çox böyük töhfə verir. Mən hesab edirəm ki, bizim bu sahədəki nadir rolumuz böyük qiymətə layiqdir və yüksək qiymətləndirilir. Hesab edirəm ki, biz gələcəkdə bu istiqamətdə öz fəaliyyətimizi davam etdirməliyik.

Konfransdan sonra şeyx həzrətləri ilə söhbət əsnasında belə qərara gəldik ki, bu kimi tədbirlər Azərbaycanda ənənəvi olaraq keçirilməlidir. "İslam həmrəyliyi ili" artıq başa çatıb. Ancaq biz elə etməliyik ki, bu məsələ daim diqqət mərkəzində olsun. Bunu etmək üçün xüsusi tədbirlər planı hazırlanıb və icra ediləcək. Yəni, bu gün Azərbaycanın bu sahədə apardığı işlərə dünyada yenə də böyük ehtiyac var.

Təsadüfi deyil ki, bizim təşəbbüsümüzlə on il bundan əvvəl başlanan "Bakı Prosesi" dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatıdır. Bu on il ərzində buna oxşar təşəbbüs heç kim tərəfindən irəli sürülməmişdir. "Bakı Prosesi" sırf Azərbaycan təşəbbüsüdür. Bu il biz "Bakı Prosesi"nin on illiyini qeyd edəcəyik. Bu təşəbbüs BMT və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. "Bakı Prosesi" artıq dünya gündəliyinin önəmli hissəsidir və bu illər ərzində görün biz Azərbaycanda nə qədər böyük tədbirlər keçirmişik - dünya dini liderlərinin zirvə görüşü, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Bakı humanitar forumları, mədəniyyətlərarası dialoq forumları. Yəni, bütün bunları biz ona görə edirik ki, buna böyük ehtiyac var. Biz istəyirik ki, nəinki Azərbaycanda, dünyada dinlərarası münasibətlər yüksək səviyyədə tənzimlənsin.

Biz ölkə daxilində bütün bu məqsədlərə çatmışıq. Bu gün Azərbaycanda dini, milli zəmində heç bir problem, heç bir anlaşılmazlıq yoxdur. Ancaq biz istəyirik ki, dünyada da olmasın və bundan sonra da öz töhfəmizi verməyə hazırıq. Bu gün dünyada Azərbaycan multikulturalizmin mərkəzi kimi artıq özünü təsdiqləyib. Bu, həm dövlət siyasətidir, həm cəmiyyətdən gələn sifarişdir. Bu, böyük sərvətdir, xüsusilə indiki zəmanədə. İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır. Biz əlbəttə ki, bu sahədə gördüyümüz işləri daha yüksək qiymətləndirməliyik və elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin. Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk.

Keçənilki məclisdən ötən dövr ərzində bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Bu hadisələr, doğrudan da, tarixi xarakter daşıyır. Onlardan biri Azərbaycanı Avrasiyanın nəqliyyat mərkəzinə çevirməyimizdir. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı Bakıda təntənəli şəkildə qeyd edildi. Bu il isə biz Xəzər dənizinin ən böyük ticarət limanının açılışını qeyd etdik. Beləliklə, ölkə qarşısında nəqliyyat sahəsində duran məsələlərin böyük hissəsini həll etmiş olduq. Bu tarixi layihələr bundan sonra uzun illər Azərbaycanın uğurlu inkişafını təmin edəcək.

Keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsindən bir gün sonra "Cənub qaz dəhlizi"nin rəsmi açılışı oldu. Bu da böyük tarixi nailiyyətdir, tarixi layihədir. Bu layihə bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək.

Bir neçə gündən sonra Türkiyənin Əskişəhər şəhərində TANAP-ın rəsmi açılışı olacaq. Bu da böyük tarixi nailiyyətdir. Yəni, biz hər il böyük uğurlara imza ataraq ölkəmizi gücləndiririk və möhkəmləndiririk. Əminəm ki, bundan sonra da Azərbaycan inamla və uğurla inkişaf edəcək.

Fürsətdən istifadə edərək, qarşıdan gələn mübarək Ramazan bayramı münasibətilə Sizi və bütün dünya müsəlmanlarını təbrik edirəm. Sağ olun.

* * *

Şeyxülislam **Allahşükür PAŞAZADƏ** bir daha minnətdarlıq edərək dedi:

- Cənab Prezident, mən Sizə minnətdarlığımı bildirirəm. Təkcə öz adımdan deyil, burada iştirak edən din xadimlərinin, dini konfessiya rəhbərlərinin adından və əziz qonaqlarımız adından Sizə öz minnətdarlığımı bildirirəm. Xüsusən deyə bilərəm ki, din-dövlət münasibətlərində nəyə nail olmuşuqsa, Azərbaycan nəyə nail olubsa Sizin qayğınızla, zəfərlərinizlə, ulu öndərin tövsiyələri ilə buna gəlib çatmışıq. Bu gün əgər bir şeyxülislam kimi məni dünyada tanıyırlarsa, mənə ehtiram bəsləyirlərsə bunda başda Siz olmaqla hamının böyük zəhməti var. Yəni, Azərbaycan xalqının böyük zəhməti var. Yəni, bu işdə hamı - həm din xadimləri, həm qeyriləri bizə yardımçı olublar və indi də yardımçı olmaqdadırlar.

Bu gün bu məclisdə diplomatlar, xarici dövlətlərin nümayəndələri iştirak edirlər. İnanın, bu şəkildə görüş, ünsiyyət, din-dövlət, xalq-rəhbər vəhdəti, dindarlarla Prezident arasında olan münasibət dünyanın heç bir yerində yoxdur. Bu da öz bəhrəsini, öz bərəkətini verir. Biz bunun qədrini bilməliyik. Ona görə də Azərbaycan inkişaf edir və edəcək. Allah-Təala Azərbaycanın sərvətlərini bərəkətli edəcək. Allah-Təala həmişə Azərbaycan xalqını qoruyacaq. İnşallah, ulu öndərimizin müəyyənləşdirdiyi inkişaf yolu ilə irəliləyən Azərbaycana Prezidentimiz İlham Əliyev həzrətlərinin rəhbərliyi ilə həmişə zəfərlər nəsib olacaq.

Cənab Prezident, mənə bu qədər böyük önəm verdiyinizə görə Sizə bir daha təşəkkür edirəm, bir daha "Çox sağ olun" deyirəm.

* * *

Sonra iftar süfrəsi açıldı.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə zati-alinizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına Monqolustan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Dərin tarixi köklərə malik olan Monqolustan-Azərbaycan münasibətlərinin və əməkdaşlığının genişləndirilməsi üçün Sizinlə birgə işləməyi davam etdirmək əzmindəyəm.

Əminəm ki, hər iki tərəf münasibətləri yeni səviyyəyə yüksəltmək üçün Monqolustan və Azərbaycan arasında bir çox sahələrdə, o cümlədən müdafiə, ticarət, iqtisadiyyat, kənd təsərrüfatı, təhsil və idman sahələrində əlaqələrimizi, eləcə də çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirmək istiqamətində mövcud olan böyük imkanlardan tam faydalanacaq.

Zati-aliləri, Sizə möhkəm cansağlığı arzulayır, dost Azərbaycan xalqına isə firavanlıq və inkişaf diləyirəm.

*Dərin hörmətlə,*

***Xaltmaaqiyn BATTULQA,***
***Monqolustanın Prezidenti***

## Sabunçu rayonunun Maştağa-Nardaran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altmış üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Maştağa-Nardaran avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9,5 milyon (doqquz milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## Bakı şəhəri Qaradağ rayonunun ərazisində yerləşən Heybət dəmir yolu stansiyasının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhəri Qaradağ rayonunun ərazisində yerləşən Heybət dəmir yolu stansiyasına bitişik hissədə beynəlxalq standartlara cavab verən, geniş əraziyə və müasir infrastruktura malik, yeni informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş dəmir yolu stansiyası inşa edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Coğrafi obyektlərin adları haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən **qərara alıram:**

1. Bakı şəhəri Qaradağ rayonunun ərazisində yerləşən Heybət dəmir yolu stansiyası ləğv edilsin. Yeni inşa edilmiş dəmir yolu stansiyası "Abşeron" adlandırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## E.Ş.Allahverdiyevin Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elxan Şamil oğlu Allahverdiyev Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## R.A.Məmmədovun Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Raqub Allahverdi oğlu Məmmədov Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

1918 Azərbaycan Ordusu - 100 2018

# Lələtəpədən Xankəndiyə doğru!

## Ali Baş Komandan İlham Əliyevin hücum əmrini Azərbaycan Ordusunun qələbə ilə başa çatdırmağa tam hazır olması 100-cü ildönümə ən böyük töhfədir



























*Əvvəli 1-ci səh.*

### Cocuq Mərcanlı məscidindən səslənən azan səsi

Hərbçilərimiz Lələtəpə yüksəkliyindən həm də Cəbrayıl rayonunun işğaldan azad olunaraq yenidən bərpa edilən Cocuq Mərcanlı kəndində sabitliyi təmin edirlər. 26 ildən sonra öz yurd-yuvalarına köçən cocuq mərcanlılılar bu gün Azərbaycan əsgərinə güvənərək xoşbəxt həyat sürürlər.

Bu həm də o yüksəklikdir ki, işğaldan azad edilənə qədər ermənilər Horadiz şəhəri başda olmaqla Füzuli rayonunun bütün yaşayış məntəqələrini, o cümlədən Azərbaycan Ordusunun mövqelərini açıq-aydın müşahidə edir, istənilən yerə atəş zərbələri endirə bilirdilər.

Artıq belə bir təhlükə yoxdur. Lələtəpədə dalğalanan üçrəngli bayrağımız hər bir azərbaycanlıda qürur hissi yaradır. Cocuq Mərcanlı məscidindən səslənən azan səsi isə şəhidlərimizin ölməz ruhunu şad edir.

### Müasir kazarma, anbar, mətbəx, sanitariya qovşağı

İlkin müşahidələrimiz göstərir ki, səngərlərimizlə düşmən postu arasında məsafə çox qısadır. Ancaq buna baxmayaraq, səngərlər effektiv müdafiə sistemi, yüksək səviyyəli müdafiə qurğuları ilə təmin edilib. Bu strateji yüksəklikdə belə bir müdafiə sisteminin yaradılması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara adekvat cavab vermək imkanı yaradır. Şəxsi heyətin sosial yaşayış şəraiti isə müasir tələblərə cavab verir.

Qarşımızda çöhrəsi nurlu və hər zaman istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan məğrur Azərbaycan əsgəri dayanıb. Bizi qarşılayan bölmə komandirinin şəxsi heyətlə iş üzrə müavini, zabit Samir Qubadovla görüşüb öncə buradakı mini əsgər kazarması ilə tanış oluruq.

Həqiqətən, burada əsgərlər üçün yaradılmış şərait son vaxtlar daha da yaxşılaşıb. Postdan qayıdan əsgərlər dincəlir, istirahətlərini səmərəli keçirirlər. Əsgərlərin növbəlilik əsasında dincəldikləri hərbi kazarma normal şəraiti olan yataqxananı xatırladır. Şəxsi heyətin yüksək səliqə-sahmanı, yataq dəstlərinin təmizliyi xoş təəssürat doğurur.

Burada anbar, mətbəx, sanitariya qovşağı da mövcuddur. Məhz bu yüksəklikdə yaradılan şərait Azərbaycan əsgərinin əhvali-ruhiyyəsini və döyüş əzmini daim yüksəldir.

### Yüksək döyüş ruhlu məğrur Azərbaycan əsgəri

Kazarma ilə tanışlıqdan sonra bayıra çıxıb postlara tərəf hərəkət edirik. Döyüş tapşırığını yerinə yetirən 19 yaşlı əsgər İxtiyar Behbudov 11 aydır hərbi xidmətdədir. Aprel döyüşlərinin iştirakçısı olmasa da, burada xidmət etməyi özünə şərəf bilir: "Özünüz də görürsünüz ki, ön xətdəyik. Lələtəpə istiqamətində xidmət keçmək qürurvericidir. Çünki bu yüksəkliyin düşməndən geri alınmasında hərbi hissəmizin qəhrəman hərbçiləri canlarından keçiblər. Biz də hər an onlar kimi qəhrəmanlıq göstərməyə hazırıq".

Digər postda ayıq-sayıq dayanan döyüş növbətçisi Elçin Abdullayev də 11 aydır bu hərbi hissədə xidmət edir. Deyir ki, gələcəkdə burada xidmət keçdiyini fəxarət hissi ilə söyləyəcək: "Biz artıq özümüzü mübariz əsgər kimi hiss edirik. Həm də ona görə ki, qalib ordunun əsgərləriyik, hər zaman döyüşə hazırıq".

Digər döyüş növbətçisi Nihad Abdullayev əslən Laçın rayonundandır. Hərbi xidmətini başa vurmasına 7 ay qalır. Ancaq Nihad bu müddət ərzində ürəyində olan ən böyük arzusunun gerçəkləşməsini istəyir: "Hər gün postda dayananda diqqətlə baxıram. Çünki qarşımızdakı torpaqlar da bizim doğma yurdlarımızdır. İstəyirəm ki, buradan əzizlərimə şad xəbəri şəxsən özüm çatdırım. İllərdir Vətən həsrəti ilə alışıb yanan valideynlərimə zəng edib deyim ki, Ali Baş Komandan İlham Əliyevin hücum əmrini yerinə yetiririk, tezliklə Laçın torpağına ayaq basacağam. Bu mənim üçün, valideynlərim üçün həyatda ən şad xəbər olar".

### Ön xətdə xidmət məsuliyyəti daha da artırır

Postlardan geri dönüb istirahətdə olan heyətlə çay süfrəsi ətrafında əyləşib söhbət edirik. Lələtəpədə əsgər çayı içməyin ayrı ləzzəti var.

16 ildir hərbi xidmətdə olan zabit Samir Qubadov deyir ki, hərbi hissənin komandanlığı şəxsi heyətin döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində bütün zəruri tədbirləri həyata keçirir. Çünki ordunun gücü xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən asılıdır: "Bundan başqa, hər bir Azərbaycan əsgəri Qarabağı şanlı tarixə malik olan keçmişimizin bir parçası, canımızdan ayrılmış bir parça kimi anlamalıdır. Ona görə də bizlər tarixi torpaqlarımıza qovuşmaq üçün canımız, qanımız bahasına fədakarlıq göstərməliyik".

Əsgərlərdən Elnur Adıgözəlov, Ehtiram Cəfərov, Əfsər Atamoğlanov, Kənan Xasaylı qəhrəman hərbi hissənin əsgərləri olduqları üçün qürur duyurlar. Aprel döyüşlərinin iştirakçısı və qəhrəmanlarından olan şəxslərin hərbi hissədə qulluq etməsi onlar üçün ikiqat fəxrdir: "Bizi sevindirən, qürurlandıran odur ki, ordumuzun şanlı zəfərində böyük payı olan hərbçilər bu gün hərbi hissəmizdə xidmət edirlər. Onlar əsl qəhrəmanlıq göstəriblər və Ali Baş Komandan İlham Əliyev həmin hərbçiləri mükafatlandırıb. Biz də burada hər zaman döyüşə hazırıq və nə zaman hücum əmri verilərsə, önümüzdə qorxa-qorxa dayanan erməni əsgərini hara qədər lazımdısa qova bilərik".

### 4 Milli Qəhrəmanı olan hərbi hissə

Lələtəpədən qürur və sevinc hissi ilə "N" saylı hərbi hissəyə qayıdırıq. O hərbi hissə ki, aprel döyüşlərində böyük şücaət göstərərək adını hərb tariximizə qızıl hərflərlə yazdırıb.

Hərbi hissənin ərazisinə daxil olarkən bəlli olur ki, şəxsi heyət təlimdədir. Səhər saatlarında həyəcan siqnalı ilə qaldırılan hərbi hissə əməliyyat təyinatı istiqamətində təlim hərəkəti edib. Yəni komandanlıq tərəfindən hərbi hissənin həyəcan siqnalı ilə ərazini hansı müddətdə tərk etməsi, şəxsi heyətin buna necə hazır olması yoxlanılır.

Öncə onu vurğulayaq ki, aprel döyüşlərində düşmənə qalib gələn hərbi hissə öz qəhrəmanları ilə öyünür. Aprel döyüşlərində 16 hərbçisi şəhid olan hissənin 4 milli qəhrəmanı var. Bundan başqa, 9 hərbçi "Azərbaycan bayrağı" ordeni, 4 hərbçi "Vətən uğrunda", 26 hərbçi isə "İgidliyə görə" medalları ilə təltif olunub.

### Kazarmalarda səliqə-sahman, əsgərlərin yaradıcılıq nümunələri

Hərbi hissənin ərazisində qərargah, kazarmalar, yeməkxana, tibb məntəqəsi, hərbi hissəyə təşrif buyuranlar üçün qonaq otaqları və hamam kompleksi mövcuddur. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün idman şəhərciyi də salınıb. Qərargahın binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğısını, hərbçilərlə görüşlərini əks etdirən və alayın aprel döyüşlərində şəhid olmuş igidlərinin, eyni zamanda Azərbaycanın bütün milli qəhrəmanlarının fotolarından ibarət guşə yaradılıb.

Ön cəbhədəki hərbi hissənin əsgər kazarmalarında səliqə-sahmana, təmizliyə söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə onların yaradıcılıq nümunələri, divar qəzeti, hərbi qaydalar haqqında stendlər asılıb.

### Çoxçeşidli, keyfiyyətli bol əsgər yeməyi

Nahara az qalır. Şəxsi heyətin bir qismi hərbi hissədə olmasa da, yeməkxanada hazırlıq işləri görülür.

Digər hərbi hissələrdə olduğu kimi, burada da aşpazlar, yeməkxana və mətbəx işçiləri mülki şəxslərdir. Yeni sistem hazırlanan yeməklərin və görülən işlərin keyfiyyətinə müsbət təsir göstərib. Bu, əlbəttə ki, yeməklərin daha dadlı, keyfiyyətli olması deməkdir.

Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Bütün avadanlıqla təchiz edilmiş yeməkxanada mətbəx, təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən xörəklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir.

Yeməkxananın rəisi Elməddin Nəsirov deyir ki, burada 3 növbədə ümumilikdə 33 nəfər mülki şəxs çalışır. İşçilərin çoxu qadınlardır.

Şəxsi heyətin qida rasionu da zəngindir. Səhər yeməyində hər gün şirin çay, yağ, pendir və meyvə cemi dəyişməzdir. Lakin bunlarla yanaşı, həftənin müxtəlif günlərində əsgərlərə südlü düyü, südlü vermişel, südlü sıyıq, qayğanaq və soyutma yumurta verilir. Nahar yeməyi də bir neçə çeşidlidir. Müxtəlif cür sulu xörəklər - küftə, borş, eləcə də noxud, lobya və mərci şorbası bişirilir. Bundan başqa, qovrulmuş ətlə makaron, çəkilmiş mal əti ilə qarabaşaq, düyü, həmçinin qazan kotleti, arpa sıyığı, soyuq qəlyanaltı da var.

Şam yeməyində isə qiyməli qarabaşaq, bütöv arpa, makaron, bulğur sıyığı, kartof püresi ilə balıq konservi və qızardılmış balıq olur. Həmçinin hərbçilər mövsümi tərəvəz, kələm, vineqred, vitaminli salatlar, eləcə də su və bir nəfər üçün nəzərdə tutulmuş 200 qramlıq alma şirəsi ilə də təmin edilirlər.

Bir qədər sonra hərbi hissədə olan zabit və gizirlər, əsgərlər növbə ilə yeməkxanaya daxil olub nahar edirlər. Naharını bitirən bir neçə əsgərlə etdiyimiz söhbətdən bəlli olur ki, şəxsi heyət onlar üçün bişirilən bol çeşidli yeməklərdən çox razıdır.

11 aydır burada xidmət edən əsgərlərdən İlkin Həsənovun, Elmir İsrafilovun və cəmi 5 aydır xidmətə gəlmiş Əlləz Əlləzovun sözlərindən belə aydın olur ki, artıq gənclər hərbi xidmətdə heç bir narahatlıq hissi keçirmirlər. Əsgər Ə.Əlləzov deyir: "İndi ordumuzda vəziyyət dəyişib. Bizdən xeyli öncə xidmət edənlər hərbidən danışanda deyirdilər ki, siz də gedib kartof soyarsınız, qab yuyarsınız. Amma bu gün Azərbaycan əsgəri qab yumur, yemək bişirmir. Əsgər ancaq dərslərdə döyüş tapşırıqlarını öyrənir. Bu da bizə əlavə stimul verir".

### Azərbaycan əsgəri Ali Baş Komandanına qələbə raportu verməyə hazırdır

Hərbi hissədə həm apardığımız müşahidələrə, həm də gözlə gördüyümüz reallıqlara əsasən deyə bilərik ki, düşmənlə üzbəüz təmas xəttindəki hərbi hissədə özünü göstərən əhvali-ruhiyyə və hərbi quruculuq prosesi böyük qürur hissi doğurur. Bir daha əmin olursan ki, Vətən torpağı etibarlı əllərdədir.

Bununla yanaşı, ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri və təlimlər dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji dözümlüyünün formalaşmasına yardımçı olur.

*Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan Ordusu yenilməz ordudur və istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, ordumuz onu məhv edə bilməsin! Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və Azərbaycan əsgəri Ali Baş Komandanına qələbə raportu verməyə hazırdır.*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*(Yazı Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusunda elan olunmuş müsabiqəyə təqdim edilir.)*

# Fövqəladə hallar naziri Zaqatalada zəlzələdən zərərçəkən ərazilərə baxış keçirib





Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov respublikamızın şimal-qərb bölgəsində baş vermiş zəlzələdən sonra Zaqatalada yeraltı təkanların törətdiyi fəsadlarla tanış olub.

AZƏRTAC xəbər verir ki, fövqəladə hallar naziri, rayon rəhbərliyi və əlaqədar dövlət qurumlarının rəsmiləri rayonun Əliabad qəsəbəsində və Çobankol kəndində olub, qəzalı vəziyyətə düşmüş həyət divarına və fərdi evə baxış keçiriblər.

Nazir təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı nazirliyin müvafiq strukturlarının rəhbərlərinə tapşırıqlar verib. Qeyd edək ki, iyunun 5-i axşam saat 22:40 radələrində Zaqatala rayonu ərazisində 6 bal gücündə zəlzələ qeydə alınıb. Yeraltı təkanlar ətraf rayonlarda 5-3 bala qədər hiss edilib.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Birinci dubldan" sənədli filminin təqdimatı olub

İyunun 6-da Nizami Kino Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Birinci dubldan" ("S pervoqo dublya") sənədli filminin təqdimatı olub.





Filmin ssenari müəllifi və rejissoru Oleq Şommer, baş prodüseri Leyla Əliyevadır.

AZƏRTAC xəbər verir ki, filmin nümayişindən əvvəl çıxış edən Oleq Şommer bu ekran əsərini təqdim etməkdən böyük şərəf duyduğunu bildirib. Xatırladıb ki, 2017-ci ilin oktyabr ayında Nizami Kino Mərkəzində təqdimatı keçirilmiş, rejissoru və ssenari müəllifi olduğu "Pəncərədən düşən işıq" filminin ideya müəllifi və baş prodüseri də Leyla Əliyeva olub.

"Birinci dubldan" filminin əsasında mühüm faktın dayandığını diqqətə çatdıran rejissor deyib: "O zaman gənc respublika - Azərbaycan Xalq Cümhuriyyəti üzük qaşı kimi hər tərəfdən düşmən əhatəsində idi. Lakin buna baxmayaraq, hökumət xaricə təhsil almağa 102 tələbə göndərir ki, onlar bilik qazanaraq vətənə qayıtsınlar və bu biliklərini doğma ölkədə tətbiq etsinlər. Məgər ölkənin başqa qayğıları, başqa işləri yox idi? Əlbəttə ki, var idi. Lakin elə o zaman da dövlət bu gün olduğu kimi gələcək haqqında düşünürdü. Beləliklə, ənənə, nəsillər arasında əlaqələr davam edir".

Oleq Şommer müasir Azərbaycanda Dövlət Proqramı əsasında xaricdə uğurla təhsil alan tələbələrin də filmdə əks olunduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, 100 il əvvəl xaricə təhsil almağa getmiş gənclərin çox çətin taleyi olub. Onlar geri qayıda bilmədilər, çünki ölkə artıq müstəqil deyildi, Xalq Cümhuriyyəti daha yox idi. Gənclərin çoxu xaricdə qaldı. Məsələn, Oqtay Mirqasımovun iki doğma dayısı o zaman xaricə təhsil almağa getmişdi. Onların hər biri haqqında ayrıca roman yazmaq olar. Xaricə təhsil almağa göndərilən gənclər sırasında olan Cəfər Kazımov da mürəkkəb tale yaşayıb. O, Almaniyada Frayberq Texniki Universitetini bitirmiş, geri qayıtdıqdan sonra SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında vitse-prezident olmuşdu. Lakin repressiya zamanı ölkədən sürgün edildi. Sovet İttifaqına atom bombası lazım olanda onu tapıb, uran axtarışına göndərdilər. O, uranı tapdı. Ona söz verdilər ki, sürgün müddətini azaldacaqlar, lakin başqa cür davrandılar.

"Filmdə bizim başlıca vəzifəmiz zamanların əlaqəsini göstərməkdir. Məsələn, 1918-ci ilin mart ayı və 1990-cı ilin yanvar ayı. Bizim üçün vacib olan əsas məsələ ölkənin taleyini, ilk növbədə, insanların taleyi vasitəsilə vermək idi. Buna nə dərəcədə nail olduğumuzu tamaşaçılar daha yaxşı deyə bilər. Lakin düşünürəm ki, sənədli film ilk dubldan çəkilir", - deyən rejissor filmin baş prodüseri Leyla Əliyevaya təşəkkürünü bildirib.

Daha sonra film nümayiş etdirilib.

Tarixi faktlar və araşdırmalar əsasında çəkilmiş ekran əsərində Azərbaycan Xalq Cümhuriyyəti dövründə xaricdə təhsil almağa göndərilən 102 gəncin taleyindən, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə əldə olunan nailiyyətlərdən, xalq və dövlət maraqlarının hər şeydən üstün tutulmasından, gənclərin təhsilinə, o cümlədən xaricdə təhsil almasına dövlət siyasəti səviyyəsində göstərilən diqqətdən, güclü müstəqil dövlət olan Azərbaycanın əldə etdiyi iqtisadi qüdrətin insan kapitalına çevrilməsindən və bu insanların ölkəsinə bağlılığından, onların əldə etdikləri bilik və bacarıqların vətən, dövlət naminə istiqamətlənməsindən bəhs edilir.

"Əsas odur ki, doğru istiqamət müəyyən edilsin",- deyən müəllif filmin süjet xəttini Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qüdrətinin daha da artırılması və insanların rifahının sürətli yüksəliş yolu tutulması fikri ilə tamamlayıb.

# Bakıda BMX üzrə dünya çempionatının ikinci günündə 12 yaş kateqoriyasında qaliblər müəyyənləşib

Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatının ikinci günündə - iyunun 6-da yeniyetmə idmançıları arasında "Challenge" yarışları keçirilib.

AZƏRTAC xəbər verir ki, gün ərzində 12 yaş kateqoriyasında qaliblər müəyyənləşib.









Oğlanlar arasında 7 kateqoriyada təşkil olunan yarışlarda 5-6 yaşlı velosipedçilərin mübarizəsində ABŞ idmançısı Keyn Şultheys birinci olub. Latviyalı Marks Svalkovskis çempionatı ikinci, Macarıstan təmsilçisi Naszados Saba üçüncü pillədə başa vurublar.

Yeddi yaşlı oğlanların mübarizəsində də ABŞ idmançısı fərqlənib. Cozef Mather bütün rəqiblərini qabaqlamağı bacarıb. Rusiyalı Artyom Stolyarov və Avstraliya velosipedçisi Harley Bradşav ilk üçlüyü tamamlayıblar.

Çempionatda 8 yaşlıların yarışında braziliyalı Lukas Kardoso Darriba birinci olub. Böyük Britaniya təmsilçiləri Ceyms Klitheroe və Harrison Şofild müvafiq olaraq ikinci və üçüncü pillədə qərarlaşıblar.

Doqquz yaşlı idmançıların mübarizəsində avstraliyalı Fraser Vauqan birinci, niderlandlı Deon Qurman ikinci, fransalı Lukas Çaudun üçüncü olublar.

Mundialda 10 yaşlıların mübarizəsində ilk üçlükdə Avstraliya idmançıları - Tama Onekava, Bailey Mills və Kayn Baird yer alıblar.

ABŞ təmsilçisi Kol Frederik 11 yaşlıların yarışında qalib gələrək çempion olub. Latviyalı Kristers Apels ikinci, Niderland velosipedçisi Maddoks Van Din üçüncü yeri tutublar.

On iki yaşlı velosipedçilərin mübarizəsində ABŞ idmançısı Ronni Kim fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Braziliya təmsilçiləri Lukas Moresko Zimmerman ikinci, Tales Lauffer Şuler isə üçüncü yeri tutublar.

Qızlar arasında 8 yaşlı idmançıların yarışında Yaponiya təmsilçisi Mana Savada fərqlənib. Boliviyalı Mariana Aquilera Kollazos çempionatı ikinci, Yeni Zelandiya təmsilçisi Meq Kannon üçüncü pillədə başa vurublar.

Doqquz yaşlıların mübarizəsində Qvadalupe Palasios Palomeque fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Fransalı Alissa Dard və Niderland velosipedçisi Lieke Van Der Aa ilk üçlüyü tamamlayıblar.

Çempionatda 10 yaşlıların mübarizəsində ABŞ idmançısı Taylor Sprat birinci olub. Böyük Britaniya təmsilçisi Elza Rendall Toss və belçikalı Maksima Breuqelmans müvafiq olaraq ikinci və üçüncü pillədə qərarlaşıblar.

On bir yaşlı idmançıların yarışında avstraliyalı Portia Eden birinci, kolumbiyalı Nikole Foronda Kastro ikinci, Yeni Zelandiya velosipedçisi Lili Qrinouq üçüncü olublar.

Mundialda 12 yaşlıların mübarizəsində Latviya idmançısı Paula Kibare bütün rəqiblərindən üstün olub. Kolumbiyalı Sara İzabel Qarsia Marin yarışı ikinci, avstraliyalı Teya Rufus üçüncü yerdə başa vurublar.

Start xəttinə çıxan Azərbaycan velosipedçiləri Xəyal İbrahimov, Soltan İsrafilov və Justinas Pavlovas mükafatçılar sırasında yer ala bilməyiblər.

Mükafatlandırma mərasimində fəxri kürsüdə yer alan idmançılara medallar təqdim olunub.

Medalları və mükafatları qaliblərə Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartien, Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov və Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov təqdim ediblər.

İyunun 9-da yekun vurulacaq dünya çempionatının ilk günündə 14 yaş kateqoriyasında qaliblər bəlli olmuşdu.

# Azərbaycan UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib

Azərbaycan Respublikası UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib. Xarici İşlər Nazirliyi və Mədəniyyət Nazirliyi bununla əlaqədar birgə bəyanat yayıblar. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"İyunun 4-6-da Fransanın Paris şəhərində UNESCO-nun baş qərargahında təşkilatın Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyasına üzv ölkələrin 7-ci Baş Assambleyası keçirilib.

Sessiya çərçivəsində Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitədə azad olmuş yerlərə seçkilər keçirilib. İkinci qrup üzrə 2 yerə Azərbaycan, Belarus, Gürcüstan, Polşa, Slovakiya, Rumıniya və Makedoniya olmaqla 7 dövlət namizədliyini irəli sürmüşdü. Aparılmış geniş təbliğat-təşviqat kampaniyası nəticəsində Azərbaycan qrupda 90 səslə namizədlər arasında ən çox səs yığaraq komitəyə üzv seçilməyə nail olub. Digər yerə isə 52 səslə Polşa seçilib.

Azərbaycanın UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə namizədliyini dəstəkləyən bütün dövlətlərə təşəkkür edirik.

Azərbaycan Respublikası 2010-2014-cü illərdə Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitədə təmsil olunub və ölkəmizə yenidən bu etimadın göstərilməsi beynəlxalq müstəvidə, o cümədən UNESCO-da Azərbaycanın qazandığı nüfuzun növbəti təsdiqidir.

Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi və qayğısı, Azərbaycan Respublikası Xarici İşlər və Mədəniyyət nazirliklərinin birgə fəaliyyəti nəticəsində ölkəmizin UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Mehriban xanım Əliyevanın dəstəyi sayəsində ötən müddətdə Azərbaycan muğamı, aşıq sənəti, Azərbaycan tar ifaçılıq sənəti, kamança, lavaş, kəlağayı və digərləri daxil olmaqla ölkəmizin 11 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun siyahılarına daxil edilib.

2018-2022-ci illəri əhatə edən dövr ərzində komitəyə üzv dövlət olaraq Azərbaycan dünyada qeyri-maddi irsin qorunmasına öz töhfəsini vermək və zəngin təcrübəsini paylaşmaq, üzv dövlətlərlə əməkdaşlıq ruhunda birgə fəaliyyət həyata keçirmək, Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyadan irəli gələn məqsədlərin həyata keçirilməsinə yaxından dəstək vermək, həmçinin qeyri-maddi mədəni irs incilərimizi beynəlxalq səviyyədə təşviq etmək istiqamətində səylərini əsirgəməyəcək".

# Ədliyyə naziri Siyəzəndə vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 6-da ədliyyə naziri Fikrət Məmmədov Siyəzən rayonundakı Heydər Əliyev Mərkəzində Siyəzən, Şabran və Xızı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

***AZƏRTAC***

# Torpaqların kadastr uçotu ilə bağlı təqdimat keçirildi

Milli Məclisin Aqrar siyasət komitəsində "Torpaqların elektron kadastr uçotu yekunlaşan rayonlarda görülən işlərin nəticələri ilə bağlı" təqdimat olub.

Komitəin sədri Eldar İbrahimov respublikamızda həyata keçirilən torpaq islahatlarından söz açdı. Torpaqların elektron kadastr uçotunun vacibliyinə toxunan komitə sədri bu sahədə həyata keçirilən işlərin torpaqların idarə olunmasında mühüm əhəmiyyət kəsb etdiyini söylədi.

Təqdimatda qeyd olundu ki, Prezident İlham Əliyev torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elektron kadastr uçotunun aparılması istiqamətində mühüm tapşırıqlar verib. Ölkə başçısının 2016-cı il 7 mart tarixli fərmanına əsasən, torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılıb və rəqəmsal kadasr xəritəsi tərtib edilib. Bu istiqamətdə müasir yanaşmalar, elmi-texniki nailiyyətlər tətbiq olunub. Belə işlərin icrası məqsədilə bir çox ölkələrin qabaqcıl təcrübələri öyrənilib, ixtisaslı kadrlar işə cəlb edilib. Komitə tərəfindən görülən bu genişmiqyaslı tədbirlər torpaq bazarının təkmilləşdirilməsinə, torpaq balansının dəqiqləşdirilməsinə, o cümlədən vahid torpaq bazasının yaradılmasına, idarəetmədə səmərəlilik prinsiplərinin təmin edilməsinə imkan verir.

Bildirildi ki, Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemində torpaqların dəqiq sərhədləri, ərazisi, coğrafi yerləşməsi, mülkiyyət mənsubiyyəti, kateqoriyası, münbitlik dərəcəsi, şorlaşma vəziyyəti, mühafizə zonaları və digər məlumatlar əksini tapır. Bugünədək 18 rayonda torpaqların elektron kadastr uçot işləri yekunlaşıb. Artıq 6 rayonda (Salyan, Ağsu, Beyləqan, Göygöl, Samux, Balakən) kadastr işlərinin praktiki istifadəsinə başlanılıb. Torpaq uçotu bitmiş rayonlardan ötən il ərzində 13 rayonun hüdudları daxilindəki bələdiyyələrin xəritələri hazırlanıb. Sumqayıt, Gəncə şəhərlərinin hüdudları daxilindəki bələdiyyələr üzrə xəritələr artıq tətbiq edilib. Bakı şəhəri üzrə, həmçinin Şirvan, Naftalan, Mingəçevir şəhərlərinin bələdiyyə xəritələrinin hazırlanması işi yekunlaşmışdır. Bələdiyyə xəritələri hər bir bələdiyyə ərazisinin dəqiq sərhədlərini, ərazidəki torpaqların təyinatını və keyfiyyət göstəricilərini özündə əks etdirir. Bu isə bələdiyyə torpaqlarının daha səmərəli idarə edilməsinə imkan verir.

Təqdimatın sonunda deputatları maraqlandıran suallara aydınlıq gətirildi.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan təhlükəsizlik sahəsində ABŞ-ın aparıcı tərəfdaşıdır

## Bu fikir ABŞ Helsinki Komissiyasının sədri Rocer Uikerin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bəyanatında yer alıb

ABŞ Senatının Missisipi ştatını təmsil edən respublikaçı üzvü, ABŞ Helsinki Komissiyasının sədri Rocer Uiker Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə bağlı bəyanatla çıxış edib.




AZƏRTAC xəbər verir ki, bəyanatda ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğu bildirilir. 1920-ci ildə bolşeviklərin Azərbaycana müdaxiləsilə ölkənin Sovet İttifaqının tərkibinə qatıldığı, lakin Sovet İttifaqının dağılması ilə Azərbaycanın yenidən 1991-ci ildə müstəqilliyini bərpa etdiyi vurğulanır. ABŞ-ın yenidən Azərbaycanın müstəqilliyini tanıyaraq 1992-ci ildə diplomatik əlaqələr qurduğu qeyd edilir.

Bəyanatda Azərbaycanın təhlükəsizlik sahəsində ABŞ-ın aparıcı tərəfdaşı olduğu xüsusi bildirilir. Diqqətə çatdırılır ki, 2002-ci ildən Azərbaycan qoşunları Əfqanıstanda xidmət göstərir, ABŞ-a və NATO tərəfdaşlarına yardım edir. Azərbaycanın şimal paylayıcı şəbəkəsi vasitəsilə Əfqanıstana hərbi yüklərin daşınmasında mühüm tranzit rolu oynadığı, habelə ölkəmizin Əfqanıstana gedən ABŞ hərbi heyətinin Azərbaycan hava məkanından istifadəsinə icazə verdiyi vurğulanır.

Bəyanatda dünyəvi Azərbaycanın nümunəvi bir dövlət olduğu bildirilir, ölkəmizin "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacağı qeyd edilir. Sonda isə senator Azərbaycan xalqına öz səmimi təbriklərini çatdırır.

# QƏZET SIRADAN ÇIXIR...

## Onun yerini nə tutur və hansı fəsadlar yaranır

**Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 yaşı tamam oldu və Prezident İlham Əliyevin rəhbərliyi ilə bu möhtəşəm tarixi gün yubiley şəklində qeyd edildi.**

**XX əsrin əvvəllərində bizə müstəqilliyin dadını ilk dəfə daddıran demokratik respublikamızın özü cəmi 23 ay ömür sürdü.**

**Ulu öndər Heydər Əliyevin qüdrət və qətiyyəti sayəsində əsrin sonlarında qazanılan dövlət müstəqilliyimiz isə artıq 27 ildir yaşayır və inanırıq ki, əbədi var olacaqdır.**

**Həm Azərbaycan Xalq Cümhuriyyətini quranlar, həm də bugünkü müstəqil dövlətimizi qoruyanlar və yaşadanlar, ona ləyaqətlə xidmət edənlər böyük vətənpərvərlər, zəngin mənəviyyatlı insanlar, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sahib və sadiq vətəndaşlardır. Belələri üçün vətənə məhəbbət, xalqa sədaqət və millətə xidmət həmişə və hər zaman hər şeydən ucada dayanıb!**

Həm də bu xidmətdən şərəf duyublar, təmənnasız olublar!

Dövlətin və xalqın maraqlarını daim yüksəkdə tutmağı da bacarıblar!

**Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin şəxsiyyətləri və geniş dünyagörüşləri, zəngin bilikləri və vətənə xidmət naminə hər bir çətinliyə və əziyyətə qatlaşmaq qabiliyyətləri adamda sonsuz qibtə və heyrət doğurur!**

Həm də müsbət mənada təəccübləndirir:

- *Vətənə məhəbbət hissi Avropada təhsil alaraq geriyə dönmüş bu insanların canına və qanına haçan hopmuşdur?!*
- *Hələ cavan yaşlarından müasir dünyagörüşünə, qabaqcıl fikir və düşüncələrə harada və necə yiyələnmişlər?!*
- *Kitabxanaların və internetin olmadığı bir dövrdə bu qədər bilgini hansı mənbədən öyrənərək mənimsəmişlər?!*
- *Ən nəhayət, rahat yolla çoxlu pul qazanmaq imkanları olduğu halda niyə xalqa xidmətin çətin, əziyyətli, riskli və təhlükəli üsulunu seçmişlər?!*

Hələ bu sualların cavabını özüm üçün qaneedici şəkildə aydınlaşdıra bilməmişəm...

*Hamısı işıqlı zəka sahibi idi!*

*Hamısı bir neçə dil bilirdi!*

*Hamısı jurnalistlik məharətinə yiyələnmişdi!*

*Hamısı ictimai-siyasi xadim kimi yetişmişdi!*

*Hamısı müxtəlif qəzetlərdə çalışır və ya daim mətbuatla sıx əməkdaşlıq edirdi!*

**Bəli, həmin dövrdə qəzetlər, redaksiyalar bir məktəb idi:**

**Vətənpərvərlik məktəbi!**

**Mənəviyyat məktəbi!**

**Öyrənmək və öyrətmək məktəbi!**

**Millətə təmənnasız xidmət məktəbi!**

Baş qəzetçimiz Həsən bəy Zərdabidən tutmuş maarifçi-demokratlara, müəllim, yazıçı, şair və aktyorlara, Xalq Cümhuriyyətinin liderlərinə və onların silahdaşlarına qədər hamı xalqı savadlandırmağa, maarifləndirməyə, dünyagörüşünü genişləndirməyə, mədəni səviyyəsini yüksəltməyə - bir sözlə, yeni dövrün insanlarına çevirməyə çalışırdılar!

*Bir daha vurğulayırıq: başlıca tribunaları qəzet və jurnallar, sonralar isə məktəblər idi!*

*Bəli, bu gün hörmətdən düşən, hamının son nəfəsinin nə vaxt çıxacağını gözlədiyi qəzetlər!..*

*Ola bilər ki, kimlərsə millətin inkişafında qəzetlərin xidmətini lazımınca dərk edə bilməsin və ya unutsun!*

*Adətən hər şey "qocalanda" dəyərdən düşür - bu da həyatın yazılmamış qanunlarındandır!*

**Amma gəlin görək dəfninə hazırlaşdığımız qəzetlə birlikdə daha nələri basdırmaqdayıq...**

### ƏQİDƏ, İDEYA, MƏNƏVİYYAT, TƏRBİYƏ...

Jurnalistika cəmiyyətin həyatına çox-çox sonralar daxil olub!

Jurnalistlik peşə kimi xeyli gec yaranıb!

İlk dəfə qəzeti yaradanlar və redaksiyada çalışanlar nə jurnalist olublar, nə də jurnalistika ilə bağlı təhsil alıblar!

Amma məhz belələrinin fəaliyyətləri əsasında jurnalistikanın qayda, tələb və prinsipləri formalaşıb.

*Qəzet sırf pul qazanmaq vasitəsi, redaksiya yalnız biznes obyekti deyil! (Hərçənd ki, bunun belə olduğunu sübut etməyə çalışanlar çoxdur).*

*Burada paradan öncə əqidə, məslək, ideya, mənəviyyat, tərbiyə və mədəniyyət amilləri də var!*

Əslində, qəzetin sahibi ilə onu buraxan redaktoru başqa adamlar olur!

Biri pul qoyub pul qazanır, digəri isə pula satılan "mənəvi məhsul" istehsal edir!

Bu iki vacib məqamı ayırmadan nə əsl qəzet buraxmaq mümkündür, nə də qəzeti itirəndən sonra nələrin də itiriləcəyini dərindən anlamaq!

Məni qorxudan bir qəzetçi kimi işimi itirəcəyim deyil! - Hələ ona xeyli var!

**Qəzetlə birlikdə itiriləcək dəyərlərin ağrısıdır!**

**Artıq onun əlamətləri özünü qabarıq göstərməkdədir!**

### "BOLLUQ"DAN YOX, TƏMƏNNALIQDAN GÖZDƏN DÜŞƏNLƏR

SSRİ-nin yetmiş il ömür sürməsinə kömək göstərən ən mühüm amillərdən biri ideoloji işə - təbliğat və təşviqata hər zaman yüksək qiymət verilməsi və kifayət qədər vəsait ayrılması idi. Qəzeti "kollektiv təbliğatçı, kollektiv təşviqatçı və kollektiv təşkilatçı" hesab edən Sovet İttifaqı Kommunist Partiyası onu öz fəaliyyətinin tərkib hissəsi kimi daim diqqət mərkəzində saxlayırdı.

Pionerlərin qəzeti ayrı idi...

Komsomolçuların qəzeti ayrı idi...

Partiya üzvlərinin qəzeti ayrı idi...

Yazıçıların, müəllimlərin, həkimlərin, fəhlələrin, kolxozçuların... qəzet və jurnalları ayrı-ayrı idi!..

**Amma hamısı təbliğat vasitəsilə bir məqsədə xidmət edirdi:**

- *SSRİ orada yaşayan bütün xalqların və millətlərin vətənidir, vətən isə doğulduğun komadan (evdən, kənddən və s.) yox, dövlətin sərhədlərindən başlayır;*
- *Hamınız bu böyük vətəni sevməlisiniz, ona xidmət göstərməlisiniz və hər an yolunda ölümə belə hazır olmalısınız;*
- *SSRİ-dən güclü dövlət, kommunizmdən yüksəkdə dayanan ideya, Lenindən böyük dahi yoxdur;*
- *İmperializm bizim düşmənimizdir, ABŞ təcavüzkar dövlətdir, biz sülh istəyirik, müharibəyə isə daim hazır olmalıyıq;*
- *Sovet adamı fiziki cəhətdən sağlam, mənən zəngin, vətənpərvər, savadlı və dünyagörüşlü, partiyaya sədaqətli, insanpərvər və s. olmalıdır...*

Siyahını uzatmırıq.

**Bütün bunlar fasiləsiz surətdə insanların beyninə yeridilirdi!**

Hərçənd ki, həyatda gördüklərimizin bir qismi başqa mətləblərdən xəbər verirdi.

Amma belə tərbiyənin ciddi təsiri və nəticələri də olurdu.

*Bütün hallarda mənəviyyat, dövlətə və xalqa sədaqət məsələləri, insanpərvərlik daim diqqət mərkəzində saxlanılırdı!*

Məsələn, hamını inandırırdılar ki, SSRİ-də mətbuat və söz azadlığı, vicdan və düşüncə azadlığı var.

Amma mətbuata "qlavlit" və partiya təşkilatları vasitəsilə ikiqat senzura qoyulmuşdu.

İnsanlara seçim imkanı vermədən Allahsızlıq təbliğ edilirdi!

Sovet İttifaqı Kommunist Partiyasından başqa partiya yox idi və ola da bilməzdi!

Nədənsə "söz və vicdan azadlığının mövcud olduğu" ölkədə heç kəs qəzet, jurnal, telekanal, informasiya agentliyi açaraq jurnalistika ilə sərbəst və müstəqil şəkildə məşğul ola bilməzdi!

Amma dövlətin və partiyanın sayəsində mətbuat və jurnalist cəmiyyətdə hörmət və nüfuz sahibinə çevrilmişdi.

❖❖❖

Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazandıqdan, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yeni Konstitusiyanın qəbulundan və mətbuata senzura nəzarətinin ləğvindən sonra hər şey əsaslı şəkildə dəyişdi!

Həm də çox qısa vaxtda!

- *Həqiqi mətbuat və söz azadlığı bərqərar oldu;*
- *Ürəyi istəyən özünə partiya yaratdı;*
- *Vətəndaş cəmiyyəti formalaşdı;*
- *Könlündən keçən qəzet açaraq "jurnalistliyə" başladı;*
- *Elə bir qəzet bolluğu yarandı ki, gəl görəsən!*

Amma hansı qəzetlərin bolluğu?

Sualı başqa cür də qoymaq olar: əsasən nədən yazan və nələri unudan qəzetlərin bolluğu?!

**Mətbuata senzura nəzarəti ləğv ediləndən, KİV haqqında qanun kifayət qədər loyallaşdırılandan və beləliklə, qəzet açmaq, mətbu söz "istehsal etmək" son dərəcə asanlaşdırılaraq hamıya əlçatan edildikdən sonra bu sahəyə güclü axın başladı.**

Bunun bir neçə səbəbi vardı:

*Əvvəla,* sovet dövründə jurnalist peşəsi çox hörmətli idi və bu sahədə çalışanlar cəmiyyətdə daha tez tanınaraq məşhurlaşırdılar.

*İkincisi,* jurnalistlər əməkhaqqı ilə bərabər qonorar da alırdılar və digərlərindən yaxşı dolanırdılar. Bu məqam da insanların psixologiyasında özünə yer etmişdi.

*Üçüncüsü,* "gəlirli iş" sayılırdı. Azərbaycan xalqı qonaqpərvər olduğundan ezamiyyətə gələn müxbiri hörmətlə qarşılayır, hər gün yedirib-içirir, qayıdanda pay-puşla yola salır, hətta cibinə xərclik də qoyurdular.

*Dördüncüsü*, jurnalist üçün "bağlı qapı" olmurdu. ("Qəzet bolluğu" dövründə "xanım jurnalistlər" bu məqamdan istifadə etməyə başladılar). Müxbir rəhbər işçilərdən nəsə şəxsi xahiş edəndə eşidilər və əməl olunardı.

*Beşincisi,* redaksiyalarda işləyənlər dövlət hesabına daha tez mənzillə təmin olunurdular və s.

**"Yeni dövr" jurnalist olmaq arzusu ilə yaşayanların və qəzetdə işləməkdən ötrü sinov gedənlərin işini görünməmiş dərəcədə asanlaşdırdı.**

*Artıq aylarla redaksiyalara ayaq döyərək bir yazını güclə çıxaranlar çox asanlıqla özləri "baş redaktor"a çevrilə, üstəlik, "pullu yazılar" bazarı aça bilirdilər.*

*Peşəsinə və ixtisasına uyğun iş tapa bilməyənlər, maskalanaraq müxtəlif növ dələduzluqla məşğul olanlar da jurnalistikaya gələrək qəzetlərdə (sonralar isə internet saytlarında) özlərinə isti yuva qurdular.*

*Bu tip insanların doxsan doqquz faizinin jurnalist ixtisası və sahə ilə bağlı adi bilikləri belə olmurdu. İndi də redaksiyalarda müxbirlik edənlər ("vəzifə" tutanlar) özlərini "jurnalist" adlandırırlar. Halbuki jurnalist olmaq üçün ən azından müvafiq universitetlərdə bəlli müddətdə oxumaq, dövlət imtahan komissiyasına imtahan verdikdən sonra onun qərarı ilə bu ada sahiblənmək mümkündür!*

Əslində, məsələ heç adda da deyil, əməldədir!

**Yeni dövrün yeni "qəzetçiləri" Azərbaycan milli mətbuatının bütün qayda və prinsiplərini pozdular (əslində, həmin ənənə və prinsiplərdən xəbərsiz idilər).**

Mətbu sözün məsuliyyətini dərk etməyərək ondan sui-istifadəyə (həm də şəxsi maraqları naminə) başladılar.

"Qəzet reketçiliyi"nə qurşanaraq öz aralarında xüsusi şəbəkələr yaratdılar (Bir nəfərin bir neçə qəzetə rəhbərlik etməsi adi hala çevrildi).

Şantaj yolu ilə, insanlara şər-böhtan atmaqla sonradan "silsilə tənqidi yazıların" dayandırılması üçün pul qoparmağa başladılar (Məmurlar arasında onların bu xidmətlərindən bəhrələnərək belələrinə havadarlıq edənlər də tapıldı).

**Son nəticədə qəzet də, qəzetçilik də, jurnalistika da gözdən-nəzərdən düşdü, hörmətsiz peşəyə çevrildi!**

*Oxucular belə qəzetlərdən də, orada çalışanlardan da iyrəndilər!*

*Jurnalist peşəkarlığı və məsuliyyəti yoxa çıxdı!*

*Qurunun oduna yaş da yandı:*

*"Köhnə oxucular" qəzetlərdən "küsdülər"!*

*"Yeni oxucular" qəzetlərə yaxın gəlmədilər, saytlara üz tutdular!*

*Ən pisi isə bu oldu ki, gənc nəsil təkcə qəzetdən yox, kitabdan da uzaq düşdü...*

**Bu itkinin yerini isə heç nə ilə doldurmaq mümkün deyil!**

**İnsana dünyagörüşü, həyat bilgisi, mədəni hisslər aşılayan, ana dilini dərindən öyrənməsinə kömək göstərən, milli-mənəvi dəyərlərin mənimsənilməsində ən yaxın köməkçi sayılan kitablardan da!**

### NƏTİCƏ ÖZÜNÜ GÖSTƏRMƏKDƏDİR

Kino çıxanda dedilər ki, teatr öləcək, ölmədi!

Televiziya çıxanda dedilər ki, kino öləcək, ölmədi!

İndi dünyanın hər yerində böyük tamaşaçı auditoriyası olan teatrlar da var, hər il milyonlarla dollar "kassa verən" kinolar da çəkilir!

Ölən teatrlar da, filmlər də, hətta televiziya kanalları da oldu. Bunlar isə səviyyəsizlikdən və vəsaitsizlikdən baş verdi!

**Açığını söyləyək: əgər Azərbaycan Prezidenti cənab İlham Əliyev KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasını hazırlatdıraraq müstəqil qəzetlərə qrantlı layihələr formasında maliyyə yardımı göstərməsəydi, indi qəzetlərin 80-90 faizi çoxdan bağlanmışdı.**

Qəzet satışının pis günə qoyulması, dövlətin maliyyəsi ilə yenidən hazırlanaraq paytaxtın ən gur yerlərində qoyulan yaraşıqlı "qəzet köşkləri"nin (Press köşk) yenə əvvəlki kimi "mini bazar" şəklində fəaliyyət göstərməsi hər gün seyr etdiyimiz acı mənzərələrdəndir!

*Qəzetlər üçün "reklam bazarı"nı formalaşdırmaq heç cürə mümkün olmadı! Hazırkı "bazar"dakı reklam vəsaitləri isə düzgün və ədalətli bölüşdürülmür!*

*Bütün ciddi-cəhdlərinə baxmayaraq, sərbəst qəzet satışı və "reklam bazarı"nın formalaşdırılması sahəsindəki nöqsan və problemləri Mətbuat Şurası da aradan qaldıra bilmədi!*

**Yaxşı, qəzetləri də verək arxivə, bəs sonra, onların yerini nə tutacaq?!**

**Sosial şəbəkə?**

Hələ bir sosial şəbəkəsinin boyunu sevərək bəziləri ona "sosial media" da deyirlər!

Heç orada medialıqdan əsər-əlamət var?!

*Nə qanuna tabedir, nə sivil qaydası yaradılıb, nə də burada yazışanların bir qismi ədəb-ərkan tanıyır!*

Özəl televiziya kanalları qəzetləri əvəz edə bilmədi: əksinə, hər şeyi şoulaşdıraraq, bayağılaşdıraraq təkcə Azərbaycan dilinə yox, milli-mənəvi dəyərlərimizə də ciddi zərər yetirirlər. Belə kanalların çəkdikləri yeni seriallar isə lap "gül vurub"lar!

İnternet saytlarında da bir-birini təkrar edən xəbərlərdən və hər informasiyadan sensasiya düzəltmək cəhdindən başqa heç nə görmürük!

*Nə milli-mənəvi dəyər qalıb, nə də jurnalistikanın janrları!*

Bunu nə bilənlər var, nə də öyrənmək istəyənlər!

**Bircə gün kifayətdir ki, televiziya kanallarını və internet saytlarını müşahidə edəsən, onda hər şeyi açıq-aşkar görəcəksən! Görəcəksən ki:**

- *Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları mütəmadi şəkildə pozulur;*
- *Milli-mənəvi dəyərlərin qorunmasına əhəmiyyət verilmir;*
- *Azərbaycan mətbuatının ənənələri yada düşmür;*
- *Azərbaycan ədəbi dilini "çayxana" və "qeybət" dili əvəz edib;*
- *Vətənpərvərlik təbliğatı aparılmır;*
- *Bütün informasiyaların, hadisələrin və verilişlərin mərkəzində "mənfi qəhrəman" durur: bu televiziyada da belədir, saytlarda da, yeni seriallarda da!*

Kriminal xəbərlərə nə qədər aludəçilik olar?

**İnsanları mənəviyyatsızlığa, millətin adına yaraşmayan hərəkətlərə, biabırçılığa alışdıran, belə halları geniş təbliğ edərək adiləşdirən informasiyalara haçanacan gen-bol yer veriləcək?**

**Mənəviyyatdan yazanda və danışanda mənfi halların qınanması, tənqidi nə vaxtadək "unudulacaq"?!**

*Daha ictimai rəy də kəsərdən düşüb!*

*Axı bu xalq belə deyildi: böyük bilirdi, ağsaqqal-qarasaqqal tanıyırdı, ana-bacıdan həya edirdi, söz deyəndə öz mənliyini də nəzərə alırdı...*

Bütün bunların acı nəticəsini vaxtaşırı görüb-eşidirik:

- *oğul anasını və ya atasını öldürür;*
- *qardaş qardaşının qarnına bıçaq soxur;*
- *həddi-büluğa çatmayan qız evli kişiyə qoşulub qaçır;*
- *ana uşağını ataraq feysbukda tapışdığı birisinin yanına gedir;*
- *doğmalar bir-birinin evinə oğru gətirərək əmlakını ələ keçirməyə çalışır və s.*

**Bu gün qəzetdə kimisə söymək, təhqir etmək, aşağılamaq mümkün deyil! Dərhal qanunun gücü işə düşür, günahkarlar məhkəmə qaydasında cəzalandırılır!**

**Üstəlik, bütün mətbuat cameəsi və ictimai rəy düşür həmin qəzetin üstünə, təkləyir, yaramaz əməli tərgitdirir.**

Baxın, əgər jurnalistlərlə bərabər ziyalıların, tanınmış insanların, bütövlükdə xalqın təpkisi olmasaydı "qəzet reketçiliyi"nin qarşısını almaq mümkün olardımı?!

*Bəs sosial şəbəkələrdəki özbaşınalıqlara, təhqir və söyüşlərə qarşı ağıllı, abırlı və ziyalı insanların niyə belə birliyi yoxdur?!*

*Kimi və ya nəyi gözləyirlər?!*

*Söyüş, təhqir eşitmək insana xoş gələ bilərmi?!*

Axı yüzlərin oxuduğu, yaxud eşitdiyi söz mətbu söz (ictimai şəkildə səsləndirilən və ya eşidilən) sayılır.

Elə isə belə hallara qarşı niyə qanuni yolla mübarizə təşkil edilməsin?

**Nəyə əsasən və nə vaxtadək söyüş və təhqiri mətbuat və söz azadlığının təzahür forması kimi qəbul edəcəyik?! (Yaxud bizə qəbul etdiriləcəkdir?)**

**Bəs insanın şərəf və ləyaqəti?**

**Axı bunlar heç də söz azadlığından aşağıda dayanmır!**

**Bəlkə də əksidir!**

**Ola bilsin ki, söyüş söyən öz şərəf və ləyaqətini dəyərincə qiymətləndirməsin! Bu onun öz işidir!**

**Bəs biz, onu eşidənlər və ya oxuyanlar?**

**Belə yanaşmanı bəyənib dayanmalıyıqmı?!**

**Qınaq və hüquq birlikdə işləməlidir!**

**Milli mətbuatın, qəzetçiliyin ənənəsi yaşadılmalı, ictimai sözün mövcud olduğu bütün sferalarda bərqərar olunmalıdır!**

**Hətta qəzetin özü ölüb, sıradan çıxsa da belə!**

**Bütün bunları biz etməliyik!**

**Biz hamımız!**

**Həm də birlikdə!..**

**Bəxtiyar SADIQOV**

---

# Nankorluq və xəyanətin bariz nümunəsi

Tarix sübut edir ki, xəyanət və nankorluq heç vaxt bağışlanmır. Düşmənlərin bir-birinə qarşı apardığı istənilən çirkin kampaniya, şər-böhtan və hətta təhqir belə başadüşüləndir. Lakin bəzən öz millətinə şər atan, xalqının şanlı tarixini ləkələməyə çalışan insanlar da tapılır. Belələrinə isə yalnız xəyanətkar adı vermək olar. Bu insanlar hətta xalqımızı birləşdirən azərbaycançılıq ideologiyasını, milli dəyərləri tapdalamaqla bu adı "qazanır".

Təəssüflər olsun ki, növbəti dəfə Azərbaycan xalqının iradəsinə, milli dəyərlərə qarşı düşmən münasibəti nümayiş etdirən kinorejissor Rüstəm İbrahimbəyovun timsalında bu utancverici reallığın şahidi olduq. Bu dəfə R.İbrahimbəyov düşmən dəyirmanına "Qafqaz üçlüyü" filmi ilə su tökdü. Yəqin ki, buna görə "xidmət" etdiyi dairələrdən təşəkkürünü də alıb.

Azərbaycan xalqının yüksək mənəvi keyfiyyətləri, zəngin mədəniyyəti, tarixi ənənələri ilə dünyaya uğurla inteqrasiya olunduğu və dünyada ölkəmizlə bağlı ən dolğun təəssüratların formalaşdığı bir zamanda Rüstəm İbrahimbəyovun aşkar xəyanət yolu tutması heç də təəccüblü deyil. Çünki bu şəxs hər zaman şəxsi ambisiyalarını milli maraqlardan üstün tutmaqla öz xalqını aşağılamağı sanki özünə kredo seçib. Onun ssenari müəllifi olduğu "Qafqaz üçlüyü" adlı bədnam film də belə xəyanətin ən pis nümunələrindəndir. Ən azı ona görə ki, dünya birliyi ermənilər məkrli, şovinist, başqa xalqlara qarşı soyqırımı törədən bir toplum kimi tanıdığı halda, R.İbrahimbəyov erməniləri müsbət şəkildə təsvir edərək ilk növbədə öz xalqını aşağılayır. Bu, həqiqətən də onun nankorluq xislətinin göstəricisi, milli köklərə, xalqına nifrətin bariz nümunəsidir.

Rüstəm İbrahimbəyov kimi dönüklərin xalqımızın milli-mənəvi kimliyinə vurmaq istədiyi zərbə həm də Azərbaycan xalqı haqqında dünya ictimaiyyətində yalnış fikir formalaşdırmaq cəhdidir. Dəfələrlə xalqımızın milli-mənəvi dəyərlərinə qarşı "yaradıcılıq" adı altında hücumlar etmiş kinorejissorun çirkin əməlləri bağışlanmazdır. Çünki bu şəxs növbəti dəfə xalqına xəyanət, dövlətinə və millətinə qarşı düşmənçilik mövqeyi tutdu.

Bu, iqtidara, yəni hakimiyyətə qarşı deyil, konkret olaraq millətə, dövlətə vurulan zərbədir. Çünki torpaqlarının 20 faizi işğal altında olan, həmin ərazilərdə bütün milli-mədəni irsi dağıdılmış, on minlərlə azərbaycanlının həlak olduğu, uşaqlarının, qadınlarının, qocalarının qəddarcasına, işgəncə ilə qətlə yetirildiyi bir xalqın "nümayəndəsi"nin bu "etiraf"ları milli xəyanətin, insan mənəviyyatının deqradasiyası və alçalmasının, öz milli köklərinə, xalqına nifrətin bariz nümunəsidir.

Bütün bunlar Rüstəm İbrahimbəyovun azərbaycanlılara və ölkəmiz adına olan hər şeyə dərin nifrətinin və düşmən minasibətinin təzahürüdür. Hesab edirəm ki, xalqına nifrət edən o xalqın fəxri adını daşıya bilməz. Bu film isə R.İbrahimbəyovun həm yaradıcılığında, həm də həyatında qara ləkə kimi həmişə üzünə vurulacaq.

*Həsən BAYRAMOV,*
*pedaqoji elmlər doktoru*

---

Tevos ARŞAKYAN:

# "Ermənilər inanırlar ki, Qarabağa sabitliyi İlham Əliyev gətirə bilər"

*Əvvəli 1-ci səh.*

Bu arada Xankəndidə yaşanan olaylar da Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında qarşıdurmanı tədricən pik həddə çatdığını göstərir. Xatırladaq ki, iyunun 1-də Xankəndidə Ermənistan Milli Təhlükəsizlik Xidməti əməkdaşlarının iştirakı ilə kütləvi dava olub və bununla əlaqədar 15 nəfər tutulub. Hadisənin məişət zəminində baş verdiyi bildirilir və Ermənistan Milli Təhlükəsizlik Xidməti əməkdaşlarının cəzalandırılması tələb olunurdu. Ancaq bu hadisə etirazlar üçün qığılcım rolunu oynayıb.

Məlum olub ki, separatçı rejimin "güc strukturlarının rəhbərləri" və onların ailə üzvləri davranışları ilə bölgədəki erməniləri girov vəziyyətinə salıblar. Aksiya iştirakçılarının separatçı rejimin "güc strukturları"nın "istefası"nı tələb etməsi də bunu bir daha təsdiqləyir.

Dünən isə qondarma rejimin Milli Təhlükəsizlik Xidmətinin direktoru, general-leytenant Arşavir Qaramyan, "dövlət naziri" Araik Arutyunyan və polis rəisi, general Kamo Ağacanyan istefa veriblər. Onu da qeyd edək ki, Araik Arutyunyan ötən həftə sonu başlayan etirazlar zamanı nümayişçilərin tələblərinin yerinə yetirilməsi və güc strukturlarında təmizləmələrin aparılması tərəfdarı kimi çıxış etmişdir.

İndi etiraza qalxanlar tələblərinə əməl olunmasını qəti şəkildə istəyirlər. Ekspertlər deyirlər ki, Ermənistanda Serj Sarkisyan hakimiyyətinin devrilməsi Qarabağda onun tərəfdarları üçün də ciddi problem yaradıb. Qarabağdakı ermənilər bildirirlər ki, indiyədək bölgədə qorxu hakim idi. Lakin artıq vəziyyət dəyişir. Digər tərəfdən, baş verənlər fonunda fikirlər də səslənir ki, olaylar öz aralarında qarşıdurmanı daha da dərinləşdirəcək və onları daha zəif duruma salacaq.

Ekspertlər bu fonda hesab edirlər ki, Xankəndidəki etirazlar qabaqcadan planlaşdırılmış siyasi sifarişdir. Belə ki, etirazların əsas məqsədi Serj Sarkisyanın yaxın adamı olan separatçı Bako Saakyanı devirməkdir. Bununla "Qarabağ klanı" tam sıradan çıxarıla bilər.

### Qarabağda baş verənlərdən Paşinyan öz məqsədləri üçün istifadə edir

Erməni mediası da yazır ki, Qarabağda baş verənlərdən Paşinyan öz məqsədləri üçün istifadə etməyi düşünür. O hesab edir ki, Ermənistanda hakimiyyət dəyişilibsə, bunun Qarabağda da təkrarlanması vacibdir. Çünki Paşinyan Sarkisyan klanına qarşı əsl savaş başladıb. Hətta Ermənistan Xüsusi İstintaq Xidməti 1 mart hadisələri ilə bağlı təhqiqatın aktiv mərhələsinə başlayıb.

"Aykakan Jamanak" qəzeti özünün etibarlı mənbələrinə istinadən xidmətin 1 mart təhqiqatıyla bağlı Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın da dindiriləcəyini yazıb. Qeyd edək ki, 2008-ci il martın 1-də prezident seçkisindən sonra saxtakarlığa etiraz edən etirazçılara açılan atəş nəticəsində 9 nəfər ölmüş, 200 nəfər yaralanmışdı. Koçaryanın bu addımının araşdırılmasına Serj Sarkisyanın hakimiyyəti dönəmində izn verilməyib.

Paşinyan hakimiyyətə gəldikdən sonra aktivistlər 1 mart hadisələrinin araşdırılmasını tələb etməyə başlasa da, hələlik hökumət bununla bağlı açıq bəyanat yaymayıb. Amma artıq reallıqda bununla bağlı iş gedir və belə vəziyyətdə Sarkisyan klanının bütün istiqamətlərdə zəiflədilməsi xüsusi diqqət mərkəzində yer alır. Bura Qarabağdakı rejim də daxildir. Bako Saakyanın devrilməsi Paşinyan üçün çox mühümdür.

### "Ermənilərə Qarabağda rahat və firavan həyatı yalnız Azərbaycan bəxş edə bilər"

Erməni siyasi şərhçi Tevos Arşakyan bu fonda yazır ki, Xankəndidə ermənilərin ayağa qalxmasının bir sıra dərin səbəbləri, o cümlədən klanlararası məqamları var: "Ermənistandakı "Qarabağ klanı", konkret olaraq, Serj Sarkisyan və Robert Koçaryan tərəfindən Qarabağa "rəhbər" təyin edilən Bako Saakyan çoxillik hakimiyyəti ərzində qorxu aparatı yaradıb. Yoxsulluq, korrupsiya, bir neçə generalın "müharibə yalanları" adı altında yaratdıqları idarəçilik və s. Qarabağdakı ermənilər artıq orada yaşaya bilmirlər. İnsanlar qorxu içində yaşayırlar və anlayırlar ki, Saakyan narazıların nazı ilə oynamayacaq, əksinə, onları amansızcasına cəzalandıracaq. Yerevanda baş verən inqilabdan sonra Xankəndidəki ermənilər illərdir üzərlərində olan qorxu atmosferini dağıda bildilər".

Arşakyan etiraz aksiyasının Xankəndidəki qondarma rejimi qorxuya saldığını vurğulayıb: "İnsanlar rejimin indiyə qədər yaratdığı "Azərbaycan qorxusu"nun da yalan olduğunu anlayır. Hərçənd, müharibə və qan üzərində hakimiyyətə gələn "Qarabağ klanı" "Azərbaycan təhlükəsi"ni qabardaraq, insanları qorxu altında saxlayırdı. "Biz olmasaq, türklər sizi öldürəcək!", onların şüarları belə idi. Lakin zaman keçdikcə amansız rejimin Azərbaycandan daha təhlükəli olduğu ortaya çıxdı və insanlar süni yaradılmış qorxunu dəf etdilər. İndi ermənilər bilir ki, burada onlara rahat və firavan həyatı yalnız Azərbaycan bəxş edə bilər. İnsanlar Azərbaycanla sülhün əldə olunmasına çağırış edirlər. İndi buradakı ermənilər daha çox inanır ki, Qarabağa sabitliyi N.Paşinyan yox, İlham Əliyev gətirə bilər".

Bu proseslər Ermənistanda iki klan arasında narazılığın getdikcə dərinləşdiyini sübut edir. Paşinyan isə verdiyi sözlərə rəğmən Sarkisyan gÜruhunu neytrallaşdırmağa çox tez başlayıb. Hər bir halda onun addımları açıq-aşkar köhnə komandanın məhvinə yönəlib. Bir tərəfdən hakimiyyəti yeni ələ keçirmiş adam tərəfindən belə addımların atılması normaldır. O, hakimiyyətini möhkəmlətmək istəyir. Digər tərəfdən, Paşinyanı hakimiyyətə gətirən kütlə klan davası yox, iqtisadi tərəqqi istəyir. Amma Paşinyan bunu həll etmək gücündə deyil, onun başı hazırda vəzifəsini qorumağa qarışıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ABŞ-ın daxili işlər və ekologiya naziri Rayan Zinke:

# "Müttəfiq, dost və tərəfdaş olan Azərbaycan həm region, həm də dünya üçün çox vacib ölkədir"







ABŞ paytaxtının tarixi və mötəbər binalarından biri olan "Endryu Melon Auditorium"da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə təntənəli ziyafət təşkil edilib. Ziyafətdə ABŞ tərəfini daxili işlər və ekologiya naziri Rayan Zinke, Ağ evin rəsmi nümayəndəsi və ABŞ Prezidentinin xüsusi köməkçisi Fiona Hil, Dövlət katibinin təhsil və mədəniyyət üzrə köməkçisi Mari Roys, Dövlət katibinin köməkçisinin müavinləri Bricit Brink, Tim Lenderkinq və Dan Rasenblum, müdafiə katibinin köməkçisinin müavini Lora Kuper, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Endrü Şofer, ABŞ Milli Qvardiyasının sədr müavini, üçulduzlu general Daniel Hokanson, konqresmenlər Bil Şuster, Henri Kueller, Mark Medous, Kolumbiya dairəsinin katibi Loren Voqan təmsil edib.

Min nəfərədək qonağın iştirak etdiyi ziyafətə ABŞ-ın dövlət qurumları, o cümlədən Ağ ev, Dövlət Departamenti, Müdafiə Departamentinin çoxsaylı təmsilçiləri, Konqres üzvləri və peşəkar heyət, bir sıra ştatların nümayəndələri, xarici ölkələrin səfirləri, hərbi attaşeləri və diplomatik korpusun digər əməkdaşları, "beyin mərkəzləri", geniş ictimaiyyətin, o cümlədən Azərbaycan, türk və yəhudi icmalarının çoxsaylı nümayəndələri qatılıblar.

Tədbirin əvvəlində ABŞ Hərbi Hava Qüvvələrinin hərbi orkestri Azərbaycan və ABŞ-ın dövlət himnlərini ifa edib.

Ziyafətin açılışında çıxış edən səfir Elin Süleymanov sözügedən tədbirin Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü və Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının ildönümünə həsr olunduğunu bəyan edib.

Diplomat 100 il bundan əvvəl müsəlman Şərqində ilk demokratik parlament respublikasının məhz Azərbaycanda yaranmasının qanunauyğunluğunu qeyd edərək, mövcud olduğu qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçiliyin qurulması, tolerantlıq ənənəsinin inkişafı və dini, etnik mənsuyindən və cinsindən asılı olmayaraq hər kəsin bərabərliyinin təmin edilməsi, bir çox aparıcı Qərb dövlətlərindən daha əvvəl qadınlara səsvermə hüququnun verilməsi barədə danışıb.

Yüz il sonra yenə Azərbaycanın qabaqcıl mövqedə dayandığını söyləyən səfir E.Süleymanov ölkəmizin regionda həyata keçirdiyi irimiqyaslı layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars, Bakı Beynəlxalq Ticarət Limanı, Bakı Karqo Terminalını xatırladıb. O, Azərbaycanın həm də peyk ölkəsinə çevrildiyini bildirib, bu layihələrin yalnız Azərbaycanın deyil, daha geniş coğrafiyanın inkişafına səbəb olduğunu vurğulayıb. Səfir Azərbaycanın regionda liderlik rolunun ölkəmizin başçısının uzaqgörən siyasəti ilə bağlı olduğunu önə çəkib. Bundan başqa, tolerantlıq və multikulturalizm ənənələri ilə fərqlənən Azərbaycanda müsəlman, xristian, yəhudi və digər dini qrupların Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini eyni coşqu ilə qeyd etdiklərini söyləyən səfir xalqımız üçün müstəqilliyin əsas nemət olduğunu vurğulayıb. O, Azərbaycanda yəhudi sinaqoqu və pravoslav kilsəsində Azərbaycan himninin xorla ifa edilməsi videosuna istinad edib və himnin gözyaşı ilə oxunduğunu xatırladaraq Azərbaycanın bütün vətəndaşları üçün sevimli Vətən olduğunu vurğulayıb.

Səfir Azərbaycan-ABŞ tərəfdaşlığına toxunaraq ölkələrimiz arasında qarşılıqlı hörmət və maraqlara əsaslanan və bir çox sahəni, o cümlədən enerji təhlükəsizliyi, terrorla mübarizə, müdafiə və təhlükəsizlik məsələlərini əhatə edən əməkdaşlığı vurğulayıb. Ölkəmizin həyata keçirdiyi irimiqyaslı enerji layihələrinə ABŞ-ın dəstəyini xatırladan səfir ABŞ tərəfinə təşəkkürünü ifadə edib. Həmçinin E.Süleymanov Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Prezident Donald Tramp və Dövlət katibi Mayk Pompeonun Azərbaycan Prezidenti və xalqına təbrikini razılıqla xatırladıb.

Səfir ölkə rəhbərliyinin yürütdüyü ardıcıl siyasət nəticəsində Azərbaycanın nüfuzunun dünya miqyasında artdığını bildirib və ölkəmizin qlobal sülh və təhlükəsizliyə töhfələri, o cümlədən Balkanlar, İraq və hazırda Əfqanıstanda NATO-nun sülh missiyasında iştirakı, həmçinin enerji təhlükəsizliyinə dəstəyi barədə danışıb. Səfir Vətənimizin keşiyində layiqincə göstərdikləri xidmətlərə və dünyanın müxtəlif yerlərində sülhməramlı missiyalarda iştirakına görə Azərbaycan hərbçilərinə minnətdarlığını bildirib.

E.Süleymanov ABŞ Administrasiyası da daxil olmaqla, ziyafətdə çoxsaylı qonaqların iştirakının ölkəmizin əhəmiyyətinin göstəricisi olduğunu bildirib. Həmçinin səfir tədbirin məhz Ramazan ayına təsadüf etməsini xoş məqam kimi qeyd edərək müstəqilliyin Azərbaycan üçün ən vacib nemət olduğunu vurğulayıb.

Tədbirdə iştirak edən ABŞ Administrasiyasının yüksək vəzifəli nümayəndələri, generallar, eləcə də Konqres üzvləri Azərbaycan-ABŞ tərəfdaşlığı ilə bağlı fikirlərini ifadə ediblər.

Daxili işlər və ekologiya naziri Rayan Zinke çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbriklərini çatdırıb. O, Azərbaycanın oynadığı rolu yüksək qiymətləndirdiyini vurğulayaraq ölkəmizin verdiyi töhfələrin nəzərə alınmasının vacibliyini bildirib. Ölkəmizi müttəfiq, dost və tərəfdaş adlandıran ABŞ naziri Azərbaycanın həm region, həm də dünya üçün çox vacib olduğunu söyləyib.

ABŞ Prezidentinin xüsusi köməkçisi Fiona Hil çıxışında Prezident Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı məktubu ziyafət iştirakçıları üçün oxuyub. O, ilk dəfə 30 il əvvəl - 1988-ci ildə ölkəmizə səfər etdiyini xatırlayaraq hazırda Azərbaycanın çox böyük nailiyyətlər əldə etdiyini vurğulayıb.

ABŞ Dövlət katibinin köməkçisinin müavini Bricit Brink bu yaxınlarda Azərbaycandan səfərdən olduqca məmnun qayıtdığını, Azərbaycanın mürəkkəb regionda müstəqil siyasət yürütdüyünü vurğulayıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin ilk müsəlman demokratik respublikası olduğunu xatırladaraq bu dövlətin nailiyyətlərini sadalayıb. Hazırda Azərbaycanın vacib rol oynadığını vurğulayan B.Brink ölkəmizin təşəbbüsü ilə həyata keçirilən mühüm enerji, nəqliyyat layihələrini və digər layihələri qeyd edib. ABŞ rəsmisi "Cənub qaz dəhlizi"nin uğurla tamamlanması və genişlənməsini ölkəsinin dəstəklədiyini bildirərək bu layihə ilə Xəzər regionunun dünya iqtisadiyyatına inteqrasiya edəcəyini söyləyib.

Daha sonra ABŞ Milli Qvardiyasının sədr müavini, üçulduzlu general Daniel Hokanson çıxış edərək Pentaqonun Azərbaycanla əməkdaşlığının tarixçəsinə nəzər yetirib, ABŞ-ın ölkəmizlə tərəfdaşlığa önəm verdiyini önə çəkib.

Konqresdə Azərbaycan İşçi Qrupunun rəhbəri Bil Şuster və konqresmen Henri Kueller çıxışlarında 100 illik münasibətilə Azərbaycanı təbrik edib, ölkəmizin ABŞ üçün vacib tərəfdaş olduğunu bildirib, "Cənub qaz dəhlizi"nin əhəmiyyətini vurğulayıb.

Daha sonra Vaşinqton şəhərinin aid olduğu Kolumbiya dairəsinin katibi Loren Voqan 2018-ci il 28 May tarixinin ABŞ paytaxtında Azərbaycan Milli Günü elan edilməsi barədə mer Müryel Bouzer tərəfindən verilmiş bəyanatın mətnini oxuyub.

Həmçinin Oklahoma Milli Qvardiyasını təmsil edən briqada generalı Luis Vilyam qubernator Meri Fellinin 28 May tarixinin Oklahoma ştatında Azərbaycan Milli Günü elan edilməsi barədə bəyanatının mətnini oxuyub.

Tədbir zamanı Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı hazırlanmış film göstərilib, "Silk Road Dance Company" və "Ritm" rəqs qrupunun ifasında Azərbaycanın milli musiqi və rəqs nümunələri qonaqları valeh edib və milli mətbəxin nümunələrindən ibarət təamlar təqdim olunub. Ziyafətin Ramazan ayına təsadüf etdiyi nəzərə alınaraq oruc tutan qonaqlar üçün həmçinin iftar süfrəsi təşkil edilib.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təntənəli tədbirdə ABŞ tərəfi olduqca yüksək səviyyədə təmsil olunub. Belə ki, ilk dəfə tədbirdə çoxsaylı natiqlər sırasında ABŞ kabineti səviyyəsində nazir, eləcə də Ağ ev, Dövlət Departamenti və Müdafiə Departamentinin yüksək rütbəli rəsmiləri və Konqres üzvləri birlikdə çıxış ediblər.

***AZƏRTAC***

# Mədəniyyətimizin hamisindən bəhs edən yeni kitab

Nəcib, nurlu və xeyirxah əməl sahibləri haqqında yazılan, rəflərimizi zənginləşdirməklə yanaşı, gündəlik həyatımızda bilgi mənbəyinə çevrilən hər bir kitab dəyərlidir və müasir cəmiyyətdə insan kapitalının mənəvi-əxlaqi baxımdan formalaşmasında mühüm əhəmiyyətə malikdir. Bu cür kitabla ünsiyyət oxucuya həm onun bəhs etdiyi işıqlı əməl sahibi ilə yaxından tanış olmaq, həyat və fəaliyyəti barədə dolğun məlumatlanmaq, həm də bu əməl sahibinin daşıyıcısı olduğu mənəvi dəyərlərin mahiyyətini, onların qorunub saxlanmasının və bütün rəngarəngliyi ilə gələcək nəslə ötürülməsinin vacibliyini dərindən dərk etmək imkanı verir, mənsub olduğu xalqın milli-mənəvi irsinə, mental əxlaqi dəyərlərinə, genetik yaddaşı və tarixi kimliyi ilə müəyyənləşən özünəməxsusluğuna hörmətlə yanaşmaq bacarığını aşılayır.




Bu günlərdə "Şərq-Qərb" nəşriyyatında nəfis tərtibatla işıq üzü görmüş "Mehriban Əliyeva - Azərbaycan mədəniyyətinin hamisi" kitabı məhz belə nəşrlərdəndir.

Bir vaxtlar ali təhsilin magistratura pilləsində ən fəal və yaradıcı, elmi araşdırmalara xüsusi marağı ilə fərqlənən tələbələrimdən biri olmuş, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmi işçi vəzifəsində çalışan Əzizə Ələkbərovanın tərtib etdiyi, həmin İnstitutun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimovun elmi redaktorluğu ilə yüksək poliqrafik üslubda nəşr edilmiş kitab ölkəmizin Birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımızın qədim və zəngin mədəniyyətinin etibarlı və ləyaqətli hamisi kimi misilsiz və çoxşaxəli fəaliyyətindən bəhs edir.

Azərbaycan və fransız dillərində ərsəyə gəlmiş kitab yerli və fransızdilli xarici oxucuları dərin intellekt və yüksək bacarığını xalqımızın zəngin mədəniyyətinin qorunması və təbliğinə səfərbər edən, ölkənin təhsil və səhiyyə sisteminin inkişafı, mədəniyyəti və incəsənətinin tərəqqisi, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi istiqamətində əzmkarlıqla çalışan, xeyirxahlığı, qayğıkeşliyi və insanpərvərliyi ilə hər birimizə örnək olan Mehriban xanım Əliyevanın mənsub olduğu xalqın mədəni irsinə münasibəti və ulu öndərin banisi olduğu azərbaycançılıq məfkurəsindən qaynaqlanan bu münasibəti tam dolğunluğu ilə əks etdirən fəaliyyəti, tarixi mədəniyyət abidələrinin bərpası və yeni mədəniyyət obyektlərinin inşası sahəsində gördüyü işlər, xalq musiqisini yaşadan və təbliğ etdirən möhtəşəm musiqi layihələri, xalq sənətinə yeni nəfəs verən incəsənət festivalları və sərgiləri, xarici ölkələrdə onun təşəbbüsü və şəxsi iştirakı ilə keçirilmiş mədəni tədbirlər, Azərbaycan mədəniyyətinin dünya ölkələrində tanıdılması və təbliği, eləcə də xarici ölkələrdəki tarixi və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyəti barədə dolğun məlumat verir.

Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənərək, Azərbaycan xalqının maraqlarını hər zaman dəstəkləməsi, Azərbaycanın zəngin mədəni irsinin dünya ictimaiyyəti arasında tanıdılmasında və təbliğində əvəzsiz rolu, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində gördüyü işlər təqdirəlayiqdir. Bütün bunlar Birinci vitse-prezidentin hərtərəfli fəaliyyətinin bariz göstəricisidir.

Mədəni irsin qorunması sahəsində möhtəşəm layihələri ilə təkcə ölkəmizdə deyil, həm də beynəlxalq aləmdə yüksək nüfuz qazanmış Heydər Əliyev Fondunun rəhbəri kimi Mehriban xanım Əliyevanın fəaliyyətinə işıq salan kitabı səhifələdikcə, dahi şəxsiyyətin adını şərəflə daşıyan və yüksək amallara xidmət edən fondun təkcə Azərbaycan mədəniyyətinin deyil, həm də dünya mədəniyyətinin inkişafına verdiyi misilsiz töhfələrin salnaməsi ilə tanış olmaq, ölkəmizin mədəni tərəqqisinə yönəlmiş əzəmətli işlər barədə zəngin məlumat əldə etmək olar.

Yüksək zövqlə tərtib edilən və maraqla oxunan bu kitab oxucunu həm Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində çoxşaxəli və dərin məzmunlu fəaliyyəti barədə məlumatlandırır, həm də mədəni irsimizlə bağlı bilgilər verməklə maarifləndirir. Xüsusən, gənclərin vətənə sevgi, xalqına hörmət, dövlətə sadiqlik ruhunda tərbiyə olunmasına, onlara xeyirxahlıq və qayğıkeşlik kimi yüksək əxlaqi keyfiyyətlərin aşılanmasına, milli-mənəvi dəyərlərə və mədəni irsimizə düzgün münasibətin formalaşdırılmasına yönəlmiş maarifçilik fəaliyyətində kitabın əhəmiyyəti danılmazdır.

Xalqımızın əsrarəngiz mədəniyyətinin ölkə hüdudlarından kənarda geniş təbliğ olunması, ümumilikdə isə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində əzmkarlıqla, yorulmadan çalışan Mehriban xanım və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun hər birimizdə qürur hissi doğuran şərəfli fəaliyyəti ilə bağlı bilgiləri ən geniş yayılmış dillərin birində xarici ölkə oxucularına təqdim edən yeni nəşrin böyük oxucu kütləsinin qəlbinə yol tapacağı şübhəsizdir.

Şəxsiyyətə ehtiram, mədəniyyətə qayğı, kitaba isə sevgi yaradan bu nəfis nəşrlə ünsiyyət qurmağa tələsək.

***Oktay SƏMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru***

# "Cənub qaz dəhlizi"nə böyük töhfə

*Əvvəli 1-ci səh.*

Yerli və ölkəmizdə çalışan xarici şirkətlərlə sıx əməkdaşlıq əlaqələri qurmuşuq, onların sifarişlərini keyfiyyətlə yerinə yetiririk. Bununla yanaşı, bir sıra şirkətləri köməkçi işlərə cəlb etmişik. Müəssisəmiz zəngin iş təcrübəsi toplayıb və səmərəli fəaliyyəti ilə tanınır. Bununla belə, biz yeni inkişaf imkanları və yeni tərəfdaşlar axtarışındayıq.

O, daha sonra bildirdi ki, CPC-də örtüklənən borular ağır çəkilidir və onların uzaq məsafələrə daşınması xeyli çətindir. Buna baxmayaraq, müəssisə indiyədək Qazaxıstanın və Türkmənistanın da bir sıra sifarişlərini yerinə yetirib.

CPC müasir texnologiyalardan irəli gələn yüksək tələbləri yerinə yetirməyə qadir olan şirkətdir və bunu indiyə qədər həyata keçirdiyi bütün layihələrdə öz səriştəsi və dəst-xətti ilə sübut edib. O cümlədən, son "Şahdəniz-2" layihəsi çərçivəsində boruların korroziyaya qarşı üçqat izolyasiyası və betonla örtüklənməsi işlərini uğurla yerinə yetirib. Borular gəmilərə yüklənib və təyinatı üzrə mənzil başına göndərilib. Bu isə o deməkdir ki, CPC dünyanın ən böyük enerji layihələrindən olan "Cənub qaz dəhlizi"nin gerçəkləşməsinə layiqli töhfə verib.

Fəaliyyət göstərdiyi 16 il ərzində müəssisəyə verilən dəyər də burada görülən əhəmiyyətli işlərin nəticəsidir. Belə ki, CPC dəfələrlə İntertek Moody İnternational şirkətinin həyata keçirdiyi auditlərin nəticələrinə əsasən, İSO 9001:2008 (keyfiyyətin idarə olunması), İSO 14001:2004 (ekoloji idarəetmə) və OHSAS 18001: 2007 (sağlamlıq və əməyin təhlükəsizliyinin idarə olunması) sistemlərinin tələblərinə cavab verdiyi üçün müvafiq sertifikatlarla təltif edilib.



***Flora SADIQLI,***
***"Azərbaycan"***



Dünyada görünməmiş mübarizə gedir. Bu mübarizə eyni vaxtda siyasi, hərbi, iqtisadi sahələri əhatə edir. Məqsəd müxtəlif yollarla daha çox maddi resurslara sahib olmaqdır. Sözsüz ki, bu mübarizənin əsas oyunçuları nəhəng dövlətlərdir. Lakin bu gərgin dövrdə böyük-kiçikliyinə baxmayaraq, bütün ölkələr yaranmış vəziyyətdən öz məqsədləri üçün faydalanmaq istəyir.

# Toxum məhsuldarlığın əsas şərtlərindəndir

## Mövcud milli toxum növlərinin qorunması və yeni məhsuldar növlərin yaradılması vacib məsələdir

Dövlətlər arasında gedən bu mübarizəyə onları təmsil edən şirkətlər də qoşulub. Onların da məqsədi bu və ya digər sahədə monopoliyanı ələ keçirərək daha çox varlanmaqdır. Yəni, hər şey onların iradəsindən asılı olsun ki, öz şərtlərini diktə edə bilsinlər.

Belə hal xüsusən iqtisadi sahələrə, o cümlədən kənd təsərrüfatında toxumçuluğa daha çox xasdır. Məlumdur ki, hazırda dünyanın bir çox inkişaf etmiş ölkələri öz elmi potensialından istifadə edərək toxumçuluqda inqilabi dəyişikliklər edirlər. Bu, bir tərəfdən yaxşıdır. Yəni, aparılan elmi araşdırmalar nəticəsində daha məhsuldar sortlar yetişdirilir ki, bu da dünya əhalisinin sürətlə artdığı indiki dövrdə ərzaqla təminatın yaxşılaşması deməkdir. Yaxşı olmayan isə bu məhsuldar sortların toxumlarının bir dəfə istifadə edilməsidir. Həmin toxumlardan istifadə edən fermerlər şikayətlənirlər ki, istehsal etdikləri məhsullardan özlərinə növbəti il üçün toxum götürə bilmirlər. Bu isə toxum yetişdirən monopolistlərin şərtlərini diktə etməsi anlamına gəlir. Fermerlərin bir müddət belə məhsuldar toxumlardan istifadə etməsi ilə həm də ənənəvi toxumlar yoxa çıxır.

Dünyada toxum şirkətlərinin apardıqları elmi-tədqiqat işlərinin nəticəsi barədə fikir ayrılığı yaradan məsələlərdən biri də geni dəyişdirilən toxumların yetişdirilməsi, yəni, belə məhsulların ziyanlı olub-olmamasıdır. Alimlər fikir etibarı ilə iki yerə bölünürlər - bəziləri bu toxumları təqdir edir, bəşəriyyəti aclıqdan xilas yolu kimi görürlər. Digərləri bunu bəşəriyyətin sonu adlandırırlar.

Qeyd edək ki, belə toxumlar yetişdirənlər inhisarçı şirkətlərdir. Bunu təqdir edən alim və siyasətçilərin də həmin şirkətlər tərəfindən ələ alınması barədə fikirlər geniş yayılıb. Maraqlısı odur ki, bu toxumlardan yetişdirilən məhsulları təbliğ edən alimlərin, siyasətçilərin çoxu ondan istifadə etmir. Belə hal geni dəyişdirilən məhsullar barədə şübhəli fikirlərin daha çox yayılmasına səbəb olur.

Dünyada isə bitkilərin genetik ehtiyatlarının qorunmasına xüsusi əhəmiyyət verilir. BMT tərəfindən bu məqsədlə hazırlanan bütün sənədlər dünyanın əksər dövlətləri tərəfindən qəbul edilir. Buna Bioloji Müxtəlifliyə dair Konvensiyanı, Bitkilərin Genetik Ehtiyatları üzrə Qlobal Fəaliyyət Planını, Bitkilərin genetik ehtiyatlarının yığılması və ötürülməsi üzrə Beynəlxalq Kodeksi, Bioloji Təhlükəsizliyə dair Kartaxena Protokolunu, Bitkilərin Yeni Sortlarının Mühafizəsi üzrə Beynəlxalq Konvensiyanı göstərmək olar. Bu konvensiyaların bir çoxuna Azərbaycan da qoşulub.

Ümumiyyətlə, Azərbaycanda bitkilərin genetik ehtiyatlarının qorunmasına müəyyən zaman istisna olmaqla, həmişə həssaslıqla yanaşılıb. Hələ sovetlər birliyi dönəmində ölkəmizin milli bitki ehtiyatları fondu N.Vavilov adına Ümumrusiya Bitkiçilik İnstitutunda saxlanılırdı. SSRİ dağıldıqdan sonra təəssüf ki, bu institutla əlaqələr kəsilmiş, Milli Elmlər Akademiyası və Kənd Təsərrüfatı Nazirliyi institutlarında nümunələri əlverişsiz şəraitdə saxlandığına görə bir çox növləri itib-batmış və ya yararsız hala düşmüşdür.

Müstəqillik bərpa olunduqdan sonra yenidən bu sahəyə diqqət artırılıb. Hazırda Azərbaycanda 13 müxtəlif təşkilatın nəzdində saxlanılan 34 kolleksiyada taxıl, paxla, meyvə və giləmeyvə, üzüm, tərəvəz-bostan, yem, dərman və qeyri-ənənəvi bitkilərin çox böyük elmi və praktiki dəyərə malik qiymətli xalq seleksiyası sortlarının, nadir, endemik, relik formalarının 13 minə yaxın nümunəsi toplanıb. Bu genetik zənginlik Milli Genbankda xüsusi şəraitdə qorunur.

Azərbaycanda yerli məhsuldar toxum sortlarının yetişdirilməsi istiqamətində də müxtəlif elmi-tədqiqat işləri aparılır. Xüsusilə, özəl toxumçuluq təsərrüfatlarının yaradılmasına daha çox vəsait ayrılır. Prezident İlham Əliyev toxumçuluğun əhəmiyyətini xüsusi qeyd edərək demişdir: "Biz bu sahədə böyük təcrübə toplamış ölkələrin təcrübəsini gətirməliyik, ondan istifadə etməliyik ki, hansı sahədə, hansı bölgədə hansı məhsul yetişdirilməlidir. Yəni, bundan sonra da biz buna kortəbii yox, ancaq fərdi qaydada yanaşmalıyıq və subsidiya məsələləri də buna görə hesablanmalıdır. Mən artıq müvafiq göstərişlər vermişəm, biz buna baxmalıyıq. İndi subsidiyaların verilmə prosedurları təkmilləşdirilir. Ancaq hesab edirəm ki, biz gələcəkdə rayonlaşma siyasətinə daha da ciddi baxmalıyıq. Biz bilməliyik, hansı bölgələrdə hansı məhsulun yetişdirilməsinə nə qədər subsidiya verilməlidir ki, təbii imkanlarımızdan daha da səmərə ilə istifadə edək".

Ölkəmizdə bu məsələnin ciddiliyi nəzərə alınaraq kənd təsərrüfatında institusional potensialın gücləndirilməsi, struktur dəyişikliyinin aparılmasına xüsusi diqqət yetirilir. Belə ki, 52 rayon və şəhər idarəsi üçün inzibati laboratoriya binalarının tikintisi artıq başa çatmaq üzrədir. Burada inzibati heyətlə yanaşı, əsasən aqrokimya və toxum laboratoriyalarının, diaqnostik kabinetlərin, toxum müfəttişlərinin, texniki nəzarətçilərin və digər struktur vahidlərinin vahid məkanda yerləşdirilməsi, eləcə də zəruri informasiya texnologiya və infrastrukturunun yaradılması aqrar sektorun qarşısında qoyulan vəzifələrin icrasına geniş imkan verəcək.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Ərzaq təhlükəsizliyi ilə bağlı qlobal çağırışlar Azərbaycanda uğurla reallaşır

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar son günlər respublikamızda və onun hüdudlarından kənarda müxtəlif tədbirlər, konfranslar, simpoziumlar keçirilməkdədir. Belə tədbirlərdən biri də Bakıda təşkil olunan "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans idi.





## Ərzaq təhlükəsizliyi dövlət siyasətinin prioritet istiqamətlərindəndir

Təhsil Nazirliyi, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan İqtisadçılar İttifaqı və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi tərəfindən keçirilən bu beynəlxalq konfransın Bakıda təşkili təsadüfi deyildi. Çünki Azərbaycan o ölkələrdəndir ki, öz ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində böyük işlər görür və bu məsələ dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Müvafiq qurumların nümayəndələrinin, Milli Məclis deputatlarının, Azərbaycan, Türkiyə, Rusiya, Kanada, Almaniya, İsveçrə, Polşa, İtaliya olmaqla, 23 ölkədən 40-a yaxın alim və mütəxəssislərin iştirak etdikləri beynəlxalq konfransda AKU-nun rektoru, Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, professor Eldar Quliyev Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki müstəsna rolundan danışıb. Rektor Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamının əhəmiyyətini diqqətə çatdırıb.

Eldar Quliyev bildirib ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar kontekstində kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə bağlı atılan uğurlu addımlar bəhrəsini verir. Beynəlxalq iqtisadi münasibətlərə, hüquqi normalara cavab verən, xalqın milli maraqlarına əsaslanan çoxşaxəli islahatlar ölkəmizin iqtisadi qüdrətini, siyasi nüfuzunu daha da artırıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Azərbaycanın iqtisadi inkişaf strategiyasında ərzaq təhlükəsizliyinin yeri və rolu: reallıqlar və perspektivlər", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar Mərkəzinin müdiri, professor Əli Nuriyev "Azərbaycanın müasir aqrar siyasəti zəminində ərzaq təhlükəsizliyinin istiqamətləri", Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, professor Eldar İbrahimov "Müstəqil Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqaməti kimi" mövzularında məruzə ilə çıxış ediblər.

Ümumiyyətlə, son illər bəşəriyyəti narahat edən əsas problemlərdən biri ərzaq təhlükəsizliyidir. Hansı ki, bu problem enerji təhlükəsizliyindən də az əhəmiyyət kəsb etmir. Hazırda Yer kürəsində 800 milyon nəfərdən artıq insanın aclıq çəkdiyini və ya normal qidalana bilmədiyini nəzərə alsaq, ərzaq çatışmazlığı probleminin qlobal məsələ olduğunu görərik. Hər il müxtəlif ölkələrdə vaxtaşırı keçirilən tədbirlər, BMT-nin bu məsələyə xüsusi diqqətlə yanaşması müharibələrlə yanaşı, ərzaq təhlükəsizliyinin də dünyanın ən aktual problemlərindən olduğunu göstərir.

Xüsusən, 2008-ci ildə dünyada baş qaldıran iqtisadi böhrandan sonra ərzaq təhlükəsizliyinin qlobal problem kimi aktuallaşması bu istiqamətdə həm də elmi araşdırmaları, yəni, problemin həllinə elmi yanaşmanı zəruri edib. Bu baxımdan iqtisad elmləri doktoru, Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyevin araşdırmaları, ərzaq təhlükəsizliyinə dair elmi baxışları, fikir və mülahizələri diqqəti cəlb edir. Alimin "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" adlı kitabı da məhz qlobal miqyasda ərzaq təhlükəsizliyi məsələlərinə həsr olunub. Kitabda ərzaq çatışmazlığının səbəbləri və problemlərdən çıxış yolları elmi əsaslarla göstərilib. Kitab müəllifin bir neçə illik, o cümlədən ABŞ, Meksika, Kuba, Koreya Respublikası, Yaponiya, Almaniya, Qətər və digər ölkələrə səfərləri zamanı apardığı araşdırmaların nəticəsi olaraq ərsəyə gəlib.

## "İlin kitabı"

Azərbaycan alimlərinin qlobal problemlər ətrafında apardıqları araşdırmaları, fikir və mülahizələri dünyanın aparıcı elm ocaqları tərəfindən maraqla izlənilməkdədir. Professor Eldar Quliyevin "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabının ötən ilin aprel ayında Avropa Təbiət Elmləri Akademiyasının qərarı ilə Almaniyada nəfis tərtibatla nəşr edilməsi də Azərbaycan alimlərinin beynəlxalq səviyyədə uğurlarının ən gözəl nümunəsidir. Kitabda qoyulan məsələlər isə çox çəkmədən BMT-nin diqqətini cəlb edib. Ona görə dünyanın ən böyük kitabxanalarından sayılan BMT-nin Cenevrədəki kitabxanasının ekspertlər şurası tərəfindən kitabın bu kitabxanaya qəbulu barədə qərar çıxarılıb. Qeyd edək ki, Azərbaycanın 27 illik müstəqillik tarixində ilk dəfə məhz ilk azərbaycanlı olaraq professor Eldar Quliyevin bu kitabı BMT-nin kitabxanasına qəbul edilib. Bundan sonra BMT Nyu Yorkdakı kitabxanası da bu kitab üçün müraciət edib.

Ötən ilin noyabrında isə İtaliyada kitabın təqdimatı keçirilib. Tədbirdə ABŞ, Rusiya, Almaniya, Türkiyə, İtaliya, İsveçrə və Vatikandan olan nümayəndələr, ayrı-ayrı elm və təhsil ocaqlarının, akademik dairələrin, Romada yerləşən beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) nümayəndələri iştirak ediblər. Təqdimatda iştirak edən Avropa Təbiət Elmləri Akademiyasının prezidenti akademik V.Q.Timinski, BMT-nin İctimai Mükafatlar üzrə Şurasının İsveçrədəki nümayəndəsi Mehmet Şükrü Gözəl, Vatikan Bonifasiana Akademiyasının prezidenti Sante de Ancelis, tanınmış alim Məsud Əfəndiyev, Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Romadakı filialının rəhbəri Sandro Teti çıxış edərək professor Eldar Quliyevin elmi fəaliyyəti və təqdim olunan kitabın əhəmiyyəti haqqında danışıblar. Kitabda ərzaq təhlükəsizliyi ilə bağlı ən vacib məqamlara toxunulduğu və bu sahədə mövcud problemlərə yeni yanaşma tətbiq etmək baxımından nəşrin əhəmiyyətli olduğu vurğulanıb.

Tədbir zamanı BMT-nin İctimai Mükafatlar üzrə Şurasının nümayəndəsi Mehmet Şükrü Gözəl "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabının BMT-nin İctimai Mükafatlar üzrə Şurası tərəfindən "İlin kitabı" adına layiq görüldüyünü elan edib. O, Eldar Quliyevə "İlin kitabı" beynəlxalq mükafatını təqdim edib.

Vatikan Bonifasiana Akademiyasının prezidenti Sante de Ancelis Eldar Quliyevin bu akademiyanın həqiqi üzvü (akademik) diplomu ilə təltif olunduğunu bildirərək ona müvafiq diplomu təqdim edib.

## BMT-nin "Xoşməramlı elm və sülh səfir"i

Bakıda bu günlərdə keçirilən konfransda isə "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabının beynəlxalq səviyyədə maraqla qarşılandığı, azərbaycnlı alimin araşdırmalarının ərzaq təhlkəsizliyi probleminin aradan qaldırılmasına böyük elmi töhfə olduğu vurğulanıb. Bütün bunlar nəzərə alınaraq Eldar Quliyevə "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" kitabına və beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətinə görə İsveçrənin Cenevrə şəhərində fəaliyyət göstərən BMT-nin İctimai Mükafatlar üzrə Şurasının Beynəlxalq Mükafatlar Komitəsinin "Xoşməramlı elm və sülh səfir"i fəxri adı, eyni zamanda, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk dünyasında ilin alimi" beynəlxalq mükafatı təqdim olunub.

Mövzu ilə bağlı Eldar Quliyevlə söhbətləşdik. Onun sözlərinə görə, dünyada 200-dən artıq dövlətin heç də hamısı qida məhsulları istehsal etmir: "Az sayda ölkə var ki, tam olaraq daxili istehsal hesabına vətəndaşlarını yeyinti məhsulları ilə təmin edir. Bəziləri bir qisim ərzaq məhsullarını idxal edir. Qətər dövləti isə bütünlüklə ərzaq məhsullarını xaricdən idxal edir. Hər bir dövlətin isə təxminən 3 aylıq ərzaq ehtiyatı olur. 2008-ci ildə 40 dövlət bir müddət ərzaq ixracını dayandırmışdı. Bunun nəticəsində o dövrdə ərzaq məhsullarının qiymətləri yüksəldi. Bu faktın özü hələ o zaman ərzaq təhlükəsizliyini qlobal problemlərdən biri kimi ortaya çıxardı".

Kənd təsərrüfatı məhsulları qida sənayesi üçün əsas xammal mənbəyidir. Bu barədə danışan Eldar Quliyev dedi ki, bəzən insandan asılı olmayan obyektiv səbəblərdən - qlobal istiləşmədən, subasmalardan və ya suvarma suyunun azalması, ekoloji çirklənmədən kənd təsərrüfatı istehsalında geriləmə yarana bilər ki, bu da ərzaq çatışmazlığına yol açar. Bütün bu problemlər bəzi ölkələrdə daha kəskin olmaqla bütün dünyada özünü göstərməkdədir. Ona görə kitabda təklif olunur ki, istifadə edilən şirin su təkrar emal olunaraq yenidən istehsalata qaytarıla bilər ki, bu da xüsusən kənd təsərrüfatında su çatışmazlığını əhəmiyyətli dərəcədə aradan qaldırar. Həmçinin qlobal istiləşmə ilə əlaqədar daha istiyə dözümlü məhsullar yetişdirilə bilər. Subasma ilə əlaqədar su sevən bitkilərin yetişdirilməsinə üstünlük verilə bilər.

Bu gün dünyada torpaqların cəmi 25 faizi kənd təsərrüfatı məqsədilə istifadə olunur. Bu ondan xəbər verir ki, yaxın gələcəkdə dünyada ciddi ərzaq çatışmazlığı yarana bilər. Hazırda əkin sahələri cəmi 5 faiz artsa, ərzaq istehsalı da əhəmiyyətli dərəcədə çoxalar. G-8, G-20 formatlarında müxtəlif qlobal məsələləri müzakirə edən dövlətlər bu probleme də xüsusi diqqət yetirməlidir. Bu məsələ kitabda da problem olaraq ortaya qoyulub və təkliflər irəli sürülüb.

Kitabda haqlı olaraq bildirilir ki, hazırda mövcud şərait, dünyada cərəyan edən proseslər daxili ərzaq bazarının gücləndirilməsi və ərzaq ehtiyatlarının yaradılması məsələlərinə daha diqqətli və kompleks yanaşma tələb edir. Bu barədə danışan Eldar Quliyevin sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə gördüyü işlər xüsusilə təqdirəlayiqdir. Hətta ölkəmizdə bu sahədə görülən işlər region və inkişaf etməkdə olan ölkələr üçün əsl nümunədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Hasilatın sabit olması mənfəətin davamlılığını təmin edir

## *İlin ilk 4 ayında AÇG-dən 2 milyard 823 milyon dollar gəlir əldə olunub*

ARDNF-dən (Azərbaycan Respublikası Dövlət Neft Fondu) aldığımız məlumata görə, bu ilin ilk 4 ayında Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından 2823 milyon ABŞ dolları həcmində gəlir əldə edilib.



Hazırda AÇG yataqlar blokunda 8 platforma fəaliyyət göstərir. Onlardan 6-sı hasilat, 2-si texnoloji platformadır. AÇG-dən əldə olunan gəlirlər bu qurğuların hamısının etibarlı şəkildə işləməsinin bariz nümunəsidir. Bunu AÇG layihəsinin əməliyyatçısı olan BP şirkətinin verdiyi son məlumatlar da təsdiqləyir. Belə ki, 2018-ci ilin birinci rübündə AÇG-dən hasilat sabit və təhlükəsiz şəkildə davam edib. Ümumi hasilat gündə orta hesabla 597 min barel olub. Rüb ərzində ümumilikdə təqribən 54 milyon barel, yəni 7 milyon ton neft alınıb. Gündəlik hasilat "Çıraq"dan 53 min, "Mərkəzi Azəri"dən 156 min, "Qərbi Azəri"dən 123 min, "Şərqi Azəri"dən 94 min, "Dərinsulu Günəşli"dən 109 min və "Qərbi Çıraq"dan 62 min barel təşkil edib.

Keçən ilin sonunda AÇG-də ümumilikdə 118 neft hasilat quyusu, 52 qaz və su injektor quyusu istismarda olub. Bununla yanaşı, blokda qazma işləri davam edir. Belə ki, birinci rüb ərzində 5 neft hasilat quyusu qazılıb.

AÇG-dən səmt qazının Azərbaycan dövlətinə təmənnasız verilməsi də davam edir. Yanvar-mart aylarında SOCAR-a əsasən Səngəçal terminalı, eləcə də "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,8 milyon kubmetr, ümumilikdə isə 525 milyon kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Xatırladaq ki, hazırda layihədə iştirak payları belədir: BP (30,37 faiz), SOCAR (25 faiz), "Şevron" (9,57 faiz), "İnpeks" (9,31 faiz), "Statoyl" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), "İtoçu" (3,65 faiz), ONGC Videş Limited (2,31 faiz). Birinci rübdə AÇG-nin əməliyyat xərcləri təqribən 102 milyon dollar, əsaslı məsrəfləri isə 260 milyon dollar təşkil edib.

İstər hasilatın davamlı olması, istərsə də yeni quyuların qazılması göstərir ki, AÇG-nin potensialı böyükdür. Məhz ehtiyatları bol olduğuna görə keçən il sentyabrın 14-də AÇG yataqlarının beynəlxalq tərəfdaş şirkətlərlə birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalandı. Oktyabrın 31-də saziş Milli Məclis tərəfindən ratifikasiya olundu. Bu, 2049-cu ilin sonunadək davam edəcək müqavilədir.

Saziş AÇG-nin uzunmüddətli işlənmə potensialını həyata keçirmək və yeni sərmayələr, texnologiyalar və birgə səylərlə blokun neftvermə əmsalını ən yüksək həddə çatdırmaq imkanı verir. Bu sazişin həyata keçirilməsi AÇG-nin Azərbaycana gətirdiyi iqtisadi mənfəətləri də maksimuma çatdıracaq. Müqavilənin şərtləri ölkənin 1994-cü ildən bəri artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına inamını göstərir və artıq reallıq olan tərəfdaşlığı yeni müstəviyə qaldırır.

Sazişin bir hissəsi olaraq AÇG-də SOCAR-ın iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Beynəlxalq tərəfdaşlar Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. 2050-ci ilədək AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur.

Bu il yanvarın 29-da ARDNF-yə AÇG üzrə imzalanmış yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

Qeyd edək ki, AÇG yataqlarının işlənməsinə 1994-cü ildən, yəni "Əsrin müqaviləsi" imzalanandan "Yeni əsrin müqaviləsi"nə 33 milyard dollardan çox sərmayə qoyulub. 1997-ci ilin noyabr ayından, yəni "Əsrin müqaviləsi"nin ilkini - "Çıraq" fəaliyyətə başlayandan bəri blokdan 3,3 milyard bareldən çox neft hasil olunub.

2001-ci ildən bu il mayın 1-dək AÇG layihəsindən 131 milyard 309 milyon dollardan çox ümumi gəlir əldə edilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vəkillik fəaliyyəti daha da təkmilləşdirilir

Azərbaycanda vəkilliyin inkişafı ölkəmizin müstəqillik əldə etdikdən sonrakı dövrünə təsadüf edir. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada insan hüquq və azadlıqlarına dair müddəalara geniş yer verilmişdi. O cümlədən, Konstitusiyanın 61-ci maddəsində hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz - dövlət hesabına göstərilməsi, habelə hər bir şəxsin cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir.

Bununla, ən ali hüquqi qüvvəyə malik olan Konstitusiya ədalət mühakiməsində müdafiə tərəfinin rolu qabarıq şəkildə əks etdirilmişdir. Qısa, lakin geniş məzmunlu bu müddəalar vəkillik fəaliyyətinin sonrakı inkişafına təkan vermiş, məhz bundan sonra qəbul edilmiş bir çox prosessual və digər qanunvericilik aktlarında vəkilin hüquq və vəzifələrinə geniş yer ayrılmışdır.

Vəkilliyin institusional formada təşəkkül tapmasında 28 dekabr 1999-cu il tarixli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun xüsusilə əlamətdardır. Qanunda vəkillər tərəfindən yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi ilə əlaqədar bir çox müddəaların öz əksini tapması Azərbaycan vəkilliyinin sonrakı təkamülünə müsbət təsir göstərmişdir. Sevindirici haldır ki, həmin qanun digər ölkələrin vəkillik qurumları tərəfindən böyük maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir. Azərbaycanda vəkilliyin tarixində növbəti əlamətdar məqam Prezident İlham Əliyev tərəfindən 11 mart 2005-ci ildə imzalanan "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə" sərəncamdır. Bu ənənəyə sadiq qalınaraq, habelə dövlətimiz tərəfindən insan hüquqlarının müdafiəsinin səmərəli təşkili məsələsinə əhəmiyyət verilərək, 22 fevral 2018-ci il tarixdə ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalanmışdır. Vəkilin cəmiyyətdə, ədalət mühakiməsində malik olduğu rola dövlət tərəfindən ən yüksək səviyyədə qiymət verilmişdir. Vəkillik öz funskional mahiyyəti baxımından publik fəaliyyətdir ki, onun icrası həm qanun, həm də Konstitusion səviyyədə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına etibar olunmuşdur.

Bu sərəncamda vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli müdafiəsi üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyətə malik olması xüsusilə vurğulanmışdır. Vəkilliyin başlıca bütün sahələrinə toxunulmuş, vəkillik qurumlarının maddi və texniki bazasının gücləndirilməsi ilə bərabər vəkillərin tədrisi, onların intizamı və vəkillik fəaliyyəti ilə əlaqədar olaraq bir çox digər aktual məsələlər əhatə olunmuşdur. Sərəncamda Vəkillər Kollegiyasının Rəyasət Heyətinin və kollegiyanın digər strukturlarının, vəkil qurumlarının fəaliyyətinin təmin edilməsi məqsədi ilə onun Bakı şəhərində və regionlarda müvafiq bina ilə təmin edilməsi, dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılması və maddi-texniki təminatı ilə bağlı məsələlərin həll edilməsi öz əksini tapmışdır.

Bundan başqa, sərəncamda ixtisas imtahanlarının müntəzəm olaraq keçirilməsi, xüsusilə gənc hüquqşünasların vəkilliyə qəbul edilməsi üçün şəraitin yaradılması, göstərilən hüquqi xidmətlərin keyfiyyətinin daim yüksəldilməsi məqsədi ilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlərin görülməsi, vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfedensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrinin təmin olunması, regionlarda vəkillik fəaliyyətinin stimullaşdırılması üçün tədbirlər hazırlayıb həyata keçirilməsi, pulsuz hüquqi yardımın göstərilməsinin təşkil edilməsi, ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi və "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiya istiqamətində təbdirlərin görülməsi Vəkillər Kollegiyasına tövsiyə edilmişdir.

Sərəncamdan sonrakı qısa dövr ərzində Vəkillər Kollegiyasında genişmiqyaslı islahatlar həyata keçirilmiş, vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı tədbirlər görülmüşdür. Xüsusilə, gənc hüquqşünasların vəkilliyə qəbul edilməsi üçün şərait yaradılmaqla ixtisas imtahanlarının müntəzəm olaraq keçirilməsinə nail olunmuşdur. Nəticədə, Azərbaycan tarixində ilk dəfə olaraq vəkillərin sayı 1000 nəfəri keçərək hal-hazırda 1146 nəfər olmaqla, 25 faizədək artmışdır. Yaxın aylarda vəkillərin sayının 1 500 nəfəri üstələcəyi və bununla da vəkillərin sayının əvvəlki dövrlə müqayisədə 70 faizədək artımına nail olunacaqdır. Vəkilliyə namizədlərlə keçirilən yazılı testdən və şifahi müsahibədən ibarət olan ixtisas imtahanları, tədris elm müəssisəsində təşkil olunan icbari təlimlər yalnız vəkillərin say baxımından artımına deyil, eyni zamanda savadlı, bilikli və peşəkar vəkillərin artımına səbəb olmuşdur. Yalnız kəmiyyətə deyil, keyfiyyətə də üstünlük verilmişdir. Sevindirici haldır ki, yeni üzvlüyə qəbul edilmiş vəkillərin əksəriyyətini gənc hüquqşünaslar təşkil edir. Buna misal olaraq göstərmək olar ki, hal-hazırda ilk mərhələni, yəni, yazılı test imtahanını uğurla keçmiş namizədlərin 80 faizi 40 yaşınadək olan namizədlərdir. Vəkillər Kollegiyası tərəfindən aparılan davamlı islahatlar yaxın illərdə bu sayın dəfələrlə artıq olacağına əminlik yaradır. İctimaiyyətlə əlaqələr yüksək səviyyədə qurulmuş, Vəkillər Kollegiyasının saytı yaradılaraq hər bir fəaliyyəti, o cümlədən vəkillərin iştirakı ilə keçirilmiş yerli və beynəlxalq tədbirlər, ixtisas imtahanları, onun nəticələri, kollegiyanın orqanlarının qərarları barədə məlumatlandırılma həyata keçirilmişdir. Həmçinin saytda vəkillərin elektron reyestrinin yaradılması hər bir vətəndaş və şəxs üçün istənilən vəkilə çatımlılığını təmin etmişdir. Vəkillər Kollegiyası tərəfindən "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiya istiqamətində bir çox tədbirlər həyata keçirilir ki, yaxın gələcəkdə biz bunun müsbət nəticəsinin şahidi olacağıq.

Qeyd olunan müddəaların sərəncamda yer alması hər mənada təqdirəlayiqdir. Burada əksini tapmış bütün müddəalar vəkilliyin daha da inkişaf etməsinə əhəmiyyətli təsir göstərəcəkdir. Sərəncamın 2.3-cü bəndinə əsasən, vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfedensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrinin təmin olunması tövsiyə edilmişdir. Hər bir peşənin inkişafı onun intizamı ilə birbaşa bağlıdır. Buna görə də fəaliyyətdə intizama riayət edilməsi onun tərəqqisinin ilkin şərtidir. İntizamsız həkimin keyfiyyətli tibbi yardım göstərə bilmədiyi, intizamsız müəllimin keyfiyyətli bilik verə bilmədiyi kimi, intizamsız vəkil də keyfiyyətli hüquqi yardım göstərə bilməz. Həmçinin vəkillik fəaliyyətində də vəkillər tərəfindən müəyyən edilmiş davranış qaydalarına, peşə standartlarına riayət olunması xüsusilə böyük əhəmiyyət kəsb edir. Ölkəmizin hüquqi aktları arasında vəkillərin öz fəaliyyətində yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfedensiallığı, şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrinə dair kifayət qədər normativ baza mövcuddur. Lakin sərəncamda bunun xüsusi olaraq vurğulanması vəkillərdən öz peşə fəaliyyətinə daha da məsuliyyətli yanaşmağı, "Vəkil və vəkillik fəaliyyəti haqqında" qanunun və vəkillərin davranış qaydaları haqqında əsasnamənin tələblərini dönmədən yerinə yetirilməsini tələb edir. Hər bir vəkil nəinki öz peşə borcunu yerinə yetirərkən, həmçinin şəxsi həyatında da tələb olunan davranış qaydalarına riayət etməlidir. Vəkil onun şərəfini, nüfuzunu ləkələyə biləcək hərəkətə yol verməməli, sağlam mühakimə yürütməyə yiyələnməklə səhvlə düzü bir-birindən ayırmağı bacaran mənəvi keyfiyyətlərə malik olmalıdır. Vəkil ünsiyyətdə olduğu insanlarla yaşından, cinsindən, tutduğu mövqeyindən asılı olmayaraq, mədəni davranmalı və öz nəzakətli münasibəti ilə seçilməlidir. Nəzakətli və səbirli olmaq vəkilin öz peşə fəaliyyətində ən böyük silahıdır. Mövcud qaydalar bütün vəkillərdə müsbət mənəvi xüsusiyyətlərin mövcud olmasını tələb edir.

Qanunvericiliyin tələblərinə əsasən, vəkillər qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq və konfedensiallıq prinsipləri əsasında fəaliyyət göstərir. Konstitusiyaya, qanuna, prosessual qanunvericiliyə və digər qanunlara əməl edilməsi vəkilliyin əsaslarını təşkil edir. Qanunların tələblərinin icra edilməsi, vəkil sirrinin qorunması, vəkil andına və etikasına riayət edilməsi, yalnız qanunun tələblərinin rəhbər tutulması, vəkil sirrindən özünün şəxsi və ya başqasının mənafeyi üçün istifadə etməməsi onun vəzifələrinə daxildir. Vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər və arayışlar vəkil sirrini təşkil edir.

Vəkillər Kollegiyasının 7 dekabr 2017-ci il tarixdə keçirilmiş konfransında "Vəkillərin davranış qaydaları haqqında" əsasnamə yeni redaksiyada qəbul edilmişdir. Əvvəlki əsasnamədən fərqli olaraq yeni redaksiyada vəkil peşəsi üzrə beynəlxalq davranış standartlarının əsasnaməyə inkorporasiyası zənginləşdirilmişdir. Xüsusilə, Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Assosiasiyası tərəfindən qəbul edilmiş Avropa Vəkillərinin Davranış Kodeksinin norma və prinsipləri əsas götürülmüşdür. Əsasnamədə vəkillərin müstəqilliyinə, vicdanlı davranışa, peşəkarlıq və fərdi məsuliyyətinin artırılmasına, ictimai etimada, konfedensiallıq prinsipinə riayət edilməsinə, hüquq, azadlıq və qanuni maraqlara, şərəf, ləyaqət və işgüzar nüfuza hörmət, mədəni davranış, qərəzsizlik, maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, ictimai və siyasi fəaliyyətə dair, vəkilin öz fəaliyyətinin təbliğinə və ictimaililik kimi davranış qaydalarının əks olunmasına xüsusi yer verilmişdir. Həmçinin vəkilin ona müraciət etmiş şəxslə, məhkəmə və digər orqanlarla münasibətlərinə, peşə hazırlığına və məsuliyyəti məsələlərinə də geniş yer ayrılmışdır.

Hər bir sahədə olduğu kimi, vəkillik fəaliyyətinin inkişafında cəmiyyətlə bərabər dövlətin də maraqlı olması vəkil peşəsinin parlaq gələcəyindən xəbər verir ki, son nəticədə bu, vətəndaşlarımızın hüquqlarının səmərəli müdafiəsində özünü büruzə verəcəkdir.

***Şahmar MƏMMƏDOV,***
***Vəkillərin İntizam Komissiyasının sədri***





**REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI**
**III DÖVLƏT PROQRAMI**









# Niyyətiniz hara, mənziliniz ora

*Lənkəranlı fermerlərin hədəfi xarici bazarlara daha çox məhsul çıxarmaqdır*



Ölkəmizin iqtisadi, siyasi, mədəni həyatında Lənkəranın həmişə xüsusi yeri, çəkisi olub. Səsi-sorağı minillərin o tayından gələn bu qədim diyar öz füsunkar təbiəti, zəhmətkeş insanları, qəhrəman övladları, ziyalıları ilə həmişə sayılıb-seçilmişdir. Elə buna görə də Lənkəran haqqında söhbət düşəndə istər-istəməz göz önündən onun şanlı tarixi, xüsusilə ötən əsrin 70-ci illəri gəlib keçir.



Həmin illər, şübhəsiz ki, ilk növbədə orta və yaşlı nəsil nümayəndələrinin yadındadır. Çünki onlar bu illərdə respublikamızda, o cümlədən Lənkəranda gedən sürətli inkişafın, tərəqqinin canlı şahidləridir. O illər respublikaya rəhbərlik etmiş Heydər Əliyev hər il Lənkərana səfər edir, rayonun sosial-iqtisadi inkişafı üçün zəruri qərarlar verirdi. Xanbulançay dəryaçası, neçə-neçə sənaye müəssisəsi, mədəni-məişət obyektləri, yaşayış binaları həmin dövrün yadigarlarıdır. Onların çoxu indi də fəaliyyət göstərir. Lənkəranda istehsal olunan bir çox məhsullar keçmiş SSRİ-nin ayrı-ayrı respublikalarına göndərilirdi. Plantasiyalardan yığılan 16 min tondan çox yaşıl çay yarpağından 4,2 min ton quru çay istehsal olunurdu ki, bu da o dövrdə daxili tələbatın 50 faizini ödəyirdi.

Bu cənub rayonu Moskvanın tərəvəz bazası kimi də şöhrət tapmışdı. O vaxtlar Azərbaycana gələn yüksək rütbəli qonaqlar, xarici ölkələrin rəhbərləri, kosmonavtlar, dünya şöhrətli ədəbiyyat-incəsənət xadimləri yurdumuzun bu dilbər guşəsinə səfər edirdilər. Onların rayonun "Şərəf kitabı"na yazdıqları xoş sözləri oxuduqca qürur hissi keçirməmək mümkün deyil.

1991-ci ildə SSRİ süquta uğradı. Keçmiş sosialist respublikalarının hər birində olduğu kimi, Azərbaycanda da tənəzzül dövrü başladı. İdarə, müəssisə, kolxoz və sovxozlar fəaliyyətlərini dayandırdı. Ulu öndər Heydər Əliyevdən sonra dövlət başçısı İlham Əliyev də qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının, onun ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi üçün ardıcıllıqla tədbirlər həyata keçirilməsi barədə müvafiq işlər görür. Bu mühüm məsələ 2004, 2009, 2014-cü illərdə təsdiqlənmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında öz əksini tapmış və aqrar sahənin inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilmişdir. Günü bu gün də torpaq mülkiyyətçilərinə subsidiyalar, güzəştli kreditlər verilir, lizinq yolu ilə yeni texnikalar, cins malqara alınır, damazlıq, toxumçuluq işləri yaxşılaşdırılır, kadr potensialı gücləndirilir.

Bir tərəfdən də neftin qiymətinin dünya bazarında ucuzlaşması digər sahələrin, o cümlədən aqrar sahənin inkişaf etdirilməsini önə çəkdi. Ölkə rəhbəri çevik iqtisadi siyasət yürüdərək respublika üçün xarakterik olan sahələrin inkişafı ilə əlaqədar önəmli tədbirlər gördü. Pambıqçılığın, fındıqçılığın, tütünçülüyün, baramaçılığın, çayçılığın, çəltikçiliyin, sitrus meyvəçiliyinin dirçəldilməsi məqsədilə regionlarda müşavirələr keçirdi, ayrı-ayrı təsərrüfatlarda olub mütəxəssislərlə söhbətlər, məsləhətləşmələr apardı, dövlət proqramları imzaladı. Keçən il sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalı məsələlərinə dair keçirilmiş müşavirədəki nitqində dövlət başçısı bir daha vurğuladı ki, Azərbaycanda kənd təsərrüfatı prioritet sahə olaraq qalır və qalacaqdır.

Lənkəranda bu region üçün ənənəvi olan çayçılıq, çəltikçilik, habelə sitrus meyvəçiliyinin inkişafı ilə əlaqədar ciddi tədbirlər həyata keçirilir. Yeni təsərrüfatlar yaranır, əkin sahələri genişləndirilir, istehsal artır. Belə təsərrüfatlardan biri "Yaşıl Çay" MMC-dir. 150 hektara yaxın torpaq sahəsi olan təsərrüfatda 2011-ci ildən başlayaraq yüksək məhsuldarlığı ilə seçilən "Kolxida" sortlarından ibarət çay plantasiyaları salınıb. Çay kollarına yalnız üzvi gübrələr verilir. Odur ki burada yüksəkkeyfiyyətli "Lənkəran çayı" brendi adı altında müxtəlif çeşidli çaylar istehsal edilir. Təsərrüfatda baramaçılığın inkişafı üçün də işlər görülür. Bu məqsədlə böyük tut bağı salınmışdır.

Dadlı-ləzzətli, ətirli Lənkəran düyüsü yüzilliklər ərzində yerli əhalinin əsas ərzağı olub. Hazırda "Sədri", "Ənbərbu", "Haşimi", "Həsənli", "Akülə" və başqa növ çəltik sahələrinin əkilib-becərilməsi ildən-ilə genişlənir. Girdəni, Veravul, Ürgə, Siyavar, Hirkan, Xolmili, Şıxəkəran, Mamusta, Separadi yaşayış məntəqələrinin sakinləri bu sahəyə daha çox diqqət yetirirlər. Onların yetişdirdikləri ekoloji cəhətdən təmiz olan düyüyə tələbat getdikcə artır. Yeri gəlmişkən qeyd edək ki, keçən il rayonda 526,5 hektarda çəltik əkilmiş, hər hektarın məhsuldarlığı 50-60 sentner olmuşdu.

"Cənub-Aqro" MMC istehsalla yanaşı, emalla da məşğul olur. Bir hektar sahədə inşa edilən çəltik zavodu regional əhəmiyyət kəsb edən layihədir. Müəssisənin aylıq emal gücü 300, düyüqurutma gücü 900 tondur.

Məlum olduğu kimi, sitrus meyvəçiliyi də Lənkəranın ənənəvi sahələrindəndir. Rayonda keçən il 1282 hektar sitrus bağından 12 min 900 ton məhsul yığılaraq 9,9 milyon manat gəlir əldə edilmişdir. Son vaxtlar intensiv bağsalma üsulları tətbiq edilməklə 680 hektar hallabonq növlü yeni sitrus bağları salınıb. Bu növ bağçılıq Azərbaycan üçün yenidir və yaxın gələcəkdə bu bağların ümumi sahəsi 1000 hektara çatdırılacaq.

Hazırda rayonun kəndlərində təsərrüfat işlərinin qızğın vaxtıdır. Çay plantasiyalarında becərmə işləri yüksək səviyyədə təşkil olunmuşdur. Payızda 30 hektarda çay plantasiyası salınması nəzərdə tutulur. İndi sahələrdə ilk yığım gedir. Artıq 150 tondan çox yaşıl çay yarpağı emal müəssisələrinə təhvil verilmişdir.

Çəltik sahələrində də qızğın iş gedir. 1000 hektarda çəltik yetişdirilməsi nəzərdə tutulmuşdur. Bunun bir hissəsi şitilbasdırma, digər hissəsi səpmə yolu ilə aparılır. İndiyədək 400 hektarda əkin işi görülmüşdür. Kampaniyanın iyunun 15-20-si arasında başa çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.

Yeni sitrus meyvə bağlarının salınması üçün sahibkarlara hər cür kömək göstərilir. Bu il Separadi kəndində 100 hektar sitrus bağı salınacaq. Bunun 35 hektarında əkin işi aparılmışdır. İşlər payızda da davam etdiriləcək. Meyvə bağlarında hazırda suvarma və digər aqrotexniki işlər görülür. Qeyd edək ki, çay, çəltik və sitrus meyvələrinin əkilməsi və becərilməsi üçün rayona lazımi texnika verilir.

Lənkəranda baramaçılığa da diqqət artmışdır. Bu il 21 kümçüyə 78 qutu baramaqurdu paylanmışdır. Ən azı 3 ton barama istehsalı gözlənilir.

Tərəvəz istehsalı sahəsində rayonun keçmiş şöhrətini özünə qaytarmaq üçün əkinlər ildən-ilə genişləndirilir. İndi təsərrüfat işlərinin başdan aşan çağıdır. Sahibkarlar, fermerlər yeni qayğılarla yaşayırlar. Onlar yerli tələbatı ödəməklə yanaşı, xarici bazarlara çıxmaq istəyirlər. Necə deyərlər, niyyətiniz hara, mənziliniz ora.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# İnvestorlar bölgələrə üz tutur












Ölkədə aparılan köklü islahatlar nəticəsində sahibkarlıq fəaliyyəti üçün sağlam mühit yaranmışdır. İqtisadiyyatın şaxələndirilməsi sahibkarlığın, o cümlədən kiçik və orta biznesin inkişafını sürətləndirmişdir. Söz yox ki, bu uğurlar əhalinin rifah halını da yüksəltmişdir.

Bununla belə, ölkə rəhbərinin dedyi kimi, qarşıda görüləsi işlər hələ çoxdur. Həmin hədəflərə çatmaq üçün digər amillərlə yanaşı, özəl sərmayələrin cəlb edilməsi də vacib məsələlərdəndir. Ölkədəki sosial və iqtisadi sabitlik imkan verir ki, istər yerli, istərsə də xarici investorlar istədikləri sahələrə vəsait qoysunlar. Bu baxımdan ən çox sərmayə cəlb edilən rayonlar sırasında Ağstafanın da adını çəkmək olar. Təkcə ötən il rayona 34,8 milyon manat özəl sərmayə qoyulmuşdur. Onun 25 milyon manatı xarici investisiyadır.

Sahibkarlığın dəstəklənməsi və inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illərdə rayonda 7000-dən çox yeni iş yeri açılmışdır. Bu, rayonda istifadəyə verilən yeni müəssisələr hesabına mümkün olmuşdur. Məhz həm də yatırılan sərmayənin nəticəsidir ki, son 7 ildə rayonda ümumi məhsul istehsalının həcmi 2,9, sənaye məhsulları istehsalı 2,2, kənd təsərrüfatı məhsulları istehsalı 2, tikinti-quraşdırma işlərinin həcmi 8,6, əsas kapitala yönəldilən investisiyalar 9,2, orta aylıq əməkhaqqı 1,4 dəfə artmışdır.

Ağstafada icra olunan sosial infrastruktur layihələri çərçivəsində "Ağstafa Aqrar Sənaye Kompleksi"nin əhəmiyyəti böyükdür. Kompleksdə layihə üzrə saatda 25 ton istehsal gücünə malik dənli və paxlalı bitkilərin toxumu istehsalı zavodunun, ümumi emal gücü 36 min ton taxıl olan çeşidləmə-qurutma və saxlama anbarının, 120 ton emal gücündə olan dəyirman kompleksinin, 48 ton istehsal gücünə malik çörək və yarımfabrikatlar zavodunun, 36 ton istehsal gücündə olan makaron zavodunun, əhaliyə müxtəlif xidmətlərin həyata keçirilməsi üçün 2400 kvadratmetrlik müasir ticarət mərkəzinin, çoxfunksiyalı sərgi mərkəzinin və 130 yerlik müasir yeraltı avtomobil dayanacağı parkının tikintisi başa çatmaq üzrədir. Gələcəkdə 8 hektar torpaq sahəsində istixana kompleksinin quraşdırılması və 10 min tonluq soyuducu anbarların tikintisi də nəzərdə tutulub. Layihə dəyəri 36 milyon manat olan və Almaniya şirkətlərinin avadanlıq və texnologiyalarından istifadə edilən kombinatda 310 nəfər iş yeri ilə təmin ediləcək.

Özündə istehsal və emal müəssisələrini birləşdirən "Karvan-L EKO" sənaye parkında bir neçə müəssisə, o cümlədən bioqanik istixana kompleksi, polietilən örtüklərin istehsalı müəssisəsi, plastik kütlələrin təkrar emalı zavodları, xüsusi dəmir konstruksiyalar istehsalı, avtomobil şinlərinin təkrar emalı zavodu, dam örtüklərinin istehsalı müəssisəsi, şüşə və şüşə konstruksiyaları istehsalı müəssisəsi, plastik qapı və pəncərələrin istehsalı müəssisəsi, eləcə də üzvi turşuların istehsalı qurğusu, günəş enerjisi ilə dolan batareyaların istehsalı sahəsi, həmçinin yerli xammaldan bəzək və mozaika daşlarının istehsalı müəssisəsi fəaliyyət göstərir. İstehsal gücü sutkada 500 kvadratmetr keramika dam örtükləri olan istehsalı müəssisəsinin tikintisi isə yekunlaşmaq üzrədir.`

Özəl sərmayə qoyulan müəssisələrdən biri də "ATİLO" MMC-dir. Bu müəssisədə sərinləşdirici içkilər, pivə və şüşə qablar istehsalı ilə yanaşı, sərinləşdirici içki məhsullarının qablaşdırılması və saxlanması sexləri fəaliyyət göstərəcək. İstehsal müəssisəsində əsasən yerli xammaldan istifadə ediləcək. Layihə çərçivəsində 120 nəfər daimi işlə təmin olunacaq. Yeni xalça fabrikinin tikintisi isə başa çatdırılmış, burada 120 qadın işlə təmin olunmuşdur.

Ağstafa Sənaye Parkına daxil olan "Akkord Tekstil" MMC-nin tikiş fabrikində istehsal edilən məhsullar Azərbaycan brendi ilə Rusiyaya, Avropa və Asiyanın 10 ölkəsinə ixrac olunur. Burada 150 nəfər işçi çalışır. 400 nəfərin çalışdığı "Saloğlu" müəssisəsinin nəzdində inşa edilmiş 7 istehsal sahəsindən ibarət "Modern" mebel fabriki də bir ildir ki, fəaliyyət göstərir. Fabrikdə ağac yonqarından hazırlanmış lövhələr və laminatların kəsilməsi, quraşdırılması, mebellər üçün metal hissələrin və mexanizmlərin yığılması, yumşaq mebellər üçün taxta-karkasların, dəri və parça üzlüklərin, döşəklərin, yataq və qonaq otaqları üçün mebel dəstlərinin istehsal sahələri fəaliyyət göstərir. Fabrik Almaniya və İtaliyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz edilmişdir. Müəssisənin nəzdində 4 istehsal sahəsindən ibarət olacaq "Venzana" mebel fabrikinin inşası üçün işlərə də başlanılmışdır. Burada istehsal ediləcək məhsulların daxili bazarla yanaşı, Almaniya, Belçika, Fransa, Hollandiya, İtaliya və İspaniyaya ixrac olunması nəzərdə tutulur. Layihəyə uyğun olaraq, fabrikdə körpələr evi-uşaq bağçasının, əyləncə və ticarət mərkəzinin inşası da planlaşdırılmışdır. Bundan başqa, ərazidə mebel mərkəzi ilə yanaşı, "Yaşıl bazar" satış kompleksi və mehmanxana inşa ediləcək.

Ümumiyyətlə, son illər Ağstafa rayonunda yerli və xarici investorların qoyduqları sərmayələr sayəsində çox sayda müəssisələr yaradılmışdır. İstər yerli, istərsə də xarici iş adamları bu rayona böyük maraq göstərirlər. Bu da, öz növbəsində, Ağstafanın sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, rayon sakinlərinin məşğulluğunun təmin edilməsinə, əhalinin rifah halının yüksəlməsinə zəmin yaradır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Su varsa, bolluq da var

## Neftçalada yeni su kanalının tikintisi başa çatır



Sahə rəisi Etibar Abdullayevlə yeni çəkilən su kanalını tikən inşaatçıların yanına gedirik. Öncədən qeyd edək ki, redaksiyamıza kanalın çəkilişində fasilələrin olması ilə bağlı Neftçala rayonunun Xol zonasında yaşayan ayrı-ayrı fermerlər, torpaq mülkiyyətçiləri tərəfindən bir neçə dəfə müraciətlər olmuşdu.





Biz də qaldırılan məsələlərlə bağlı əlaqədar təşkilatlarla əlaqə saxlayanda demişdilər ki, kanal bu ilin iyun ayında istifadəyə veriləcək. Obyektə getməyimizin də məqsədi elə bu idi: minlərlə kənd adamının sevincinə səbəb olacaq, boz düzləri cana gətirəcək su kanalının çəkilişindən yazmaq.

Kanalın kənarındakı yol yer səthindən 6-7 m, bəzən ondan da hündür olduğundan göz işlədikcə uzanıb gedən taxıl zəmiləri, pambıq sahələri ovuc içi kimi görünür. Doğrusu, bu hündürlükdəki yolla getmək o qədər də asan deyildi. Digər tərəfdən, bu qədər torpağın, dəmir-betonun bura necə daşındığını təsəvvür etməkdə çətinlik çəkirsən.

Tamamlama işlərinin aparıldığı yerə - Qazağbərəsi kəndi ərazisinə gəlib çatırıq. Bura sözün əsl mənasında tikinti meydançasını xatırladır. Çoxtonlu maşınlarla kanalın tamamlanmaqda olan bu hissəsinə torpaq daşınır, buldozerlərlə yayılır, qreyderlərlə hamarlanır, texnikalarla torpaq qatını kipləşdirir, bərkidirlər. Bax beləcə hissə-hissə, qat-qat tikilir inşası başa çatmaqda olan kanal.

E.Abdullayevin dediyinə görə, kanalın çəkilişi zamanı 56 min kubmetr betondan, 1500 ton armaturdan istifadə olunmuşdur. Obyektin torpaq yatağı salınıb kipləşdirildikdən sonra kanal yatağı ekskavatorla qazılmışdır. Növbəti mərhələdə kanalın dibində və yan divarlarında hazırlıq işləri görülmüş, hər tərəfə 10 santimetr qalınlıqda beton qoyulmuşdur. Lazımi müddət keçdikdən sonra həmin yerlərə toxunmuş armatur düzülərək yenidən yüksək markalı xüsusi sementdən hazırlanmış beton tökülmüşdür.

Kanalın dibdə eni 3, üstdə 11,7 metrdir. İstismar zamanı istifadə olunacaq 25 kilometrlik sol çiyin boyunca çınqıl döşənmişdir. Kanal üzərində 7 körpü, 10 suötürücü, 3 akvedak inşa edilmişdir. Bir sözlə, kanalın çəkilişində texnoloji proseslərə ciddi əməl olunmuşdur.

Keyfiyyətə nəzarət məqsədilə sifarişçi təşkilat olan "Azərbaycan Su Təsərrüfatı və Meliorasiya" ASC-nin nümayəndələri buraya təhkim edilmişlər. Onlar işin icrasını həyata keçirən "Muğansutikinti" ASC-nin işə məsuliyyətlə yanaşdığını, keyfiyyətə xüsusi diqqət yetirdiyini bildirirlər. Onu da öyrəndik ki, rayonun Aşağı Surra kəndində Kür çayı sahilində qurulan 6 aqreqatlı üzən nasos stansiyası və digər 2 aqreqatlı üzən stansiya kanala saniyədə 15 kubmetr su vuracaq.

Əvvəllər Xol ərazisində yerləşən kolxozların birində sədr işləmiş, indi bələdiyyə sədri olan Əlibala Səlimov deyir ki, bizim kəndlərin əhalisi və təsərrüfatları su sarıdan həmişə əziyyət çəkib: "Əkin sahələrimiz yaxşı suvarılmadığından yüksək məhsul götürə bilməmişik. Su Aqquşa çayı vasitəsilə Salyanın kəndlərini keçə-keçə bizə az həcmdə gəlib çatıb. Əkin və becərmə zamanı daha çox çətinliklərlə qarşılaşırıq. Amma bütün bunların sonuna az qalıb. Yeni kanalla gələn su min hektarlarla sahələrə can verəcək, torpaqlar su içib bol məhsul yetirəcək".

***S.CAVADOV,***
***"Azərbaycan"***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*

*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*

*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*

*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*

*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*

*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamı ilə bu il təntənə ilə qeyd edəcəyik. Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*

*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

## HACI ZEYNALABDİN

Müəssif xəbər irtihalını (təəssüf doğuran ölüm xəbərini) keçən sayımızda dərc eylədigimiz Hacı Zeynalabdin Tağıyev Azərbaycanın ən məruf simalarından idi.

Hacı cahanca məruf bir milyoner idi. Fəqət Bakı milyonerləri miyanında ən məşhur bir isim daşıyan bu adam ölürkən artıq milyoner degildi. Azərbaycanı istila edən Rusiya bolşevikləri hər kəs kibi onu da soymuş, soğana döndərmişlərdir. O, son günlərini Avropanın hər hankı möhtəşəm qonaqlarına meydan oxuyacaq dərəcədə mükəlləf və müzəyyən olan "sarayında" degil, pək ucuz bir fiatla kiraladığı müvəqqər bir odada keçirmişdir. Əvət, bolşeviklər onun bütün varını almışlardı, qazandıqlarından kəndisinə bir şey buraxmamışlardı. Fəqət onun bolşeviklər də daxil olduğu halda, kimsə tərəfindən zəbt olunmayacaq qazancları vardı. Bu qazanclarıdır ki, bizi onunla məşğul ediyor. Yoxsa onun məşhur bir milyoner oluşu bizi pək o qədər də əlaqədar etməz. Məcmuəmizin tarixi təsisindən bəri ölən azərbaycanlı milyoner fəqət Tağıyev degildir.

Hacı yalnız maddətən degil, mənən də milyoner idi. O, xeyrat və həsənatı ilə məruf bir sima idi. Azərbaycan tərəqqi və ürfan tarixində Hacının tutduğu mövqei-bulənd, bu xüsusda göstərdigi fədakarlıqlarla mütənasibdir. O, millətin tərəqqi və təalisinə pək çox yardım etmişdir, pək çox yararlıqlar göstərmişdir. Müvərrix, Azərbaycan tərəqqiyatını tədqiq edərkən, burjuazi dövrünün şəxsi amillərini ararkən Tağıyev ismi üzərində istər-istəməz duracaq və yazacağı hər hankı fəsildə bu şəxsdən bəhs etmək lüzumunu hiss edəcəkdir. O, görəcək ki, bu şəxs sadə əmələlikdən yetişərək cəmiyyətin ən yüksək zirvəsinə çıxmış, sərvətilə məşhur olduğu kibi, xeyrat və həsənatı ilə dəxi əfkarı-ammədə böyük bir hörmət və mövqe əxz etmişdir. Əvət ümmi və avami sırf olduğu halda Hacı Zeynalabdin kəndisi ilə məşğul olmaya dəgər pək mühüm maraqlı bir "tip"dir.

Azərbaycan hərəkati ictimaiyyəsi əsri məktəblərə davam etmək surətilə başlamışdır. Bu məbhəsi (yazını) tədqiq edən zat bizzərurə Hacı ismi üstündə duracaq və onun hesabına təhsili-elm edən yüzlərlə tələbəyə təsadüf edəcəkdir. Hacı yalnız müxtəlif darülfünunlarda və edadi məktəblərdə təhsil etmək istəyən tələbələrə yardıma iktifa etməyib kəndisi bizzat məktəblər təsis eyləmiş və müxtəlif məktəblərin hamisi olmaq sifətilə maarifə hizmət eyləmişdir. Türklərə məxsus təsis etdigi ziraət məktəbi ilə İslami bir tərzi memaridə yapılaraq Bakının ən gözəl binasını təşkil edən Darülmüəllimat (qız müəllimlər seminariyası) bu hizməti təyid edən birər abidədir.

Azərbaycan urəfasının hər hankı təcəddüd-perestani təşəbbüsünün ən cəsur bir hamisi rolunu ifa edən Hacı salufizzikr (söhbət gedən) Darülmüəllimatı təsis etməklə hürriyyəti-nisvan məsələsinin təməl daşını qoymuş, mütəəssiblərin küfr və şətənlərinə (söyüşlərinə) baxmayaraq, müsəlman qızlarının tərbiyəsinə mühüm bir vəsilə olmuşdur. İlk səneyi təsisində mütəəssib xalqın küfrünə məruz qalaraq tələbə bulmayan bu Darülmüəllimat 10 sənə sonra kəndisinə hücum edən tələbatı qəbul edəmiyəcək dərəcədə hüsni-qəbula məzhər olmuş və Hacı ölmədən ərkək çocuqlarla bərabər qız çocuqlarının da məkatibi-ibtidaiyə, təaliyə və aliyeyi doldurduqlarını görmüşdür.

Azərbaycan ədəbiyyatı, mətbuat və teatrosu dəxi bu mütəşəbbüs adamın pək böyük yardımlarını görmüşdür. Bir çox müəlliflərin əsərlərini nəşr etdirdigi kibi, bu zati-möhtərəm mütəəddid (saysız) qəzetə və məcmuələrin dəxi sahib və naşiri olmuşdur. Topçubaşov Əli Mərdan bəyin idarəsində rusca **"Kaspi"**, Ağaoğlu Əhməd ilə Hüseynzadə Əli bəylərin idarəsilə çıxan türkcə **"Həyat"**, mərhum Haşım bəy tərəfindən təhrir olunan **"Yeni həyat"** qəzetələrilə, yenə Hüseynzadə Əli bəyin əsəri-qələmi olan **"Füyuzat"** məcmuəsi kibi, Rusiya və Qafqasiya türklərinin mənafei-siyasiyyə ictimaiyyələrini müdafiə və ehtiyacati-mənəviyyə və ədəbiyyələrini tətmin edən qəzetə və məcmuələr həp bu adamın himməti ilə təəssüs etmişdir.

Yalnız mətbuati-mövqutə (müvəqqəti) degil, ədəbi əsərlərin intişarı ilə türk teatrosunun inkişafına dəxi mərhum Hacının pək çox yardımı toxunmuşdur. Şimdi bolşevik ricalından bulunan Nərimanovun mütəəddid (çoxlu) əsəri-qələmiyyəsi dəxi daxil olduğu halda, bir çox "dram" əsərlərini nəşr etdirən mərhum ilk dəfə olaraq Bakıda bir teatro binası dəxi yapdırtmışdır.

Müxtəlif cəmiyyəti-xeyriyyələrin rəisi, müəssis və fəxri əzası olmaq həsbilə Hacının Azərbaycan türklügünün ictimai təşəkküllərinə göstərdigi hizmət dəxi şayani-qeyddir. Bakı mühitində, türk ürfanının nəşri üçün pək böyük təşəbbüslərdə bulunan "Nəşri-Maarif" cəmiyyətinin rəisi dəxi kəndiləri idi. Bu cəmiyyətin məqsədi köylərdə və mahallarda təsis olunan ibtidai məktəbləri türkcə müəllimləri ehzar (dəvət) etmək idi. Bu məqsədlə "Nəşri-Maarif" müəllimlər kursu təsis olunmuş və ilk dəfə olaraq Türkiyədən dəyərli müəllimlər cəlb olunmuşdu. Bu kursun müdürliyi Türkiyənin dəyərli müəllimlərindən Əhməd Cövdət bəyə həvalə olunmuşdu.

Hacının mütəəssüb axundlara və din naminə satılan xurafata qarşı mücadiləsi və bu xüsusda daha zəif bir halda bulunan münəvvərin qismini himayəsi də həqiqətən unudulmaz hadisələrdəndir. Cahandan bixəbər "üləma"yi bir az tənvir eyləmək (nurlandırmaq) məqsədilə Qafqasiyanın müxtəlif nöqtələrində yaşayan mollalar, sənələrlə bedava Kəlkütlədə müntəşir farsıca "Həblül-Mətin" qəzetəsini almış və bu qəzetənin kimin tərəfindən göndərildigini bir çox zaman kəndiləri bilə bilməmişlərdi. Bu surətlə Hacı mollaları mənus olduqları bir lisanda qəzetə oxumağa alışdırmışdı.

Türk mətbuatının təsisi ilə nəşr və təmimə başladığı ictimai fikirlərdən biri də şiə və sünnü ixtilafının rəfi idi. Bu fikrin qövldən-felə gəlməsi üçün yapılan ilk nümayişin mütəşəbbüsü yenə Hacı Zeynalabdin olmuşdu. 1915-ci sənədə Bakıda bu məqsədlə dəvət olunan üləma nədivəsi, Cəmiyyəti-Xeyriyyə rəisi olmaq sifətilə Hacı tərəfindən açılmış və fikri-vəhdət nümayiş etdirilmişdi.

Hacının fəaliyyəti-ictimaiyyəsi yalnız mətbuat və ictimaiyyətə münhəsir olmayıb, iqtisadi sahədəki fəaliyyəti daha ziyadə müsmir (faydalı) və mütənəvve (müxtəlif) idi. Bakıda Hacının iştirak etmədigi ticari və iqtisadi bir müəssisə və şirkət bulunamazdı. Əksər banklarda əshami (səhmləri) mühümmiyə malik olan bu mütəşəbbüs adam müsəlman sənayesi ilə təəssüs edən bankanın yardımı ilə sərmayələri milli olan bir çox şirkətlər təşəkkül ediyor, türklər iqtisadi rəqabətə əsri üsullarla mücəhhəz olaraq giriyorlardı. Bu xüsusda Hacı, türk sərmayədarlarının rəhbəri olub bilxassə erməni sərmayədarlığına qarşı mücadilə ediyor. Gürcüstanda olduğu kibi, Azərbaycan ərazi və əbniyyəsinin (binalarının) erməni möhtəkirləri əlinə keçməsi mən (mane) olunuyordu. Bütün Qafqasiyada yeganə mənsucat (toxuma) fabrikası Bakıda kəndisinin olub, son sistemli mücəddid dəyirmanlara seyri-səfayin (gəmi nəqliyyatı) idarəsinə və seydi-mahi (ova məxsus) müəssəsatına sahib idi.

Çarizm zamanındakı Rusiya əhalisinin həyati-ictimaiyyəsi bələdiyyələrdə cərəyan edərdi. Bakı bir müsəlman şəhəri olduğu halda, buradakı müsəlman vəkillər qayət məhdud bir səlahiyyətə malik idilər. Şəhər idarəsi süni surətdə Rusiya qanunlarının xristiyanlara təmin elədigi rüchanla (üstünlüklə) erməni əksəriyyətinin əlində idi. Bu inhisara qarşı türk xalqı müşkül və çətin bir mücadilə etməliydi. Bu çətin mücadilədə dəxi Hacının nüfuzu məxsus idi.

Hacı malik olduğu zəkavəti-fitrisi ilə rus hökumətinin Qafqasiya islamlarından əskər almadığı keyfiyyətinə vaxtilə diqqət eyləmiş, bunun, bir zaman gələcək də zərərini çəkəcəgiz diyordu. Bu xüsusda o, bir çoxlarının hiddət və ədəmi-məmnuniyyətinə mucib olsa da, Qafqasiya islamlarından əskər alması üçün siyasi bir təşəbbüs belə etmişdi. Bu fikrin nə dərəcədə musib olduğu sonki hadisat əsnasında zahir oldu. Azərbaycan elani-istiqlal edərkən hökuməti idarə edəcək müvvərənanə, milli təşəkkülati-iqtisadiyyəyə qismən malik olduğu halda, əskəri təşəkkülatdan tamamilə məhrum idi. Bu məhrumiyyət vaxtilə mükəlləfiyyəti-əskəriyyədə bulunmadığından iləri gəliyordu.

Bir zaman vardı ki, növ-zühur Azəri burjua sinfi üçün Hacı nümuneyi-imtisal bir şəxsiyyət idi. Onun yalnız ictimai həyatdakı təşəbbüslərini degil, xüsusi həyatdakı zövq və səliqələrini də təqlid ediyorlardı. Hər kəs evinin təfrişatında (döşənmə) belə Hacıya bənzəmək istiyordu. Xudayi-nabıt (İlahipərəst) olmasına rəğmən Hacı bu xüsusda həqiqətən də şayani-təqlid bir əsəri zövq göstərə biliyordu. Bakıya varid olan müstəsna və yüksək müsafirləri qəbul etmək üçün Hacının qonağından daha münasib bir yer bulmaq təsəvvür olunamazdı.

Bu qədər sərvətə Hacı, səfalətin ən acı günlərini tədarək etmişdi. Bununla bərabər o, təbiətin kəndisinə bəxş eylədigi bir nemətə də malik idi. Bu da uzun ömür idi. Yaşda Zaro Ağadan *(Zaro Ağa əsrimizin ən uzun ömürlü (150 sənə) İstanbulda hamballıq edərdi - Azəri)* bir az fərqli olaraq tərki-həyat edən bu zəki adam sonku günlərdə keçirdigi bütün ələm və istirabatına rəğmən qayəm zində bir ruh ilə mətanətini mühafizə eyləmişdir.

Bir rəvayətlə 117 yaşında ikən vəfat edən bu müstəsna adam Azərbaycan tarixində Rusiya dövrü fəslinin canlı bir şahidi idi. Xanlıqların süqutundan sonra Azərbaycan Cümhuriyyəti elanına qədər təşəkkül və təəzzüv edən Azəri Türk vəhdətinin keçirdigi səfahət onun gözü önündən keçmiş və bu səfahətin qismi-mühümmisində bizzat iştirak eyləmişdir.

Daha bər həyat ikən haqqında bir qism ədəbiyyat vücuda gətirilən bu ümmi (camaat) adamın dari-bəqaya (axirət dünyasına) təşyii başqa bir şərait daxilində, şübhəsiz, müstəsna bir hadisə təşkil edərdi. Şimdi isə yəqin ki, sovet mətbuatı bu "böyük burjua"nın tabutu hüzurunda bir "burjuaya" söylənəcək mənfi isnadət (söylənəcək) nə varsa, həpsini söyləyəcəkdirlər.

Fəqət Hacının ruhu bu isnadatdan mütəəssir olmaz. Onun böyük təsəllisi və ümidi vardır. Uzun ömrü o ümidini bizzat görmək imkanını kəndisinə vermədi. Fəqət ruhu əmin ola bilir. Əsarət zəncirini qıraraq təkrar iadeyi hürriyyət edən millət, onu heç bir zaman digər "burjualar" sırasında tutmayacaq, çünki o, baqiyat (axirət), səlihat (yaxşı işlər) sahibidir. Öylə baqiyat ki, bolşevik həczi dəxi məhv edəməmiş, hər növi təərrüzdən məsun qalmışdır.

Maddətən o da digər burjuylar kibi soyuldu, fəqət mənən, onlar kibi üryan qalmadı, xatirəyi-millətə iflas etmədi!..

Cənabi Həqq ruhunu şad eyləsin!

***Azəri***
***"Yeni Qafqasiya", yanvar 1924, №2***

**P.S. Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib**

## Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə və pul-kredit islahatları

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra ölkənin iqtisadi siyasətinin istiqamətlərini müəyyənləşdirmək üçün geniş islahatlar həyata keçirilməyə başlandı.



Azərbaycan Cümhuriyyətinin pulu. 500 rubl.



100 rubl.






Poçt markaları.

Fətəli xan Xoyskinin Tiflisdə yaratdığı birinci hökumət kabinetində maliyyə naziri vəzifəsinin icrası Nəsib bəy Yusifbəyliyə tapşırıldı. Sonra həmin vəzifəyə müxtəlif vaxtlarda Əbdüləli bəy Əmiraslanov, Məmmədhəsən Hacınski, Slavyan-Rus Cəmiyyətindən olan İ.Protasov, Əliağa Həsənov və Rəşid bəy Qaplanov təyin olundular. Hökumət daha çox bu sahədə qanunvericilik bazasının yaradılmasına üstünlük verirdi. Çünki mükəmməl hüquqi baza olmadan inkişafın ümumi meyillərini tənzimləmək qeyri-mümkün idi. Həmin ilin dekabrında Azərbaycan parlamentinin ilk iclası keçirilir. 1919-cu ilin dekabrına qədər - yəni fəaliyyət göstərdiyi bir il müddətində parlamentdə 215 qanun layihəsi müzakirəyə təqdim edilir. Bunlardan da 82-si məhz maliyyə sahəsinə aid idi. Nazirlik tərəfindən təqdim olunmuş bu layihələrdə maliyyə və pul-kredit sisteminin təşkil edilməsi üçün konkret təkliflər öz əksini tapmışdı. Sənədlərdə beynəlxalq təcrübə, müxtəlif ölkələrin bu sahəyə aid qanunvericilik aktlarının müsbət məqamları nəzərə alınmışdı.

Qeyd edək ki, həmin dövrdə Azərbaycanda 200-dən çox kredit müəssisəsi fəaliyyət göstərirdi. Azərbaycan Dövlət Bankının və kommersiya bankları şöbələrinin, qarşılıqlı kredit cəmiyyətlərinin, Bakı Xüsusi Lombardının, ipoteka krediti banklarının, kiçik kredit müəssisələrinin, mərkəzi poçt-teleqraf və əmanət kassalarının daxil olduğu bu şəbəkə respublikanın maliyyə-kredit sistemində mühüm yer tuturdu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maliyyə və pul-kredit siyasətinin əsas məqsədi dövlət gəlirlərinin artırılmasını təmin etmək və paralel olaraq xərclərin azalmasına nail olmaq, pul və kredit tədavülünü qaydaya salmaq, ümumiyyətlə, dövlətin maliyyə sistemini yenidən qurmaqdan ibarət olmuşdu. Qısa vaxt ərzində bu vəzifələrin öhdəsindən gəlmək çətin olsa da, hökumət bir sıra uğurlar qazana bilmişdi.

Pul tədavülü və inflyasiya məsələsi o illərdə təkcə müstəqilliyini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti üçün deyil, eləcə də Birinci Dünya müharibəsinin təsiri ilə bütün dünya dövlətləri qarşısında duran başlıca məsələ idi. İnflyasiya nəticəsində qiymətdən düşməkdə olan manatın məzənnəsini tənzimləmək mümkün olmasa da, nazirlik ölkədə normal pul tədavülü dövriyyəsini qoruyub saxlamaq üçün ciddi addımlar atmışdı. 1919-cu il sentyabrın 30-da Bakıda fəaliyyətə başlamış Azərbaycan Dövlət Bankının bu sahədə müstəsna əhəmiyyəti olmuşdu. Onun Gəncədə, Şamaxıda, Lənkəranda və başqa şəhərlərdə şöbələri yaradılmışdı.

Qeyd edək ki, Xalq Cümhuriyyətinə qədər Azərbaycanda "Nikolayevski" manatı, "Kerenski" və "Bakı bonları" adlı pul vahidləri işlədilirdi. "Bakı bonları" 1918-ci ilin əvvəllərində dövriyyəyə verilmişdi. 1918-ci ildə cümhuriyyət öz pullarını tədavülə buraxır. Bu pul vahidi "bon" adlanırdı. Azərbaycan Xalq Cümhuriyyəti yaşadığı müddətdə ümumilikdə 2 milyard 345 milyon pul dövriyyəyə çıxarmışdı. Hökumət üçün o pul tədavülünü tənzim etmək ən mürəkkəb məsələlərdən idi. Çünki iqtisadiyyatın inkişafına nail olmaq üçün ilk növbədə pul tədavülünü nizamlamaq lazım idi. Real siyasət və iqtisadi vəziyyət isə bu sahədə daha ciddi işlər görmək imkanını məhdudlaşdırırdı. Amma çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti bəzi irəliləyişlərə nail oldu və dövriyyədə bir neçə pul vahidinin olması faktının aradan qaldırılması, milli valyutanın yaradılması istiqamətində çox ciddi addımlar atdı.

1919-cu ildə Azərbaycan Dövlət Bankının nizamnaməsi işlənib hazırlandı və parlamentin müzakirəsinə təqdim edildi. Elə həmin ilin 16 sentyabrında Azərbaycan parlamenti nizamnaməni təsdiqlədi və sentyabr ayının 30-da Dövlət Bankı fəaliyyətə başladı.

1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarından birini əks etdirən 25, 50, 100, 250 və 500 manat dəyərində kağız əsginaslar dövriyyəyə buraxıldı. Yüksək bədii zövqlə hazırlanmış bu əsginasların üzərində Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin və maliyyə naziri Əliağa Həsənovun imzaları var idi.

Onu da qeyd edək ki, buna qədər Xalq Cümhuriyyətinin dövriyyəyə buraxdığı pullara əhali o qədər də çox etimad göstərmirdi və bu da onların alıcılıq qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarırdı. Bundan başqa, dövriyyədə müxtəlif pul vahidlərinin olması cəmiyyətdə müəyyən tərəddüd və narahatlıq yaradırdı. Azərbaycan Dövlət Bankının təsis edilməsi isə maliyyə, pul-kredit sisteminin qurulmasında mühüm addım oldu. Artıq 1918-ci ilin sonuna qədər Dövlət Bankının ümumi balans dövriyyəsinin həcmi 653 milyon manatı ötmüşdü.

Maliyyə Nazirliyi qısa vaxtda ölkədə maliyyə aparatının yaradılması sahəsində də çox işlər görə bilmişdir. Ölkənin maliyyə strukturunun bütün sahələrində - həm mərkəzi, həm də yerli maliyyə idarələrinin mükəmməl və planlı sistemi yaradılmışdı. Nazirlik ölkədə pul-kredit əməliyyatlarının həyata keçirilməsi üzərində tam nəzarəti təmin etməklə öz işlərini getdikcə daha da təkmilləşdirirdi.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Yeni nəşrlər

# İşıqlı ömürlülərin kitabı




Millətin öz varlığını, azadlığını qoruması, tərəqqi etməsi tarixin bütün dönəmlərində asan olmayıb. Bu yolda mənəvi və fiziki gücünü, mücadilə əzmini, biliyini, bacarığını əsirgəməyən şəxsiyyətlər heç zaman unudulmur. Yeni nəsillər öz vəfa borclarını onların xatirələrini yaşatmaqla, əziz tutmaqla ifadə edirlər. Tanınmış araşdırmaçı, publisist Sabir Gəncəli-Məmmədovun oxuculara təqdim etdiyi yeni kitab - "İşıqlı ömürlər, kövrək talelər (Sənədli hekayələr, publisistik məqalələr, tarixi oçerklər və sənədli povest)" kitabı da tariximizə şərəfli səhifələr yazmış, qürurla yada saldığımız millətin fədakar, qəhrəman övladlarına ehtiramın təcəssümüdür.

Yeni nəşrin "Dövlətçiliyimizin inkişaf etdirilməsində ulu nənələrimizin rolu" adlı ilk bölməsində müəllif xatırladır ki, Azərbaycan nağıllarını, dastanlarını, xüsusilə "Dədə Qorqud" dastanını və bir sıra tarixi kitabları oxuyanda göz önündə ulu nənələrimizin mərdliyi, vətənpərvərliyi canlanır. Bu azərbaycanlı qadınlar - Tomrisi (miladdan əvvəl VII əsr), Məhsəti Gəncəvini (XII əsr), Mehrican Xatunu (XIII əsrin əvvəlləri), Quba xanı Fətəli xanın ömür-gün yoldaşı Tuti Bikəni (XVIII əsr), Xan qızı Ağabəyim ağa Ağabacını (XVIII əsrin sonu, XIX əsrin əvvəlləri) və başqalarını bizdən əsrlər ayırsa da, uzaqlaşdıra bilməyib. Onların hər biri yalnız cəsarəti, qorxmazlığı, mərdanəliyi ilə deyil, eyni zamanda ağlı, zəkası, istedadı ilə nümunədir.

Kitabın ikinci bölməsində qürur hissi ilə xatırladığımız möhtəşəm bir tariximiz əksini tapıb. "Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycan qadınlarının taleyində" adlı bu bölmədə qadın xeyriyyə cəmiyyətlərinin, Bakı Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin fəaliyyəti haqqında geniş məlumat verilib. Müəllif diqqətə çatdırır ki, xeyirxahlıq, səxavətlilik, insanpərvərlik, mərdlik xalqımızın təbiəti, mənəvi aləmi olmuşdur. XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycanın qabaqcıl xanımları da soydaşlarının savadlanması, inkişafı naminə xeyriyyə işlərində böyük fəallıq göstərirdilər. Həmin dövrdə azərbaycanlı ziyalılar əhalinin kütləvi savadlanması üçün məktəblərin açılması, sayca az olan təhsil ocaqlarında isə tədrisin dövrün tələblərinə cavab verməsi, yeni düşüncəli, savadlı, millətsevər mütəxəssislərin yetişməsi üçün bacarıqlarını əsirgəmirdilər.

"Azərbaycan qadınları Cümhuriyyət dövründə - 1918-1920-ci illərdə" başlıqlı yazıda o illərin real tarixi mənzərəsini müəllif gözlərimizin önündə belə canlandırır: "XX əsrin əvvəllərində inqilabların, müharibələrin tüğyan etdiyi, milli azadlıq hərəkatının genişləndiyi bir dövrdə xalqımız öz taleyi haqqında düşünməyə başlamış, əsarətdən xilas olmaq, azad yaşamaq, tərəqqi etmək, yeni cəmiyyət yaratmaq uğrunda mübarizəyə atılmışdı. Bu oyanış, bu dirçəliş müsəlman aləmində ilk dəfə olaraq Odlar yurdumuzda Azərbaycan Demokratik Cümhuriyyəti yaratdı".

"İşıqlı ömürlər, kövrək talelər" kitabında Azərbaycanın elm, mədəniyyət, incəsənət, mətbuat, eləcə də digər sahələrində birinci olmuş qadınlarımızın həyat və fəaliyyətləri haqqında zəngin məlumatlar var. Həmidə xanım Cavanşir-Məmmədquluzadə, Hənifə xanım Məlikova, Xədicə Əlibəyova, Şəfiqə Əfəndizadə, Nabat Nərimanova, Asiya Axundzadə, Maral Nəbizadə, Xədicə Qayıbova, Gülarə Köylü qızı, Ümgülsüm Sadıqzadə və daha neçə-neçə zərif xanımlar soydaşlarının öz haqlarını, hüquqlarını anlamağa, müdafiə etməyə qadir olacaq səviyyəyə çatmaları üçün mücadilələrdə həyat yoldaşları, ataları, qardaşları və digər yaxın qohumları ilə bir sırada dayandılar. Millətinin fədailəri olan qadınlarımızın əksəriyyəti ağır həyat yaşadı, taleyi faciəli oldu. 1937-ci ilin repressiyasında onların da bir çoxu haqsız yerə günahlandırıldı, həbs olundu, kimisini sürgünə göndərdilər, kimisini güllələdilər. Onların hər biri haqqında kitabda böyük məhəbbətlə söz açılır.

Qeyd edək ki, kitabın müəllifi Sabir Gəncəli-Məmmədov uzun illərdir mətbuatda dərin araşdırmalarının bəhrəsi olan müxtəlif janrlı yazıları ilə çıxış edir. O, bədii yaradıcılıqla da məşğul olur, şeirlər, sənədli hekayələr, tarixi oçerklər və sənədli povestlər müəllifidir. Sabir Gəncəlinin əsərlərinin əsas mövzusu qadınlarımızdır. Azərbaycanın qəhrəman, cəfakeş, fədakar qadınlarının keşməkeşli ömür yollarını, millətin işıqlı gələcəyi naminə gördükləri böyük işləri tarixi faktlara əsaslanaraq, ustalıqla qələmə alır. "İşıqlı ömürlər, kövrək talelər" kitabının ön sözündə müəllifin özü də qeyd edir ki, inqilabdan əvvəl və cümhuriyyət dövründə Azərbaycan qadınlarının maarif və mədəniyyətin inkişafında xidmətləri və 30-cu illərdə bu qadınların repressiyaya məruz qalmaları haqqında yazdığı mindən artıq məqalə, sənədli hekayə, povest, tarixi oçerk, xatirə, məlumat, doqquz ensiklopedik toplu və iyirmidən artıq kitab, tarixçi alimlərimizin dediyi kimi, tarixşünaslıqda və mənbəşünaslıqda mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın mərd, azadlıqsevər qadınlarının nəcib, xeyirxah əməllərindən bəhs edən "İşıqlı ömürlər, kövrək talelər" kitabı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz bir vaxtda yaddaşımızı təzələyir və yeni məlumatlarla zənginləşdirir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

*Təkrar*

# Azərbaycan Respublikasının Energetika Nazirliyi mərhələli tədbirlər planının hazırlanması işlərinin satın alınması ilə əlaqədar açıq tender elan edir

Tender 1 Lot üzrə keçirilir:

Ölkədə dayanıqlı və etibarlı istilik təchizatı sisteminin yaradılması, istehlakçıların fasiləsiz və keyfiyyətli istilik enerjisi ilə təmin edilməsi, isitmə üçün istifadə edilən təbii qaz və elektrik enerjisi sərfiyyatının azaldılması, enerji resurslarından səmərəli istifadə olunması, yanğın və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə "Azəristiliktəchizat" ASC-nin texniki, təşkilati və maliyyə vəziyyəti ilə bağlı diaqnostik araşdırmanın aparılması və optimallaşdırılma tədbirlərinin həyata keçirilməsi üçün mərhələli tədbirlər planının hazırlanması işləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Elçin Mehrəliyev (telefon: 598 16 53/54 (daxili 1132), mob: +994502040807).

İştirak haqqı: 350 manat .

**Bank rekvizitləri: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT: CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN: 1300087531**
**Hesab AZ44CTRE00000000000002218301**

**Təyinatı mütləq yazılmalıdır.**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 5 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28.06.2018-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11.07.2018-ci il saat 11:00-a qədər nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsində yerləşən ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12.07.2018-ci il saat 15:00-da nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Azərişıq" ASC 2018-ci ildə tələb olunan ofis ləvazimatlarının satın alınması məqsədilə açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**
Ofis ləvazimatlarının satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın bankı: "KapitalBank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Azərişıq" ASC-nin Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs: Rövşən Əsgərov (telefon: 440-39-93 (daxili 22-33))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 iyul 2018-ci il saat 15:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 09 iyul 2018-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 iyul 2018-ci il saat 16:00-da "Azərişıq" ASC-nin Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

# *"Azərbaycan İnvestisiya Şirkəti" ASC* kotirovka sorğusu elan edir

"Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala Sənaye Məhəlləsinin elektrik enerjisi təchizatı sisteminin təkmilləşdirilməsi üçün avadanlıqların və onların quraşdırılması işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir.

Maraqlanan şirkətlər +994(12) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11 iyun 2018-ci il saat 18:00-dək qəbul olunur.**

# BİLDİRİŞ

**"Təmiz Şəhər" ASC-nin nəqliyyat vasitələri üçün şinlərin satın alınması məqsədilə keçirdiyi açıq tenderdə "TS Motors" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.**

***Tender komissiyası***

# Ermənistan silahlı bölmələri sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bakıda 30, bəzi bölgələrdə 34 dərəcə isti olacaq




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, iyunun 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Temperaturun Abşeron yarımadasında gecə 17-19°, gündüz 27-32° isti, Bakıda gecə 17-19°, gündüz 28-30° isti olacağı ehtimalı var.

Xəbərdarlığa əsasən, Bakıda və Abşeron yarımadasında iyunun 7-si axşamdan 9-u gündüzədək şimal-qərb küləyinin arabir güclənəcəyi ehtimal edilir. İyunun 9-da gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° aşağı enəcək.

Azərbaycanın qərb rayonlarından başlayaraq gündüz bəzi yerlərdə şimşək çaxacaq, arabir yağış yağacaq. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Temperatur gecə 17-22°, gündüz 29-34° isti, dağlarda gecə 9-14°, gündüz 15-20° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Temperaturun gecə 11-16° isti, gündüz 23-28° isti olacağı ehtimal olunur.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Temperatur gecə 9-14° isti, gündüz 15-19° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dağlıq ərazilərdə dolu düşəcəyi ehtimal olunur. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Temperatur gecə 15-20° isti, gündüz 26-31° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Temperaturun gecə 14-18° isti, gündüz 22-27° isti, dağlarda gecə 8-13° isti, gündüz 15-20° isti olacağı ehtimal olunur.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Temperatur gecə 17-22° isti, gündüz 29-34° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Temperaturun gecə 17-21° isti, gündüz 27-32° isti, dağlarda gecə 12-16° isti, gündüz 23-28° isti olacağı ehtimal edilir.

## İqtisadi xəbərlər

### Qeyri-neft məhsullarının ixracı 20 faizədək artıb

*Bu ilin ilk dörd ayında ölkə üzrə qeyri-neft məhsullarının ixracı 20, ÜDM-də qeyri-neft sektorunun çəkisi 3 faizədək artıb. Həm fiskal, həm də tədiyə balansında dayanıqlılıq müşahidə edilib.*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Azərbaycanın əsas tərəfdaşlarının milli valyutalarında son aylardakı dalğalanmalar manatda təkrarlanmayıb, inflyasiya cilovlanaraq təkrəqəmli həddə endirilib: "Beynəlxalq Valyuta Fondu Azərbaycanda qeyri-neft sektorunda ÜDM-in 2018-ci ildə 4 faiz, 2019-cu ildə 3,2 faiz artacağını proqnozlaşdırır".

### Aİ-nin Azərbaycana yatıracağı investisiyalarının həcmi 30 milyard dollara çata bilər

*"Azərbaycan və Avropa İttifaqı (Aİ) ölkələri arasındakı iqtisadi münasibətlər biznes mühitinin yaxşılaşdırılması üçün yaxşı fürsətdir. Biz elə bir sxem qurmalıyıq ki, 2021-ci ilədək Şərq Qonşuluğu və Danışıqların Genişlənməsi çərçivəsində investisiyaların həcmi 30 milyard dollara çata bilsin".*

Bu fikirləri Avropa Komissiyasının Şərq Qonşuluğu və Danışıqların Genişlənməsi (DG NEAR) üzrə baş direktoratı, Şərq Qonşuluğu üzrə direktoru Lourens Meredit səsləndirib. L.Meredit onu da bildirib ki, Azərbaycan və Aİ arasındakı münasibətlər strateji tərəfdaşlıq mövqeyindədir. "Aİ ölkələrinin Azərbaycan üçün çağırışları var. Bunlardan biri yeni müasir texnologiyalar və innovasiyalardan istifadəyə aiddir. Digəri isə investisiyaların əhəmiyyətidir".

### Ölkəmiz Yunanıstanda keçirilən beynəlxalq sərgidə təmsil olunur

*Yunanıstanın paytaxtı Afinadakı "Metropolitan Expo" mərkəzində dünyanın ən böyük dənizçilik sərgilərindən sayılan XXV "Poseydoniya-2018" öz işinə başlayıb.*

Sərgidə 160 illik yubileyini qeyd etməyə hazırlaşan və ölkənin qocaman şirkətlərindən biri - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi öz stendi ilə təmsil olunur. Stenddə ölkəmizin dənizçilik sahəsi, o cümlədən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi, Bakı Gəmiqayırma Zavodu haqqında məlumatlar, videoçarxlar nümayiş etdirilir.

Stendin özəlliklərindən biri burada yaradılan milli guşədir. Milli suvenir və əşyalarla bəzədilən guşədə ölkəmizin tarixi, mədəniyyəti, mətbəxi tərənnüm olunur. Bütün bunlar gəmiçiliyin stendinə marağı bir qədər də artırıb.

Məlumat üçün bildirək ki, nüfuzlu biznes platformalardan sayılan və iki ildən bir keçirilən sərgidə bu il ümumilikdə 92 ölkədən 1900-dən çox şirkət iştirak edir. Onların arasında dənizçiliklə əlaqəli qurumlar, müxtəlif beynəlxalq təşkilatlar, təsnifat cəmiyyətləri, təhsil müəssisələri var. Sərgiyə dünyanın ən böyük gəmi istehsalçıları olan Çin, Yaponiya və Koreyadan da nümayəndələr qatılıb.

### May ayında qiymətlər sabit qalmışdır

*Dövlət Statistika Komitəsi inflyasiyanın səviyyəsi barədə son rəqəmləri açıqlayıb. Bildirilir ki, cari ilin yanvar-may aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 3,2 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 3,2 faiz, qeyri-ərzaq mallarının qiymətləri 3,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,6 faiz bahalaşmışdır.*

Keçən ay isə aprel ayına nisbətən ərzaq məhsullarının qiymətləri 1,3 ucuzlaşmış, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 1,6 faiz bahalaşmış, qeyri-ərzaq mallarının qiymətləri sabit qalmışdır. Ümumilikdə istehlak məhsullarının və xidmətlərin qiymətləri əvvəlki ayla müqayisədə sabit qalmışdır.

# ELAN

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ali təhsilli, 2 xarici dil bilən və yaşı 25-dək olan Azərbaycan Respublikasının qadın vətəndaşlarının həqiqi hərbi xidmətə qəbulunu elan edir.

Namizədlərin xarici dil bilikləri peşəkar mütəxəssislər tərəfindən qiymətləndiriləcəkdir.

Xidmətə qəbul olmaq istəyən vətəndaşlar Dövlət Sərhəd Xidmətinin aparatına müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Z.Əliyeva küçəsi, 30**
**Əlaqə telefonu: 493-62-47**

# Zaqatalada dövlət sərhədini pozmağa cəhd edən iki nəfər saxlanılıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməliyyat-axtarış və sərhəd mühafizəsi tədbirlərini uğurla davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyunun 4-də Xidmətin sərhəd qoşunlarının Zaqatala sərhəd dəstəsinin hərbi qulluqçuları Balakən rayonunun Mazımqara kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasının qarşısını alıblar. Belə ki, sərhəd naryadı tərəfindən dövlət sərhədində Azərbaycan vətəndaşları - 1983-cü il təvəllüdlü Hacılı Ramin Rasim oğlu və 1988-ci il təvəllüdlü Qasımov Fəxrəddin Azad oğlu saxlanılıblar.

İlkin araşdırma zamanı R.Hacılı ölkədən çıxışına qadağa qoyulması səbəbindən dövlət sərhədindən buraxılış məntəqələrindən ölkə ərazisini tərk edə bilməməsini və sərhəd zastavasının xidməti sahəsindən dövlət sərhədini pozmaqla qanunsuz yolla Gürcüstan ərazisinə keçməyə cəhd etməsini, F.Qasımovun isə bu əməlin həyata keçirilməsində ona kömək göstərdiyini etiraf edib. F.Qasımov da eyni məzmunlu ifadə verib.

R.Hacılı 250 min manat məbləğində borclarının olduğunu, xaricə getməklə bu borcları işləyərək qaytarmağa çalışacağını bildirib. Saxlanılmış şəxslər barədə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılıb.

*"F" MMC-yə məxsus 2901433421 saylı VÖEN şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8682
Sifariş 1676